**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Müəllimlər İnstitutu**
**Mingəçevir filialı**

# PEDAQOJİ TƏCRÜBƏ PROQRAMI VƏ İXTİSAS ÜZRƏ TƏCRÜBƏNİN TƏŞKİLİ

## DƏRS VƏSAİTİ

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin «__»_______» qərarı ilə
təsdiq edilmişdir.

www.preslib.az
PREZIDENT
KITABXANASI

**Mingəçevir – 2007**

**TƏRTİB EDƏNLƏR:**

**Aslan Həsən oğlu Dəmirov**
Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialının direktoru, sosiologiya elmləri doktoru.

**Məmmədov Səhyəddin Məhyəddin oğlu**
Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialının pedaqogika və psixologiya kafedrasının baş müəllimi.

**İsmayılov Şahismayıl Namaz oğlu**
Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialının, baş müəllimi, ADU-nun dissertantı, təcrübə şöbəsinin rəhbəri.

**RƏYÇİLƏR**:

**Saleh Qulam oğlu İbrahimov**
fəlsəfə elmləri namizədi, dosent.

**Məmmədov Sahib Əmirxan oğlu**
AMİ-nin Mingəçevir filialı pedaqogika və psixologiya kafedrasının müəllimi, p.e.n., «Əməkdar müəllim. »

**MÜNDƏRİCAT**


**Giriş**

**Müəllimlərin hazırlanması proqramlarında ixtisas üzrə təcrübənin rolu**

**İxtisas üzrə təcrübə proqramlarının həyata keçirilməsi**

**Əlavələr**

**Azərbaycan Respublikası Təhsil Nazirinin 01.05.2002-ci il 395 №-lt əmri**

**Ali və orta ixtisas təhsilli məktəblərin tələbələrinin pedaqoji təcrübəsinin təşkili və keçirilməsinə dair müvəqqəti qaydalar**

**Məktəbəqədər tədris müəssisələrində pedaqoji təcrübə**

**Təcrübə üzrə tələbənin yekun balının hesablanması meyyarları və metodikası**

**Tələbələrin pedaqoji təcrübəsinin təşkili və keçirilməsinə dair tövsiyələr**

**Təcrübəçi tələbələrin təhsil verdikləri pedaqoji təcrübə sənədləri. Gündəlik**

**Fəal dərsin quruluşu**

**Tərbiyəvi söhbət icmalının tərtibi metodikası**

**Məktəb gigiyenası üzrə tapşırıqların yerinə yetirilməsi metodikası**

**Təcrübəçi tələbənin hesabatı**

**Ədəiyyat**

**GİRİŞ**

Bu dərs vəsait tələbələr üçün ixtisas üzrə uğurlu təcrübə proqramının tərtib və tətbiq edilməsi məsələsində kiçik yaşlı uşaq müəllimlərinin hazırlanması üzrə proqram dəstəkləmək məqsədi ilə yaradılmışdır. Dərs vəsaitində aşağıdakı məsələləri əhatə edən təkliflər verilmişdir. İxtisas üzrə təcrübə yerlərinin (tələbələrin dərs deyəcəyi yerlər və ya praktikum yerləri də daxil olmaqla) seçilməsi qaydası; ixtisas üzrə təcrübə proqramlarının icrası zamanı müəllimlərin hazırlanması üzrə proqramların, məktəblərin və digər tədris müəssisələrinin, eləcə də tələbələrin rol və məsuliyyətləri; ixtisas üzrə iş proqramının uğurlarının qiymətləndirilməsi. Dərs vəsaitinin ilk növbədə müəllimlərin hazırlanması üzrə proqram fak ültəsi üçün nəzərdə tutulduğuna baxmayaraq, o, əməkdaşlıq edən müəllimlər və məktəblər, eləcə də tələbələrin özləri üçün də faydalı ola bilər.

Pedaqoji kadr hazırlığının ən vacib sahələrindən biri pedaqoji təcrübədir. Pedaqoji təcrübə prosesində tələbələrin ali məktəblərdə aldıqları bilik dərinləşir, möhkəmlənir, tələbələr pedaqoji iş sahəsində yeni bacarıq və vərdişlərə yiyələnirlər. Mütəxəssis hazırlığı məhz praktik yolla başa çatır, nəzəri biliklər pedaqoji təcrübə müddətində əməli icra oluna-oluna mənimsənilir. Bu yolla pedaqoji təfəkkür, pedaqoji qabiliyyət formalaşır ki, bunlar da pedaqoji səriştənin vərdiş halında möhkəmlənməsinə səbəb olur.

Pedaqoji təcrübə kadrları bir mütəxəssis kimi tam formalaşdırır.

2004/2005-ci tədris ilində Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialının «İbtidai təhsilin pedaqogikası və metodikası», «Məktəbəqədər təhsilin pedaqogikası və metodikası», «Riyaziyyat infar- matika, «Xarici (ingilis) dili» ixtisas və Azərbaycan dili və ədəbiyyat ixtisaslarının III və IV kurs tələbələri şəhərin ümumtəhsil məktəblərində pedaqoji təcrübədə iştirak edirlər. Həmin qruplarda pedaqoji təcrübələrin nəticələri 100 ballı sistemlə qiymətləndirilir.

Pedaqoji təcrübələrin nəticələrinin çoxballı sistemlə qiymətləndirilməsi Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialında beş ildir ki, tətbiq olunur. «Metodik göstəriş» - təcrübəçi tələbələrə, pedaqoji təcrübədə iştirak edəcək müəllimlərə kömək məqsədi ilə, tələbənin yekun balının hesablanması meyarları və metodikası ilə onları tanış etmək, təcrübələrin keçirilməsinə dair müxtəlif metodik göstərişlər, tövsiyələr vermək məqsədi ilə tərtib olunmuşdur.

## MÜƏLLİMLƏRİN HAZIRLANMASI PROQRAMLARINDA İXTİSAS ÜZRƏ TƏCRÜBƏNİN ROLU
## İXTİSAS ÜZRƏ TƏCRÜBƏ NƏDİR?

Müəllimlərin hazırlanmasına dair istənilən proqramın zəruri bir hissəsini ixtisas üzrə təcrübə təşkil edir. Praktikum və ya «tələbənin dərs deməsi» çox zaman bu ixtisas təcrübəsinin kulminasiyası olur. Praktikumun müəllim ixtisasına yiyələnmə proqramı[1] çərçivəsində bir sıra xüsusi adlara və statusa malik olmasına baxmayaraq, ixtisas üzrə bütün təcrübələr bir-birinə bənzəyir. Ümummilikdə bu təcrübələrin iki səciyyəvi cəhəti var:

- Onlar tələbələrin müəllimlik peşəsi mədəniy-yətinə uyğunlaşmasına yardımçı olan inkişaf yolunu təmin edir;
- Onlar tələbələrə nəzəriyyəni birbaşa təcrübə ilə birləşdirmək imkanı verir. (Pozner, 1996).

İxtisas üzrə təcrübələrin digər ümumi cəhətləri də var. Birincisi, ixtisas üzrə təcrübələr öz təyinatından asılı olaraq, müəllimi və ya təlim şəraitini prosesə cəlb edir. İkincisi, onlar öyrənən şəxsi cəlb edir. Üçüncüsü, onlar müəllimin öyrənən kəslə bölüşdüyü təlim materialını (bu materialın texniki informasiya, vərdişlər və ya şəxsi hisslərdən ibarət olmasından asılı olmayaraq) cəlb edir. Nəhayət, ixtisas üzrə bütün təcrübələr təlim və öyrənmə təcrübəsinə təsir göstərən qaydalardan, üstünlüklərdən, dəyərlərdən, gözlənilən nəticələrdən və fərdi yetişmə mühitindən ibarət olan kontekst çərçivəsində aparılır.

__________
[1]İxtisasa yiyələnmə treninqi diplomlu müəllim olmağa hazırlaşan tələbələrin ixtisas hazırlığı keçməsini nəzərdə tutur. İxtisas artırma treninqi isə artıq bu ixtisas almış müəllimlərin təkmilləşməsi analayışını ifadə edir.

### İXTİSAS ÜZRƏ TƏCRÜBƏNİN TİPLƏRİ

Oxşar cəhətlərin bu qədər çox olmasına baxmayaraq, ixtisas üzrə hər hansı iki təcrübə bir-birini dəqiq təkrarlamır. Tələbələrə ixtisasla bağlı işi müxtəlif məşğələlərdə, müxtəlif yaşlı və qabiliyyətli uşaqlarla aparmaq seçimini təklif etmək olar (Bu tələbələrə hərtərəfli təcrübə qazanmaq və öz maraqları haqqında daha çox şey öyrənmək imkanı verir). İxtisas üzrə təlimlə bağlı məşğələlər məktəblərdə, məktəb idarəçiliyi mərkəzində, məktəb klinikasında və ya ictimai agentlikdə keçirilə bilər.

İxtisas üzrə təlim keçən tələbələrin malik ola biləcəkləri təcrübə tipləri sırasına sinif müşahidəsi, öyrətmək, məktəb rəhbərlərinin və müəllimlərin yardımçı olmaq, məktəb həyatında və ictimai tədbirlərdə iştirak etmək, dərs demək və təcrübə mübadiləsi aparmaq kimi formalar daxil ola bilər. Bundan başqa, ixtisas üzrə hər bir təcrübə həmin təcrübəyə sponsorluq edən müəllimlərin hazırlanması üzrə proqramın fəlsəfi oriyentasiyasının təsirinə məruz qalır. Müəllimlərin hazırlanması üzrə proqram təcrübənin necə təşkil və icra edilməsini xeyli dərəcədə müəyyənləşdirmiş olur. Məsələn, nəzəri kurs işinin tətbiq olunmuş təcrübələrlə birləşdirilməsini qiymətləndirən müəllimlərin hazırlanması üzrə proqram tələbələr üçün onların sinifdəki işini ixtisas üzrə işlə sıx əlaqələndirən bir sıra ixtisas təcrübələrini özündə əks etdirir. İxtisas üzrə işi qiymətləndirməyən müəllimlərin hazırlanması üzrə proqram isə belə bir iş üçün az imkanlar və minimal kömək təklif edir və nəzəri işi ixtisas üzrə işlə əlaqələndirməyə zərurət kimi yanaşmır.

Praktikum və ya tələbənin dərs deməsi ixtisas üzrə təcrübənin bir formasıdır. İxtisas üzrə digər təcrübələr kimi, praktikum da ilkin təlim təcrübəsini inkişaf etdirmək məqsədi güdən keçid təcrübəsidir, o tələbəyə real və əlverişli bir mühitdə müşahidə və təlim üçün imkanlar yaradır. Praktikumda bütünlükdə ixtisas üzrə təcrübə üçün nəzərdə tutular əsas iştirakçılarından daha az sayda şəxs iştirak edir. Buraya dərs deyən tələbəyə nəzarət edən müəllim[1], eləcə də müəllimlərin hazırlanması proqramı üzrə inspektor (həm də təlimatçı olan bu şəxs təcrübə keçən tələbəyə və ya tələbələr qrupuna nəzarət edir)[2] daxildir.

İxtisas üzrə digər təcrübələrdən fərqli olaraq, çox zaman praktikum erkən tədqiqatın əsas hissəsi kimi sonradan müəllimlərin hazırlanması üzrə proqram çərçivəsində həyata keçirilir. O, əsasən, tələbənin bir neçə, daha az intensiv olan təlim təcrübələrində iştirak etməsindən sonra aparılır. Tələbənin öyrəndiyi kursla bağlılın dərəcəsindən asılı olaraq praktikum müddəti bir neçə həftədən bir ilə qədər ola bilər.

**İxtisas üzrə işin və praktikanın rolu**

Son illər pedaqoji təhsil sahəsi üzrə ekspertlər müəllimlərin hazırlanması prosesi çərçivəsində ixtisas üzrə təcrübələrin və praktikanın rolunun mühüm oldu-

__________
[2]Əməkdaşlıq edən müəllim dedikdə, bəzən nəzarətçi (yoxlayıcı) müəllim və ya məktəb laboratoriya müəllimi (laborant) nəzərdə tutulur.
[3]İnspektora verilən spesifik ad çox zaman müəllimlərin hazırlanması üzrə proqramın tipi ilə əlaqədar olur. məsələn, universitet inspektoru, kollec inspektoru.

ğu barədə yekdil fikrə gəlmişlər. Bu yekdil fikri şərtləndirən ümumi səciyyəvi cəhətlər aşağıdakılardır:

- İxtisas üzrə iş, xüsusən, tələbələri sinifdə nəzəri bilikləri təcrübə ilə əlaqələndirməyə həvəsləndirdiyi zaman müəllimlərin hazırlanması işinin zəruri və qiymətli hissəsidir.

■ Tələbələr onlara müxtəlif məşğələləri sınaqdan çıxarmaq imkanı verən bir sıra ixtisas təcrübələrindən faydalanırlar (müxtəlif yaşa və xarakterə malik uşaqlarla aparılan dərslər, müxtəlif iş üslubu və fəlsəfi düşüncəsi olan müəllimlər, eləcə də müxtəlif sosial və iqtisadi şəraitləri təmsil edən öyrəncilər).

■ İxtisas üzrə iş müəllimlərin hazırlanması üzrə proqram çərçivəsində mümün qədər tez başlamalı və proqram davam etdikcə ona daha çox əhəmiyyət verilməlidir.

■ Təcrübə üstəgəl düşüncə inkişafın əsasıdır. Müəllimlərin hazırlanması üzrə proqramlar tələbələri nəzəriyyəyə və praktikanı əlaqələndirməyə həvəsləndirirsə, o zaman bu proqramlar tələbələrin öz bacarıqlarını hazırlıq proqramı başa çatdıqdan sonra da uzun müddət davam etdirən «düşüncəli praktikantlar» olmasına yardım göstərmiş olur.

## İXTİSAS ÜZRƏ TƏCRÜBƏ PROQRAMLARININ HƏYATA KEÇİRİLMƏSİ MÖVCUD PROBLEMLƏR

Ekspertlərdən biri demişdir: «İxtisas üzrə təcrübə proqramlarına olduqca az diqqət yetirilir. Halbuki müəllim peşəsinə yiyələnmiş tələbələr sonradan dönə-dönə qeyd edirlər ki, pedaqoji təhsil aldıqları müddət ərzində onlar üçün ən qiymətli təxrübə tələbə kimi dərs demək olmuşdur» (Slik, 1955). Aparılan tədqiqatlar ixtisas üzrə səmərəli təcrübə proqramlarının tərtib və tətbiq edilməsi sahəsində bir sıra ümumi problemlərin mövcud olduğunu müəyyənləşdirmişdir. Həmin problemlər aşağıdakılardır:

▪İxtisas üzrə təcrübə yerlərinin seçilməsinə lazımi diqqətin yetirilməsi. Çox zaman ixtisas üzrə təcrübə və ya praktikum yerləri yalnız praktikumda iştirak etmək arzusu əsasında seçilir. Bu amillərin mühümlüyünü qəbul etməklə yanaşı, ixtisas üzrə təcrübə yerlərinin seçilməsi hansı yerlərin daha yaxşı öyrənmə təcrübələrini təmin edə bilməsinə əsaslanmalıdır.

▪İxtisas üzrə təcrübə yerləri çox zaman təcrid olunmuş vəziyyətdə fəaliyyət göstərir. Bir çox təcrübə və ya praktikum yerlərində tələbə yalnız bir müəllimlə və bir qrup uşaqla işləyir. Ola bilər ki, dərs deyən tələbə heç məktəb rəhbərliyinə, digər müəllimlərə, kitabxana işçilərinə, katiblərə və texniki işçilərə təqdim olunmasın. Dərs deyən tələbə çox az hallarda məktəbin digər işçilərinin fəaliyyətini müşahidə etməyə və ya onlarla ünsiyyətə dəvət olunur. Yaxud da həmin tələbə, ümumiyyətlə, müəllimlərin hazırlanması üzrə proqram çərçivəsində öz təcrübələrini digər tələbələrlə və ya fakültə ilə bölüşməyə dəvət olunmur.

▪Təlimin sosial aspektləri üçün hazırlığın zəif olması. Müəllimlərin hazırlanması üzrə proqramlar tələbələri müəllim olduqları zaman onların daşımalı olacaqları hər cür məsuliyyətə az-az hallarda hazırlayır. Məsələn, dərs deyən tələbə əsasən dərs planını işləyib hazırlamaq və dərs demək üçün təcrübə keçdiyindən, ona məktəb idarəçiliyi işlərinin öhdəsindən necə gəlmək, işçilərin təcrübə qazanması işinə necə diqqət yetirmək və ya ailələrlə və cəmiyyətlə səmərəli qarşılıqlı münasibətləri necə qurmaq öyrədilmir. Bacarıqlı müəllim olmaq üçün bu vərdişlərə yiyələnmək tələb edilir.

▪Əməkdaşlıq edən əsas müəllimin fəaliyyətləri və ya onun tələbəyə məsləhət görə biləcəyi fəaliyyətlər üzərində düşünmək və onları əsaslandırmaq imkanlarının azlığı. Müəllimlərin hazırlanması üzrə proqramlarda yalnız sinifdə «nəyin səmərə verdiyi» deyil, həmçinin, dərs deyən tələbənin təcrübə (həm özünün, həm də başqalarının təcrübəsi) üzərində düşünməsi yolları da öz əksini tapmalıdır. Əməkdaşlıq edən müəllim dərs deyən tələbəyə özünün unikal təlim üsullarını tapmaqda və təcrübədən keçirməkdə kömək etməyə görə əsas məsuliyyəti daşıyan şəxsdir. Bu işin yerinə yetirilməsi həm əməkdaşlıq edən müəllimdən, həm də dərs deyən tələbədən sinifdəki əsas təlim fəaliyyətləri üzərində düşünməyi və onları əsaslandırmağı tələb edir.

▪Əməkdaşlıq edən əsas müəllimlərə çox az hallarda dərs deyən tələbələrin treninqi üçün əlavə məsuliyyətə görə yardım göstərilir. Əməkdaşlıq edən müəllimlərdən çox zaman öz gündəlik işlərindən əlavə dərs deyən tələbələrə nəzarət etmək də tələb olunur. Nəticədə bu, əməkdaşlıq edən müəllimlərin dərs deyən tələbələrə sərf edə biləcəyi vaxt və diqqətin məhdudlaşmasına səbəb olur.

▪Müəllimlərin hazırlanması üzrə proqramlar çərçivəsində ixtisas təcrübələri üzrə yoxlayıcı (supervayzer) vəzifəsinin nüfuzu aşağı enməyə meyllidir. Çox yoxlayıcılar gələcək müəllimlərlə orta məktəblərdə ixtisas üzrə iş aparmağa nə qədər çox cəhd edirlərsə, onların ali pedaqoji nüfuzu və mövqeyi də bip o qədər zəifləyir. (Qudlad, 1990). Buna görə də müəllimlərin hazırlanması üzrə proqramlarda tələbələrə yüksək keyfiyyətli yoxlayıcılıq xidmətini göstərilməsində yoxlayıcılıq fakültəsinin elə güclü marağı yoxdur.

▪Tələbələrin özlərinkindən fərqli mədəni və irqi mənsubiyyətə malik uşaqlarla ixtisas üzrə iş təcrübəsinin çatışmaması. Müəllimlərin hazırlanması üzrə proqramlarda tələbələrin özlərindən fərqli olan uşaqlara necə təlim vermələrinin öyrədilməsi işi də əksini tapmalıdır. İxtisas üzrə təcrübə tələbələrə öz mədəniyyətlərindən fərqli olan mədəniyyətdən öyrənmək və belə mədəni mühitdə yaşamaq imkanı təklif etməlidir.

**İxtisas üzrə təcrübə proqramlarının verdiyi dərslər**

Yuxarıda göstərilən problemləri yenilikçi yollarla həll edən müəllimlərin hazırlanması üzrə proqramların sayı getdikcə artmaqdadır. Nəticədə bu proqramların əsasında dərs deyən tələbələr üçün ixtisas üzrə daha əhəmiyyətli təcrübə proqramları yaradılmışdır. Onların uğurlu olmasını təmin edən cəhətlər aşağıdakılardır:

**Fəlsəfi əsas.** Müəllimlərin hazırlanması üzrə təkmil proqram yaxşı əlaqələndirilmiş və möhkəmləndirilmiş elə konseptual və ya fəlsəfi əsasa malik olmalıdır ki, müəllimlərin hazırlanması üzrə bütün kursları bu əsas üzərində qurmaq mümkün olsun. Başqa sözlə desək, müəllimlərin hazırlanması üzrə proqram fakültə proqramında hazırlanması nəzərdə tutulan müəllim tipinin səciyyəvi xüsusiyyətlərini və belə bir müəllim olmaq üçün tələbələrin cavab verməli olduqları standartları müəyyənləşdirir. Buna görə də müəllimlərin hazırlanması üzrə proqramın konseptual və ya fəlsəfi əsası bu proqramın məqsədlərini və həmin məqsədlərə çatmaq üçün nəzəri və praktik işi əlaqələndirmək yollarını özündə birləşdirir.

**Mütəmadi öyrənənlərin hazırlanması üzrə məqsəd.** Uğurlu proqramlarda belə bir cəhət qəbul olunur ki, müəllimlər öz karyeralarına başladıqları zaman heç də hər şeyi bilmədiklərindən, müəllimlərin hazırlanmasının ən əsas diqqət yetirilməli cəhəti tələbələrə öz öyrənmə prosesini davam etdirmək və «düşünən

praktiklər» olmaq arzusunu təlqin etməkdir. Con Devinin dediyi ki, «biz birbaşa təcrübənin özündən daha çox təcrübə üzərində düşünmək nəticəsində öyrənirik» (Devi, 1933). Yaradıcı düşünməyə meyl etməyən müəllimlər şablon davranışa əsaslanır və düşüncədən daha çox impuls, ənənə və inzibatçılıq əsasında hərəkət edirlər. Daimi öyrəncilər və yaradıcı düşünən müəlolimlər isə, əksinə, məktəblərin məqsədlər, metodlar, problemlər və onların həllindən irəli gələn vəzifələri tənqidi şəkildə tədqiq edirlər ki, özlərinin təlim üslubuna və xüsusi dərs otaqlarının tələblərinə daha çox uyğun gələn düşünülmüş yollarla hərəkət edə bilsinlər.

**İxtisas üzrə təcrübələrin ardıcıllığı.** Müəllimlərin hazırlanması üzrə uğurlu proqramlarda tələbələrin nəzəri kurslara cəlb edilməsi ilə yanaşı, inkişaf ardıcıllığına uyğun olaraq, ixtisas üzrə təcrübələr də müəyyənləşdirilir. Məsələn, birinci il tələbə həftənin bir gününü əsas tədris proqramı ilə sıx əlaqələr saxlayan təcrübə yerində keçirir. Nəticədə nəzəriyyə və təcrübə arasında yaxın əlaqə təmin edilmiş olur. Pedaqoji təhsil illəri ərzində tələbələr müxtəlif yaşlı və qabiliyyətli uşaqlarla geniş öyrənmə təcrübələrini əhatə edən ixtisas üzrə tapşırıqları yerinə yetirdikcə, onların peşə məsuliyyətləri də tədricən artır.

**İxtisas üzrə təcrübələrdə iştirak edən şəxslərə yardım.** İxtisas üzrə təcrübələrin və ya praktikumun uğur qazanmasında başlıca amil təcrübədə iştirak edən şəxslərdir: müəllimlərin hazırlanması üzrə proqrama nəzarət edən yoxlayıcı (supervayzer), dekan və ya pedaqoji fakültənin müdiri, əməkdaşlıq edən müəllim, məktəbin direktoru və tələbə. Burada tələbənin, əməkdaşlıq edən müəllimin və universitet yoxlayıcısının bərabər səviyyəli əməkdaşlığı xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Müəllimlərin hazırlanması üzrə bəzi proqramlarda bərabər əməkdaşlığı inkişaf etdirmək və qoruyub saxlamaq üçün spesifik metodlar nəzərdə tutulmuşdur. Məsələn, müəllimlərin hazırlanması üzrə proqramlar ilə təcrübənin keçirildiyi məktəblər arasında əməkdaşlığa təkan vermək məqsədi ilə bu cür hərəkət edilir: əməkdaşlıq edən pedaqoqa müəllimlərin hazırlanması üzrə proqram çərçivəsində pedaqoji fakültənin bir müəllimi rolu verilir (məsələn, bu müəllim seminarlar keçirə, müəllimlərin hazırlanması proqramlarının yaradılmasında iştirak edə bilər). Eyni zamanda, müəllimlərin hazırlanması üzrə proqramın yoxlayıcı-larını tədqiqat layihələri üçün məlumat toplamaq, habelə tədris proqramlarının işlənib hazırlanması üzrə kollektiv işdə və ya məktəb idarəçiliyi şuralarında iştirak etmək məqsədilə öz vaxtlarının bir hissəsini məktəblərdə keçirməyə həvəsləndirmək olar. ABŞ-dakı bəzi universitetlərdə belə bir təcrübə həyata keçirilir: əməkdaşlıq etmələri müqabilində kiçik yaşlı uşaq müəllimləri pulsuz olaraq ixtisasartırma kurslarına cəlb olunurlar. Tələbə-əməkdaşlıq edən müəllim-yoxlayıcı üçbucağında tələbənin rolunu lazımi səviyyədə saxlamaq üçün hər cür cəhdlər göstərilir. Tələbələrin maraqlarının mühümlülüyünün nəzərə alınması, onların məktəb qaydaları və müəllimlərin hazırlanması üzrə proqramların məqsədləri çərçivəsində bərabər tərəfdaşlar kimi prosesdə iştirak etmələri üçün lazım olan hər şey edilir.

**Təcrübəyə rəhbərliyin mühümlüyü.** Praktik təcrübənin keyfiyyəti həmin təcrübəyə rəhbərliyin necə həyata keçirilməsindən əhəmiyyətli dərəcədə asılıdır (Qlettom və Kobl, 1995). Kiçik yaşlı uşaq müəllimlərinin hazırlanması üzrə proqramın rəhbəri və ya fakültə dekanı həmin proqramın ümumi konsepsiyasının işlənib hazırlanmasında, zəruri dəyişikliklərin müəyyənləşdirilməsində, proqramdaxili və proqramdankənar işlərin aydın şəkildə əlaqələndirilməsində, lazımi resursların əldə edilmə-sində, resursların və işçi heyətinin davamlı şəkildə cəlb olunmasında, daxili təkmilləşmə meylinin qorunub saxlanmasında və müəllimlərin hazırlanması sahəsinin işçiləri arasında aydın məsuliyyət bölgüsünün aparıl-masında əsas qüvvə ola bilər. Rolların dəqiq müəyyən-ləşdirilməsi, tələbələr üçün düşünülmüş proqramların hazırlanması, təcrübə mübadiləsi, tələbələrin praktika üzərində fikirləşməsi, təlim və tədrisin cari məsələlə-rinin müzakirəsi imkanlarının yaradılması kimi məqsədlərin əldə edilməsində tələbə-əməkdaşlıq edən müəllim-yoxlayıcı üçlüyü daxilində iş birliyinin olması zəruridir.[1]

Müəllimlərin hazırlanması, problemlərin həlli və uğur gətirən metodların tətbini kimi məsələlərdə praktikumun və digər ixtisas təcrübələrinin mühüm rolunu əks etdirən bu əsas informasiyanın ardınca kitabda uğurlu proqramın yaradılması və tətbiqi ilə bağlı məsələlər əhatə olunur.

**İxtisas üzrə təcrübə proqramının yaradılması**

Müəllimlərin hazırlanması proqramı tələbələr üçün ixtisas üzrə təcrübə proqramının tərtib olunması baxımından əsas rolunu oynamalıdır. Bununla belə əməkdaşlıq edən məktəblər də təcrübələrin keçirildiyi yer kimi vacib tərəfdaş rolunda çıxış edirlər.

İxtisas üzrə təcrübə proqramlarının yaradılması üçün aşağıdakı işləri görmək lazımdır:

1.Proqramın perspektivini, məqsəd və vəztfələrini işləyib hazırlamaq.

2.Proqramın reallaşmasını təmin edəcək siyasət və prosedurları müəyyən etmək.

3.İşçiləri seçmək və onlarla treninq keçirmək.

4.Təcrübə yerlərini seçmək və onlarla tanış olmaq.

5.İşçilərdən hansı nəticələrin gözləndiyini, onların rol və məsuliyyətlərini müzakirə etmək.

[1]Bu cür imkanlardan biri həssas praktika seminarıdır. Bu cür seminarlar vasitəsilə dərs deyən tələbələri, əməkdaşlıq edən müəllimləri və müəllimlərin hazırlanması üzrə proqramın yoxlayıcılarını dəqiq cədvəl əsasında məşğələlərə cəlb etmək olar. Bu məşğələlərin məqsədləri sırasına vidolentlərə baxmaqla, səmərəli təlimin mahiyyətinin təhlili, tələbələri və müəllimləri öz tədris prosesi üzərində düşünməyə dəvət, praktikum və ya digər ixtisas təcrübələri daxilində problemlərin həlli yollarının müəyyənləşdirilməsi və mübadiləsi, təlim və tədrisin cari məsələlərinin müzakirəsi daxildir.

6.Müntəzəm əlaqə və nəzarət prosesini təmin etmək.

7.Proqramın durmadan yaxşılaşdırılması üçün rəy sorğularını keçirmək.

**Perspektivin işlənib hazırlanması**

Yuxarıda təsvir olunduğu kimi, proqramın yaradılmasını və reallaşdırılmasını istiqamətləndirəcək perspektivin və gözlənilən nəticələrin işlənib hazırlan-ması ixtisas üzrə uğurlu təcrübə və ya praktikum proqram üçün olduqca mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı proses ilkin layihənin işlənib hazırlan-masında faydalı ola bilər.

- Perspektivin işlənib hazırlanmasına cəlb ediləcək əsas professor-müəllim heyətini, o cümlədən mümkün olduqca təcrübə yerləri üzrə nümayəndələri müəyyənləşdirmək.
- Prosesə cəlb olunan bütün şəxsləri asudə surətdə müzakirələrin aparıla biləcəyi bir yerə toplamaq. Onları 5-6 nəfərlik kiçik qruplara bölmək.
- Hər bir qrupa öz təqdimatını belə bir ifadə ilə başlamağı təklif edin: «Bizim ixtisas üzrə təcrübə və ya praktikum proqramımız var, yəni…»
- İştirakçılardan əvvəlcə fərdi qaydada işləməyi xahiş edin. Hər bir iştirakçı perspektivin mahiyyətini əks etdirən 5 əlaməti müəyyənləşdirir. Məsələn, onlardan biri «Əlaqələndirilmiş» sözünü yaza bilər. Həmin şəxs bu sözün ardınca həmin əlaməti izah edən bütöv cümləni qeyd edir. Misal üçün: «Əlaqələn-dirilmiş: ixtisas üzrə təcrübə və ya praktikum proqramı məktəblər üzrə kurs işi ilə əlaqələndirilmiş olacaq və bu işi təbii şəkildə genişləndirəcək».
- Kiçik qruplara bölündükdən sonra ayrı-ayrı iştirakçılar öz yazdıqları ilə bir-birini tanış edir və beş əlamət və cümlə haqqında razılığa gəlirlər.
- Kiçik qrupların gəldiyi nəticələr kollektiv bir perspektiv kimi bir yerə toplanır.

Perspektivdən proqramın spesifik məqsədlərini və tələbələrin yiyələnəcəkləri səriştələri müəyyən etməkdən ötrü pedaqoji təhsil standartları ilə bağlı istifadə etmək olar.

**Siyasət və prosedurların müəyyənləşdirilməsi**

İxtisas üzrə təcrübələrin tətbiqində başlıca məqsəd nəzəriyyə və birbaşa təcrübənin əlaqələndirilməsi yolu ilə tələbələrin təlim prosesinə yardım etməkdir. Bu məqsədə çatmaq üçün planlaşdırma, struktur və monitorinqlə yanaşı bir çox siyasət və prosedurlar da tələb olunur. İxtisas üzrə təcrübə proqramını tərtib etməzdən əvvəl müəyyənləşdirilməli olan siyasət və prosedurlardan bəziləri aşağıdakılardır:

- müəllimlərin hazırlanması proqramının fəlsəfəsi və perspektivi;
- akademik proqramın təsviri;
- müəllim şəhadətnaməsi üzrə tələblər;
- təlim konsentrasiyaları və xüsusi dərəcələr haqqında informasiya;
- ixtisas üzrə təcrübə yerlərinin seçilməsi prosesi;
- dərs deyən tələbənin, əməkdaşlıq edən müəllimin və yoxlayıcının məsuliyyətləri;
- praktikumun akademik təqvimə uyğunlaşdırıl-ması cədvəli;
- konfrans, nəzarət və qiymətləndirmə prose-durları;
- tələbələrin və müəllimlərin iştirak etməməsi, ixtisası üzrə ekskursiyalar, tədris proqramları üzrə kurslar və fövqəladə hallarla bağlı müəllimlərin hazırlanması üzrə proqramlarda nəzərdə tutulan siyasətlər;
- informasiya məqsədləri və əməkdaşlıq edən müəllimlərə kompensasiya verilməsi üçün vəsaitlərin təmin edilməsi.

Həmin informasiyanın müəllimlərin hazırlanması üzrə proqramlarda nəzərdə tutulmasının bir yolu da ixtisas təcrübəsi və ya praktikuma dair məlumat kitabçasının hazırlanmasıdır. Bütün iştirakçılar bu kitabı oxuya və hər hansı bir problem meydana çıxarsa, ona istinad edə bilərlər.

**İşçilərin seçilməsi və onlarla treninqin keçirilməsi**

İşçilərin diqqətlə seçilməsi ixtisas üzrə təcrübə və ya praktikum proqramının uğur qazanmasında başlıca rolu oynaya bilər. Təəssüf ki, dərs deyən tələbələrə nəzarət kimi çox mühüm bir vəzifəyə müəllimlərin hazırlanması üzrə proqramlarda iştirak edən professor-müəllim heyəti tərəfindən lazımi əhəmiyyət verilmir. Əmək haqqı, iş yükü və statusla bağlı köklü dəyişikliklər gözləmək qeyri-real bir iş olduğundan, müəllimlərin hazırlanması proqramı ixtisas üzrə təcrübə proqramının yoxlayıcısını seçmək məsələsinə də istənilən vəzifə sahibinin seçilməsində olduğu kimi, eyni qayğı və diqqətlə yanaşılmalıdır.

Praktikum üçün əməkdaşlıq edən müəllimlərin seçilməsi də sühüm əhəmiyyət kəsb edir; həmin şəxs bir neçə illik tədris təcrübəsinə malik olmalı və proqramın tələblərini reallaşdırmağa, məsuliyyəti üzərinə götürməyə və bir komandanın üzvü kimi yoxlayıcılarla birlikdə çalışmağa həvəs göstərməlidir. Əməkdaşlıq edən pedaqoqlar müəllimlərin hazırlanması üzrə proqramın sponsorluğu ilə treninqə cəlb edilməlidirlər ki, dərs deyən tələbələrə daha səmərəli nəzarət etmək və onları qiymətləndirmək yolları barədə ətraflı məlumata malik olsunlar.

**Təcrübə yerlərinin seçilməsi**

Müəllimlərin hazırlanması proqramları ixtisas üzrə təcrübə və praktikumun başlanmasından xeyli əvvəl təcrübə yerlərinin seçilməsi üçün qaydalar müəyyən etməlidir. Qərar müəllimlərin hazırlanması proqramının məcburi tələbləri çərçivəsində tələbələr üçün ən münasib yerlər əsasında verilməlidir. Seçim meyarları yerləşmə yerindən, təcrübə yerində işçilərin təcrübəsindən və uyğun treninq keçməsindən, təcrübə yerinin lisenziyalaşdırılması və akkreditasiyasından, hüquqi məsələlərdən, məktəb rəhbərliyi və müəllimlərin prosedur və akkreditasiyasından, hüquqi məsələlərdən, məktəb rəhbərliyi və müəllimlərin prosedur və məsuliyyətləri həyata keçirmək arzusundan, həmçinin digər amillərdən asılı ola bilər. Hər şeydən öncə, təcrübə və ya praktikum yerləri barədə qərar qəbul etməzdən əvvəl müəllimlərin hazırlanması proqramının yoxlayıcısı təcrübə yerlərinə baş çəkməli və tələbələri oraya göndərməzdən qabaq həmin yerlərlə yaxından tanış olmalı, o yerlərə uyğunlaşmalıdır.

**Rol və məsuliyyətlərin müəyyən edilməsi**

Üçlüyün hər bir üzvünün rol və məsuliyyətləri aydın şəkildə müəyyən edilməlidir. Tədqiqat göstərir ki, rollar aydın müəyyən edilmədikdə üçlük daxilində ciddi çətinliklər yaranır (Qayton və Makintaye, 1990). Aparılan tədqiqat müəllimin inkişafı ilə praktikumun qiymətləndirilməsi arasında aydın fərq qoymağı və bu vəzifələri müxtəlif şəxslərə tapşırmağ tövsiyə edir. Məsələn, əməkdaşlıq edən müəllim dərs deyən tələbə üçün yoxlayıcılıq edir və onun inkişafına yardım göstərir, müəllimlərin hazırlanması proqramının yoxlayıcısı isə ixtisas üzrə təcrübəni qiymətləndirir. Bu zaman dərs deyən tələbənin rolu əməkdaşlıq edən müəllimin sıx nəzarəti altında birinci il dərs deyən müəllimin təcrübəsini mümkün qədər tam təqlid etmək və tam müstəqilliyə doğru uğurla irəliləməkdən ibarətdir. ixtisas üzrə təcrübənin və ya praktikanın başlanğıcında tələbə, əməkdaşlıq edən müəllim və yoxlayıcının öz birgə rollarını və gözlədikləri nəticələri müzakirə etmək üçün görüşməsi xüsusilə faydalıdır.

**Əlaqə**

Müəllimlərin hazırlanması proqramı ilə ixtisas üzrə təcrübə yerinin işçiləri arasında əlaqənin mühüm əhəmiyyəti var. Xüsusilə də əməkdaşlıq edən müəllim kurs işində hansı təlimatı strategiyalara və fəlsəfəyə üstünlük verildiyini bilməli, yoxlayıcı isə sinifdə meydana çıxan məsələlərdən xəbərdar olmalıdır. Praktikum və ya ixtisas üzrə iş təcrübəsinin başlanğıcında əməkdaşlıq edən müəllimin, müəllimlərin hazırlanması üzrə proqramın yoxlayıcısının və tələbənin təcrübəni planlaşdırmaq üçün bir araya gəlməsi mümkündür. Praktikum və ya ixtisas üzrə təcrübə zamanı tələbə və əməkdaşlıq edən müəllim həm formal, həm də qeyri-formal qaydada əlaqə saxlamalıdırlar. Müəllimlərin hazırlanması üzrə proqramın yoxlayıcısı tələbəni sinifdə və ya digər təcrübə yerində müşahidə etməkdən ötrü həmin yerlərə bir neçə dəfə baş çəkməlidir. Nəhayət, üçtərəfli ünsiyyət ixtisas üzrə təcrübənin gedişində və sonunda da zəruridir.

**Rəy sorğusu**

Təlim prosesini istiqamətləndirmək və ona yardım etmək üçün ixtisas üzrə təcrübə müddətində həm formal, həm də qeyri-formal rəy sorğularından istifadə oluna bilər. Qeyri-formal rəy sorğusu əməkdaşlıq edən müəllimlərə və tələbələrə qərar qəbul etmək, öz rəylərini ifadə etmək və öz labüd səhvlərindən ibrət götürmək imkanı verən əlverişli bir mühitin yaranması üçün olduqca vacibdir. Öz işlərinə daha tənqidi yanaşmaq hisslərinin inkişafı üçün tələbələrə öz fəaliyyəti üzərində düşünməkdən ötrü geniş imkanlar yaradılmalıdır. Müəllimlərin hazırlanması üzrə proqrama cəlb olunmuş professor-müəllim heyətinin, əməkdaşlıq edən müəllimlərin, digər tələbələrin və başqa şəxslərin öyrənilmiş rəylər və tələblərə öz fəaliyyəti üzərində düşünməkdə yardım edir.

**Dərs deyən tələbənin, əməkdaşlıq edən müəllimin və müəllimlərin hazırlanması üzrə proqramın yoxlayıcısının praktikumla bağlı məsuliyyətləri**

Aşağıda praktikum üçlüünü təşkil edən əsas üç şəxsin – dərs deyən tələbənin, əməkdaşlıq edən müəllimin və müəllimlərin hazırlanması üzrə proqramın yoxlayıcısının əsas məsuliyyətləri təsvir olunur. Onların hər biri praktikum proqramının uğurla həyata keçirilməsinin təmin edilməsində mühüm rol oynayır.

**Dərs deyən tələbə**

Dərs deyən tələbələr praktikum təcrübəsinə peşəkar inkişafın müxtəlif mərhələlərində olmaqla yiyələnən və müxtəlif tələbat və maraqları ilə fərqlənən fərdlərdir. Onların bəzisi təcrübəyə başlayarkən öz üzərinə bacardığından daha çətin vəzifələr götürür və buna görə də əməkdaşlıq edən müəllimin köməyinə ehtiyac hiss edir. Başqaları isə dərs demək məsuliyyətini öz üzərinə götürməkdə tərəddüd edirlər və müəllim rolunda çıxış

etməzdən əvvəl onların əməkdaşlıq edən müəllim tərəfindən həvəsləndirilməsi lazımdır. Rol və vəzifələr mümkün qədər aydın müəyyənləşdirildikdə tələbələr özlərini daha arxayın hiss edirlər.

**Hazırlıq.** Dərs deyən tələbə hazırlıq işini praktikaya uyğun qaydada başa çatdırmalıdır. (Bir çox proqramlarda bu, tələbənin dərs deməsinə qədər ən azı iki ixtisas təcrübəsi keçməsi və tələb olunan əsas kursları bitirməsi deməkdir). Onlar, həmçinin müəllimlərin hazırlanması üzrə proqramın fənlər üzrə minimum keçid balının orta göstəricisi ilə bağlı tələbləri də yerinə yetirməlidirlər.

Tələbə, bir qayda olaraq, praktikumun keçiriləcəyi yerlə bağlı müəllimlərin hazırlanması proqramını təcrübə yerləri ilə məşğul olan bölməsinə xahişlə müraciət etməlidir (Ərizə nümunələri üçün Əlavə 1 və Əlavə 2-yə baxın). Müəllimlərin hazırlanması üzrə proqramlar tələblərin praktikum yerlərinə göndərilə bilməsi üçün müxtəlif tələblər irəli sürür. Bəzi proqramların tələblərinə görə, tələbələr bir semestrlik praktikum ərzində iki müxtəlif təcrübə yerində olmalıdırlar. Məsələn, onlar altı həftə bir siniflə məşğələ apardıqdan sonra, doqquz həftə daha yuxarı və ya daha aşağı siniflə məşğul olmalıdırlar. Birinci təcrübə yerində əsas diqqət sinfin idarə olunması, fərdi fərqlərin nəzərə alınması, düşüncə, tədris və öyrənmə üslubları ilə bağlı təlimin daha ümumi aspektləri üzərində cəmləşdirilir. İkinci təcrübə yeri isə daha geniş sinif təcrübələri üçün imkan yaradır və diqqət birinci təcrübə yerində qazanılmış biliklərin daha dərin tədris və öyrənmə təcrübələri ilə möhkəmləndirilməsi üzərində cəmləşdirir.

**İstiqamətləndirmə (oriyentasiya).** Özlərini prakti-kuma istiqamətləndirmək üçün tələbələr mskan daxilində müəllimlərin hazırlanması proqramı üzrə praktikumdan bəhs edən məlumat kitabçasını nəzərdən keçirməlidirlər. Bu kitabçada onların məsuliyyətləri və müəllimlərin hazırlanması üzrə proqramların spesifik tələbləri öz əksini tapacaq. Burada həmçinin «Tələbənin təhsil profil» kimi zəruri formaları necə doldurmağın qaydası göstərilə bilər (Nümunə üçün Əlavə 3-ə baxın). Tələbə haqqında əsas informasiyanı yığcam əks etdirən həmin profil əməkdaşlıq edən müəllimə tələbəni daha yaxından tanımaqda kömək edəcək. İstiqamətləndirmə işinin bir hissəsi kimi, tələbə əməkdaşlıq edən müəllimlə ilkin görüş keçirməlidir. Müəllimlərin hazırlanması proqramının yoxlayıcısının bu ilk görüşdə iştirak etməsi də faydalı olardı. Bu mümkün olmadıqda, sonradan tezliklə belə bir üçtərəfli görüş keçirilməlidir.

İstiqamətləndirmə ilə bağlı görüşdə iştirak edən tərəflər:

- Praktikumdan hansı nəticələrin gözlənildiyini müzakirə edirlər.
- Praktikumun məqsədlərini müəyyənləşdi-rirlər.
- Tələbəni sinif və məktəblə tanış edirlər.
- Müəllimlərin hazırlanması üzrə proqramın tələblərini nəzərdən keçirirlər.
- Məxfiliyin gözlənilməsi də daxil olmaqla məktəbin siyasətini müzakirə edirlər.
- İstiqamətləndirmə işinə kömək göstrən istənilən informasiyanı müzakirə edirlər.

(İstiqamətləndirmə paketi ilə bağlı ideyalar üçün Əlavə 4-ə baxın)

Tələbələr praktikum yeri haqqında əsas informasiyanı əks etdirən formanı doldurmalı və onu müəllimlərin hazırlanması üzrə proqramın təcrübə yerləri bölməsinə təqdim etməlidirlər. Bu, müəllimlərin hazırlanması üzrə proqrama kömək edir ki: tələbənin təcrübə yerləri, tələbə və əməkdaşlıq edən müəllimlə əlaqə saxlamaq yolları, yoxlayıcının təcrübə yerinə baş çəkməsinin optimal vaxtları barədə cari məlumatlara malik olsun (Təcrübə yerləri haqqında informasiya formaları üçün Əlavə 5 və Əlavə 6-ya baxın).

**Müntəzəm iştirak.** Ümumilikdə, praktikumların əksəriyyəti dərs deyən tələbənin rolu ilə bağlı aşağıdakı nəticələrin əldə edilməsini nəzərdə tutur (Əlavə 7-də kiçik yaşlı uşaqların təhsili üzrə xüsusi universitet proqramından götürülmüş daha ətraflı nəticələr siyahısı verilmişdir).

Praktikumun ilkin mərhələsi ərzində dərs deyən tələbə sinif, onun prosedur və rejimləri barədə məlumat əldə etməlidir. Tələbə bu rejimlərə əməl edilməsinə yardımçı olmalı və hekayələr oxumaq, münaqişələri həll etmək, xüsusi tapşırıqlar üzrə ayrı-ayrı uşaqlarla işləmək və s. vasitələrin köməyi ilə uşaqlarla şəxsi münasibətlər qurmağa başlamalıdır. Tələbə sinifdəkit çalışma guşələri, uyğun tədris materialları və fəaliyyətləri ilə tanış olmaq üçün vaxt ayırmalıdır. Bu ilkin mərhələ məktəbdəki digər müəllimlər və işçilərlə tanış olmaq baxımından da əlverişlidir.

Tələbələr praktikum ərzində müntəzəm olaraq:

- sinif üçün getdikcə daha çox məsuliyyət hiss edəcəklər;
- ailələr, cəmiyyət və digər məktəb işçiləri ilə əməkdaşlıq şəraitində çalışacaqlar;
- fərdi və kiçik qrup fəaliyyətləri çərçivəsində səmərəli işləyəcəklər;
- əqli, sosial və emosional inkişafa yardım edən öyrənmə mühiti yaradacaqlar;
- uşaqların fərdi şəkildə öyrənməsi üzrə təlimatın səmərəsi ilə bağlı rəyləri öyrənmək üçün qiymətləndirmə metodlarını tətbiq edəcək, sonra isə tədris planının tərtibi zamanı bu məlumatlardan yararlanacaqlar.

**Praktikumun sonuna qədər.** Praktikumun sonuna doğru tələbə bir həftəlik müddət ərzində bütünlüklə sinfi öz nəzarətinə götürməyə hazır olmalıdır. Buraya əməkdaşlıq edən müəllimin assistenti kimi tələbənin həmin müəllimlə birlikdə proqramı planlaşdırması və fəaliyyətləri həyata keçirməsi də daxildir. Dərs deyən

tələbə, əməkdaşlıq edən müəllim və müəllimlərin hazırlanması üzrə proqramın yoxlayıcısı hər üçü birlikdə tələbənin inkişafına əsaslanan bu təcrübə üçün müvafiq vaxt müəyyənləşdirməlidirlər.

**Təcrübə haqqında düşünmə.** Praktikum təcrübəsindən maksimum fayda götürmək üçün tələbənin tədris və öyrənmə ilə bağlı tənqidi təhlil aparması, düşünməsi və dialoqlarda iştirak etməsi zəruridir. Təhlil və düşünməyə yardım edən vasitə kimi bir çox praktikum proqramları tələbələrin ixtisas üzrə təcrübəyə dair qeydlər aparması üçün xüsusi jurnalların ayrılmasını nəzərdə tutur. Tələbələr bu jurnalda gündəlik qeydlər apapıplar; əməkdaşlıq üçün həmin qeydlərdən istifadə edə bilərlər (Qeydiyyat jurnalının nümunəsi və formatları Əlavə 8-də verilir). Praktikum təcrübəsi üzərində düşünməyin digər bir vasitəsi düşündürücü təcrübə seminarıdır. Müəllimlərin hazırlanması üzrə proqramların bir çoxu öz tələbələri üçün hər həftə düşündürücü təcrübə seminarlarının təşkilini nəzərdə tutur. Bu seminarların məqsədi tələbə və müəllimləri öz tədris prosesi üzərində düşünməyə həvəsləndirmək və praktikum zamanı meydana çıxan problemlərin həlli yollarını müəyyənləşdirmək, bununla bağlı fikir mübadiləsi aparmaqdan ibarətdir. Nəhayət, müəllimlərin hazırlanması üzrə proqramların bəzisi təcrübə keçən tələbələri öz işlərinə dair qovluq tərtib etməyə həvəsləndirir. Həmin qovluqda hər bir tələbənin müəllim kimi necə səriştə qazanması öz əksini tapır.

**Əməkdaşlıq edən müəllim**

Əməkdaşlıq edən müəllim ixtisas üzrə təcrübənin keyfiyyətinə, xüsusilə də dərs deyən tələbəyə güclü təsir göstərir. O, tələbə ilə gündəlik və sıx şəkildə işlədiyindən, onların qarşılıqlı münasibətləri himayədarlıq üçün olduqca zəruridir. Əməkdaşlıq edən müəllimin praktikuma oriyentasiyası Zeyknerin «pedaqoji praktikum» adlandırdığı təcrübəyə kömək etməlidir: bu təcrübə gələcək müəllimlərə uzunmüddətli təlim prosesində öz peşəkarlığını daim yüksəltməyi nəzarətdə saxlamaq imkanı verir (Zeykner, 1993). Bu isə o deməkdir ki, əməkdaşlıq edən müəllim yalnız öz peşə təcrübəsini bölüşməkdə deyil, həm də müəllimlərin hazırlanması proqramı üzrə tələbələrin təqdim etdikləri şəxsi təcrübələr və kurs işi ilə müqayisəli olaraq öz tədris təcrübələrinin açıq şəkildə tədqiqşində mühüm rol oynayır. Bu yolla da əməkdaşlıq edən müəllim dərs deyən tələbə və müəllimlərin hazırlanması proqramı ilə məşğul olan professor-müəllim heyəti ilə birlikdə eyni bir komandanın üzvü kimi hərəkət etmiş olur.

Aşağıda əməkdaşlıq edən müəllimin dərs deyən tələbənin qiymətləndirilməsi və inkişafına yardım etmək məqsədi ilə dərs deyən tələbələrlə və müəllimlərin hazırlanması proqramının yoxlayıcıları ilə necə birgə işləməsinə dair təkliflər verilir.

**İstiqamətlərdinmə (oriyentasiya).** Əməkdaşlıq edən müəllim və məktəb rəhbəri dərs deyən tələbəni məktəbin üstünlükləri, digər müəllimlər, məktəbdaxili qayda və prosedurlarla tanış etməyə görə məsuliyyət daşıyırlar. Məktəb rəhbərinin dərs deyən tələbəyə kömək etmək və onda inam hissi yaratmaq məqsədi ilə həmin tələbə ilə qısa bir görüş keçirməsi də faydalıdır. Əməkdaşlıq edən müəllim və tələbə də istiqamətləndirmə ilə bağlı görüş keçirməlidirlər. Bu görüş zamanı dərs deyən tələbə və əməkdaşlıq edən müəllim özlərinin tədrislə bağlı fikirlərini bölüşə, məqsəd və vəzifələri müəyyənləşdirə, həftəlik konfranslar cədvəlini tərtib edə və dərs deyən tələbəni məktəb işçilərinə və valideynlərə təqdim edən məktub yaza bilərlər. Əməkdaşlıq edən müəllim dərs deyən tələbəyə məktəbin sxemi, telefon nömrələri, məktəb qaydaları, dərs planlarının nümunəsi və s. kimi bir çox faydalı materiallardan ibarət «oriyentasiya paketi» təqdim edə bilər. Bu ilkin istiqamətləndirmə zamanı əməkdaşlıq edən müəllim və tələbə üçün özlərinin tədris və sinfin idarəçiliyi ilə bağlı fəaliyyət qaydalarını aydın müəyyən edən platforma rolunu oynaya bilər.

**Planlaşdırma.** Praktikum təcrübəsinin lap əvvəlindən dərs deyən tələbənin həmin təcrübənin son məqsədlərini görə bilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə tələbə, əməkdaşlıq edən müəllim və müəllimlərin hazırlanması üzrə proqramın yoxlayıcısı praktikum planını işləyib hazırlamalıdırlar (Semestrlik və həftəlik praktikum planlarının nümunələri üçün Əlavə 7 və Əlavə 8-ə baxın). Bu cür birgə planlaşdırma işi zamanı yoxlayıcı məktəbin və müəllimlərin hazırlanması üzrə proqramın akademik təqvimlərinə nəzər salmalı və onların toqquşmadığına əmin olmalıdır. Yoxlayıcı, həmçinin, müəllimlərin hazır-lanması üzrə proqramın tələblərini dönə-dönə təkrar etməlidir. Əməkdaşlıq edən müəllim həmin tələblər siyahısına tələbədən gözlədiyi nəticələri də əlavə etməlidir. Tələbə sonradan işə girməklə bağlı intervülərdə istifadə oluna biləcək qovluğa daxil etmək istədiyi müddəaların siyahısının tərtibinə girişə bilər.

Praktikum planını tərtib edərkən, bütün tərəflər həm uzunmüddətli, həm də qısa müddətli planlaşdırmaya diqqət yetirməlidirlər. Uzunmüddətli planlaşdırma təqvimində gözlənilən təlim fəaliyyətləri, əlaqəli fəaliyyətlər və praktikum tələbləri öz əksini tapa bilər. Praktikumla bağlı əhəmiyyətli hadisələri ardıcıl əks etdirmək üçün aylıq təqvimdən istifadə etmək olar. Nəhayət, əməkdaşlıq edən müəllimin və tələbənin planlaşdırılmış dərslərdən müntəzəm olaraq məlumatlı qalması üçün həftəlik planlaşdırma forması tətbiq oluna bilər.

**Müşahidə.** Əməkdaşlıq edən müəllim dərs deyən tələbəyə sinfi planlaşdırılmış və mütəşəkkil qaydada müşahidə etməkdə kömək göstərməlidir. Bu təcrübə «yolgöstərən müşahidə» adlanır. Əməkdaşlıq edən müəllim tələbəni müxtəlif müəllimləri və tədris üsullarını müşahidə etməyə həvəsləndirməlidir. Müşahidə obyekti hansısa bir uşaq (çox zaman onu «tədqiq olunan uşaq» adlandırırlar), uşaqlardan ibarət kiçik bir qrup, bütöv bir sinif, dərsin təşkili və təhlili məqsədi güdülməklə konkret bir dərs prosesi ola bilər. Tələbənin məktəbdəki

müxtəlif müəllimləri müşahidə etməsi üçün əməkdaşlıq edən müəllimin münasib şərait yaratması faydalıdır. Əməkdaşlıq edən müəllim, həmçinin dərs deyən tələbəyə tədqiqat üçün mövzuları, eləcə də uşaq-müəllim münasibətləri ilə bağlı qeydiyyat aparmaq və sxem qurmaq (bunları bəzən sosioqramlar adlandırırlar) kimi müşahidə üsullarını təklif edə bilər. Nəhayət, müşahidələrlə bağlı müzakirə aparılmadan düzgün nəticələr çıxarmaq çətin olduğundan, əməkdaşlıq edən müəllimlər dərs deyən tələbələri öz müşahidələri barədə məlumat verməyə həvəsləndirməli və müşahidənin tələbələrin tədrisin necə yaxşılaşdığını nəzərdən keçirməlidirlər (Sistemli müşahidənin və özünüqiymətləndirmə qaydalarının müxtəlif formaları ilə tanış olmaqdan ötrü Əlavə 9 və Əlavə 10-a baxın).

**Nəzarət.** Dərs deyən tələbələrə açıq və obyektiv şəkildə nəzarət edilməsi bu nəzarəti daha səmərəli edir. Tədqiqatlar dərs deyən tələbələrin bir sıra metodları üzə çıxarmışdır. Buraya yazılı qeydiyyat (dərs zamanı diqqəti çəkən hər bir cəhətin yazıya alınması), tələbənin sinifdə necə danışması, hərəkət etməsi və vaxtdan necə yararlanması ilə bağlı rəy sorğusu, dərsin audio və videolentə alınması kimi üsullar daxildir. Əməkdaşlıq edən müəllimin müşahidədən əvvəl dərs deyən tələbə ilə xüsusi görüş keçirərək, proseslə və toplanacaq məlumatların tipi ilə bağlı fikir mübadiləsi aparması mühüm əhəmiyyət kəsb edir. Bu zaman dərs deyən tələbə dərsin hansı hissələri ilə əlaqədar rəylərin bildirilməsində maraqlı olduğunu göstərə bilər. Dərs deyən tələbə və əməkdaşlıq edən müəllim müşahidə təcrübəsini və təcrübənin tədrisə necə təsir göstərdiyini müzakirə etmək məqsədi ilə müşahidədən sonra da xüsusi bir görüş keçirməlidirlər.

**Modelləşdirmə və himayədarlıq.** Əməkdaşlıq edən müəllim dərs deyən tələbə üçün həm model, həm də hami rolunu oynayır. Tələbəyə müəllimliyin ilk ilində gənc müəllimin üzərinə düşən məsuliyyətləri anlamaqda kömək etməyin yollarından biri əməkdaşlıq edən müəllimin tələbələri öz diqqətini bütünlüklə məktəbə yönəltməyə həvəsləndirməsidir. Əməkdaşlıq edən müəllim məktəb rəhbərinin icazəsi ilə tələbəni müəllimlərin yığıncaqlarında, seminarlarda, valideyn komitələrinin toplantılarında, valideyn-müəllim görüş-lərində və s. tədbirlərdə iştirak etməyə həvəs-ləndirməlidir. Bu, tələbəyə gələcək müəllim kimi üzərinə düşən bütün məsuliyyətləri daha dərindən dərk etməkdə kömək göstərəcək.

Əməkdaşlıq edən müəllim onu da yaddan çıxarmamalıdır ki, praktikumun məqsədi mükəmməl bir müəllim formalaşdırmaqdan deyil, tələbəni öz tədris üslubunu kəşf etməyə və tam potensiala yiyələnməyə istiqamətləndirməkdən ibarətdir. Mümkün olduqca, əməkdaşlıq edən müəllim tələbənin pedaqoji nəzəriy-yəni sinifdəki tədris təcrübələri ilə əlaqələndirməsi üçün imkanlar yaratmalıdır. Əməkdaşlıq edən müəllimin ən mühüm rollarından biri onun pedaqoji sahədə müntəzəm təmasda olmağa imkan verən strategiyalar – oxumaq, seminarlarda iştirak etmək, peşə assosia-siyaları və ya şəbəkələrinə qoşulmaq və s. barədə öz təcrübəsini tələbə ilə bölüşməsidir.

**Müəllimlərin hazırlanması proqramı və yoxlayıcı**

Praktikumlarda və ixtisas üzrə digər təcrübələrdə iştirak edən tələbələrə nəzarət (yoxlayıcılıq) edilməsi müəllimlərin hazırlanması üzrə proqramın mühüm elementidir. Müəllimlərin hazırlanması proqramı çərçivəsində ixtisas üzrə yoxlayıcı bu proqramı, sinif otağını və gənc müəllimi əlaqələndirən şəxsdir. İxtisas üzrə yoxlayıcı, həmçinin tələbələr üçün məsləhətçi, təlimatçı, qiymətləndirici, yardımçı və mənbə kimi funksiyalara da malikdir. Əməkdaşlıq edən müəllimlə yanaşı ixtisas üzrə yoxlayıcı da tələbələrin peşəkar inkişafı üçün məsuliyyət daşıyır. Yoxlayıcılar dərs deyən tələbələrin uşaqlarla işini müşahidə edir və öz rəylərini bildirməklə yanaşı təkliflərini də verirlər. Bundan əlavə, onlar prosesin üçüncü tərəfi (tələbə və əməkdaşlıq edən müəllimlə yanaşı) rolunda çıxış edirlər. Ən əhəmiyyətlisi isə odur ki, yoxlayıcı dərs deyən tələbəyə ixtisas üzrə müşahidələri nəzəri biliklər və əsas fənlərdən əldə edilən biliklərlə əlaqələndirməkdə kömək edir. Yoxlayıcı bu vəzifəni sinifdə obyektiv təlim mühiti yaratmaq, spesifik hadisələrin təhlilində tələbələrə yardımçı olmaq və onlara öz təcrübələrinin tədqiqində kömək göstərən, onların formalaşmaqda olan tədris üslubunu və şəxsi fəlsəfəsini inkişaf etdirən xüsusi ədəbiyyat təklif etməklə yerinə yetirə bilərlər.

Müəllimlərin hazırlanması proqramı üzrə bir çox məsuliyyətlər kitabın «İxtisas üzrə təcrübə proqramının yaradılması» bölməsində artıq təsvir olunub. İxtisas üzrə yoxlayıcının geniş məsuliyyətləri sırasına isə aşağıdakılar daxildir.

- müəllimlərin ixtisas üzrə təcrübədə iştirakla bağlı tələblərini bu tələblərdən irəli gələn prosedurlarla əlaqələndirmək;
- yoxlayıcının, əməkdaşlıq edən müəllimin və tələbənin gözlədikləri nəticələrin, rol və məsuliyyətlərinin aydın müəyyənləşdirildiyinə əmin olmaq;
- tələbəyə və əməkdaşlıq edən müəllimə ixtisas üzrə təcrübələrin ümumilikdə və konkret hallarda hansı məqsədlər daşıdığını aydınlaşdırmaq işində kömək etmək;
- dərs deyən ayrı-ayrı tələbələrin xüsusi təcrübə və ehtiyaclarını spesifik təcrübə yerlərinə uyğunlaşdırmaq;
- üçtərəfli görüşlərin məqsədəuyğunluğunu təmin etmək və bu görüşlərin cədvəlini tutmaq;
- əməkdaşlıq edən müəllimi və tələbəni akademik təqvimlə bağlı uyğun informasiya ilə təmin etmək;

●əməkdaşlıq edən müəllimi və tələbəni müəllim şəhadətnaməsinin tələbləri haqqında məlumatlarla tanış etmək.

Hər kəsin öz rolunu həyata keçirməsi üçün özünəməxsus metod və üslublara malik olması ilə yanaşı ümumilikdə yoxlayıcı:

●tələbəni dərs zamanı müşahidə etmək üçün təcrübə yerlərinə müntəzəm olaraq səfərlər edir (proqramlarının çoxunda 4-5 belə səfər nəzərdə tutulur), tələbə ilə birlikdə təcrübəni araşdırır, tələbəyə öz tədris və təlim prosesi üzərində düşünməkdə kömək edir;

●rəylərin öyrənilməsi ilə bağlı 3 üçtərəfli görüşdə iştirak edir;

●problemlər meydana çıxarkən tələbələr və əməkdaşlıq edən müəllimlərlə görüşür;

●tələbələr müəllim rolunu öz üzərlərinə götürməyə başladıqları zaman onlarda özünəinam və məqsədyönlülük kimi hisslərin inkişafına kömək edir;

●ehtiyat şəxs rolunda çıxış edir;

●tələbələrin fəaliyyətini qiymətləndirir, məruzələr və zəmanət məktubları yazır;

●kurs işlərinin məzmunu və bu işlərin ixtisas təcrübəsi ilə əlaqələndirilməsi yolları barədə müntəzəm məlumat əldə edir.

●tələbə və təcrübə yeri haqqında informasiyanın və qiymətləndirmə cədvəllərinin toplandığı qovluq yaratmaq və saxlamaq;

●müvafiq tərəqqi əldə edilmədiyi zaman əməkdaşlıq edən müəllim və tələbə ilə birlikdə plan hazırlamaq.

Maddi-texniki təminat baxımından yoxlayıcı qarşısında yüksək tələblər qoyulduğundan, müəllimlərin hazırlanması proqramları ixtisas təcrübəsi üzrə koordinator vəzifəsini də nəzərdə tutmalıdır. Bu şəxs tələbələrlə müsahibələr aparmalı, onların təqdimatını təcrübə yerlərinə verməli, uyğun təcrübə yerlərini müəyyənləşdirməli, ixtisas təcrübəsi ilə bağlı seminarlar keçirməli, zəruri hallarda müdaxilə etməli, qiymət verməli və ixtisas təcrübəsi üzrə məlumat kitabçası kimi materiallar hazırlamalıdır. İxtisas təcrübəsi üzrə koordinator proqramın uğurluluğuna əmin olmaq üçün yoxlayıcılarla birlikdə işləməlidir.

**Görüşlər və qiymətləndirmə**

Əməkdaşlıq edən müəllimlə dərs deyən tələbə arasında keçirilən müntəzəm həftəlik görüşlər əhəmiyyətli işgüzar münasibətlərin əsasını təşkil edir. Bu görüşlər tələbəni sinif təcrübələri və pedaqoji nəzəriyyə ilə bağlı hiss, fikir və suallarını ifadə etmək imkanı ilə təmin edir. Bununla yanaşı həmin görüşlər əməkdaşlıq edən müəllim üçün də tələbənin perspektivini və artan biliyini tədqiq etmək imkanı yaradır. Sözügedən görüşlərdə gözlənilən nəticələri müzakirə etmək, məqsədləri müəyyənləşdirmək, narahatlıq doğuran cəhətlərlə bağlı müzakirə aparmaq, uşaqların ehtiyaclarını təhlil etmək, qazanılan uğurları üzə çıxarmaq və görülən işə qiymət vermək olar.

Cədvəldə nəzərdə tutulan görüşlərlə yanaşı, əməkdaşlıq edən müəllim praktikum təcrübəsi ərzində qeyri-formal qaydada tələbənin fəaliyyəti haqqında rəylərini söyləməlidir. Tələbə də konkret fəaliyyətlə bağlı özünüqiymətləndirmə formalarını doldura bilər (Əlavə 15-ə baxın). Bu formaları dərs planına və ya tələbənin başa çatdırdığı müvafiq işlərə tikmək olar.

Müəllimlərin hazırlanması üzrə ABŞ-dakı proq-ramların çoxu yoxlayıcı, əməkdaşlıq edən müəllim və tələbə arasında 3 üçtərəfli görühün keçirilməsini tələb edir.

Bu görüşlər çox zaman müəllimlərin hazırlanması üzrə proqramın şəhadətnaməsinin tələbləri çərçivəsində tələbənin inkişafını nəzərdən keçirmək məqsədilə praktikumun əvvəlində, ortasında və sonunda keçirilir. Adətən yoxlayıcıya tələbənin qiymətləndirilməsi zamanı həlledici səlahiyyət verilir; lakin əməkdaşlıq edən müəllimin də bu məsələdəki rolu mühüm əhəmiyyət kəsb edir. tələbənin qazandığı səriştə ilə bağlı yoxlayıcı və əməkdaşlıq edən müəllim arasında fikir ayrılığı yarandığı zaman nəticələri və bütün tələblərin ödənilməsi üçün müvafiq davametmə müddətinin müəyyənləşdirilməsindən ötrü əlavə görüşlər nəzərdə tutula bilər.

Yekun qiymətləndirmə zamanı uğurlu praktikum təcrübəsini bütünlükdə təhlil etmək və növbəti dəfə üçün hansı yeni cəhətlərin əlavə edilə biləcəyini aydınlaşdırmaq imkanı yaranır. Praktikumda iştirak edən üç əsas tərəf əldə edilən təcrübəni özünü tənqidi qayda da qiymətləndirmək, praktikum prosesi ilə bağlı rəyləri müəllimlərin hazırlanması proqramı üzrə çalışan işçilərin nəzərinə çatdırmaq istəyində ola bilərlər. Əməkdaşlıq edən müəllim və müəllimlərin hazırlanması proqramının yoxlayıcısı, həmçinin, tələbənin rəyini öyrənə bilərlər (Aralıq və yekun qiymətləndirmə formalarının nümunəsi üçün Əlavə 11 və əlavə 12-yə baxın).

**Əlavələrin siyahısı**

Əlavə 1: Praktikum üzrə ərizə formasının nümunəsi (Tələbə tərəfindən doldurulur).
Əlavə 2: İxtisas üzrə təcrübə haqqında informasiya formasının nümunəsi (Tələbə tərəfindən doldurulur).
Əlavə 3: Tələbənin pedaqoji profilinin nümunəsi.
Əlavə 4: Dərs deyən tələbələrin istiqamətləndirmə (oriyentasiya) paketi üçün ideyalar.
Əlavə 5: Praktikum yeri haqqında informasiya formasının nümunəsi (Tələbə tərəfindən doldurulur).
Əlavə 6: İxtisas üzrə təcrübənin qeydiyyatı formasının nümunəsi (Müəllimlərin hazırlanması proqramının yoxlayıcısı və əməkdaşlıq edən müəllim tərəfindən doldurulur)
Əlavə 7: Dərs deyən tələbə üçün praktikum ərzində əldə ediləsi nəticələr siyahısının nümunəsi.
Əlavə 8: Tam praktikum planın nümunəsi.
Əlavə 9:Həftəlik praktikum planının nümunəsi.
Əlavə 10: Sistemli müşahidə, sinfin idarəçiliyi, tədris təcrübələri, valideynlərlə ünsiyyət və əlavə düşündürücü sualların nümunələri.
Əlavə 11: Dərs deyən tələbənin müşahidə formasının nümunəsi.
Əlavə 12: Dərs deyən tələbənin özünüqiymətləndirmə formasının nümunəsi.
Əlavə 13.Praktikum üzrə aralıq və yekun qiymətləndirmə formasının nümunəsi.

**ƏLAVƏ 1**

**Praktikum üzrə ərizə formasının nümunəsi**

**(Tələbə tərəfindən doldurulur).**

ECSE 6911 Praktikum üzrə ərizə forması

(Praktikuma yazılmaq istədiyiniz semestrdən 75 gün əvvəl doldurmalısınız)

Adı_________________________________________

soyadı atasının adı tələbə biletinin nömrəsi məsləhətçi

Ünvan:_______________________________________

Telefon:İş__________________ ev________________

Praktikuma yazılmaq istədiyiniz semestr:____ Axtarılan kredit saatları (2-4)_____________________

Praktikuma yazıldığınız zaman məşğul olmaq istədiyiniz digər fənlər: ___________________________

_______________________________________________

Həmin fənlər və praktikum sizin kurs işinizi tamamlayacaqmı?_______________________________

Praktikum ən azı 150, 225 və ya 300 saat (müvafiq olaraq 2, 3 və ya 4 kredit saatı üçün) nəzarətdə olmağı tələb edir. bundan əlavə, əgər üç yaş qrupuna (0-2, 3-5 və 6-8 yaşlar) mənsub uşaqlarla birbaşa və yoxlayıcının nəzarəti altında iş təcrübəsinə malik deyilsə, tələbənin bu qrupların hər biri ilə yoxlayıcı nəzarəti altında ən azı 25 saat işləməsi praktikumda nəzərdə tutulacaq. Zəhmət olmasa, aşağıdakı bölmələri müvafiq qaydada doldurun.

Yoxlayıcının nəzarəti altında uşaqlarla birbaşa iş təcrübəsinin şəxsi tarixçəsi (nə zaman, harada, kimin nəzarəti altında və s.)

0-2 yaş:________________________________________

_______________________________________________

3-5

yaş:__________________________________________________________________________________

____

6-8 yaş:________________________________________

_______________________________________________

Tədris barədə şəhadətnaməniz (icazəniz) varmı (əgər varsa, səviyyəsini, hansı dövlət tərəfindən verildiyini və s. göstərin):________________________

_______________________________________________

Məsləhətçinizlə götür-qoy etməklə, siz praktikum yerinə seçmək üçün məsuliyyət daşıyırsınız. Həmin yerləri təsvir edən məlumat kitabçasının NC 4025-də tapa bilərsiniz. Aşağıdakı bəndlər doldurulmaqla, uyğun uyğun praktikum yerini daha asanlıqla müəyyən edəcəksiniz.

Öz praktikum təcrübəniz vasitəsilə əldə etmək istədiyiniz məqsədləri üstünlük dərəcəsinə görə sıraya düzün (məsələn, keçid mərhələlərində idarəçilik, ailəyə istiqamətləndirilmiş müdaxilə planlarının həyata keçirilməsi, birləşdirici təcrübələr, inkişaf qüsurları olan uşaqlar üçün xüsusi uyğunlaşdırmalar, nümayiş etdirmə və qiymətləndirmə vərdişləri və s.)

1._________________________________________

2._________________________________________

3._________________________________________

Arzu olunan praktikum yerləri (üstünlük sırası ilə):

| | |
|---|---|
| 1.____________________ | 1.______________________ |
| 2.____________________ | 2.______________________ |
| 3.____________________ | 3.______________________ |

**ƏLAVƏ 2**

**İxtisas üzrə təcrübə haqqında informasiya formasının nümunəsi (Tələbə tərəfindən doldurulur).**

**KİÇİK YAŞLI UŞAQLARIN TƏHSİLİ VƏ İBTİDAİ TƏHSİL PROQRAMI İXTİSAS ÜZRƏ TƏCRÜBƏ HAQQINDA İNFORMASİYA FORMASI**

**Əməkdaşlıq edən müəllimlər, məktəb rəhbərləri, kiçik yaşlı uşaqların təhsili və ibtidai təhsil fakültəsi tələbələrinin yoxlayıcıları üçün**

*Zəhmət olmasa, diyircəkli qələmdən istifadə edin və yazarkən qələmi möhkəm basın.*

Adınız:_____________________ Tarix:________________

Müvəqqəti ünvanınız:________________________________

Ev telefonu:__________

Daimi ünvanınız:__________________________

Tələbə biletinizin nömrəsi: ____________

Oxuduğunuz təhsil müəssisəsini nə vaxt bitirmək fikrindəsiniz? ___________________________
ay/il

Hansı təhsil kurslarını keçib qurtardığınızı və hazırda keçdiüyinizi müvafiq sütunlarda «x» işarəsi ilə qeyd edin. Hazırda hansı bölmələrdə çalışdığınızı göstərən rəqəmləri dairəyə alın.

| | | | |
|---|---|---|---|
| Keçilmişdir | | Keçilir | |
| Birləşdirici seminarlar 1, 2, 3, 4 | ( ) | Musiqinin tədrisi | ( ) |
| Riyaziyyatın tədrisi 1, 2 | ( ) | Tədris və öyrənmə üzrə | |
| Rəssamlığın tədrisi | ( ) | tədqiqatlar 1 və 2 | ( ) |
| Uşağın inkişafı 1, 2 | ( ) | təhsil sosial institut | |
| Tədrisin öyrənilməsi | ( ) | kimi | |
| Təbiət elmlərin tədrisi 1, 2 | ( ) | və ya təhsilin tənqidi | ( ) |
| Sosial elmlərin tədrisi 1, 2 | ( ) | şəkildə öyrənilməsi | ( ) |
| Dilin və ədəbiyyatın tədrisi 1 və 2 | ( ) | Digər | |
| | | (göstərin)_______ | |

İxtisas üzrə keçdiyiniz təcrübələri xronoloji ardıcıllıqla göstərin:

Məktəb Sinif/Yaş Yoxlayıcı

1.___________ ______________ _______________

2.___________ ______________ ________________

3.___________ ______________ ________________

Əgər bu, sizin ixtisas üzrə ilk təcrübənizdirsə, onu burada qeyd edin:_________________________________

**ƏLAVƏ 3**

**Tələbənin pedaqoji profilinin nümunəsi**

Adınız:____________Müəllimlərin hazırlanması üzrə proqram:________________________________________

Ünvanınız:_____________________________________________________Telefonunuz:__________________

__

Akademik ixtisasınız (ixtisaslarınız) ________________________________________________

1.Praktikuma hazırlaşmaq üçün keçdiyiniz fənlərin siyahısının bir nüsxəsini bu vərəqə tikin.

2.Əvvəl keçdiyiniz tədris təcrübələrini (məsələn, praktikumdan əvvəlki ixtisas təcrübəsini və s.) sadalayın.__________________________________________________________________________________

_____________________________________________________________________________________________

_______________________________________________________

3.Öz təcrübəniz və ya sınaqdan çıxardığınız sahələr (məsələn, xarici dil, piano, rəqs, dram əsəri, rəssamlıq, idman) haqqında məlumat verin.________________________________________________

_____________________________________________________________________________________________

_____________________________________________________________________________________________

________________________________________________________

4.Yaşadığınız və səyahət etdiyiniz yerləri sadalayın ________________________________________________

_____________________________________________________________________________________________

_____________________________________________________________________________________________

________

5.Digər informasiya:_________________________

_____________________________________________________________________________________________

_____________________________________________________________________________________________

________________________________________________________

**ƏLAVƏ 4**

**Dərs deyən tələbənin istiqamətləndirmə (oriyentasiya)paketi üçün ideyalar**

Bu paket dərs deyən tələbənin formal olaraq praktikuma başlamasından əvvəl əməkdaşlıq edən müəllim tərəfindən hazırlanmalıdır.

Paketə aşağıda göstərilənlərin hamısı və ya bəziləri daxil edilə bilər:

- fakültənin kitabçası, əsas vəzifənin ifadəsi, məktəbin qarşısında duran məqsədlər, tələbənin məlumat kitabçası (əgər mümkünsə);
- tədris proqramının istiqamətləri, fənlərin siyahısı, oxunan kitabların siyahısı;
- gündəlik cədvəllər;
- şagirdlərin adlarından ibarət siyahı;
- məktəb qaydaları və sizin öz şəxsi otağınızdakı qaydalar;
- yanğından mühafizə tədbirləri;
- xüsusi tələbatları və sağlamlıqla bağlı problemləri olan şagirdlərin siyahısı;
- şagirdlərin qiymətləndirilməsi sistemi;
- nümunə dərsi planının formaları;
- məktəbdəki siniflərin və onların keçdikləri fənlərin siyahısı;
- otaqların nömrələri qeyd olunmuş məktəb xəritəsi;
- valideynlərlə ünsiyyətin forma və istiqamətləri;
- tədris üçün faydalı hesab etdiyiniz məqalələr.

ƏLAVƏ 5

**Praktikum yeri haqqında informasiya formasının nümunəsi (Tələbə tərəfindən doldurulur).**

| |
|---|
| **Kiçik yaşıl uşaqların təhsili üzrə praktikum yeri haqqında informasiya** |
| Zəhmət olmasa, informasiya əldə edən kimi dərhal bu formanı universitet yoxlayıcısına təqdim edin |
| SEMESTR: Payız Yaz Yay |
| |
| **ŞƏXSİ İNFORMASİYA** |
| |
| **TƏLƏBƏNİN ADI:** |
| |
| ÜNVAN: (Poçt indeksi ilə birlikdə) |
| |
| |
| |
| **TELEFON NÖMRƏLƏRİ:** |
| Ev: |
| İş: |
| Fövqəladə hallar üçün: |
| **PRAKTİKUM YERİ** |
| ÜNVAN: (Zəhmət olmasa poçt indeksi də daxil olmaqla tam ünvan göstərin) |
| |
| |
| **TELEFON NÖMRƏLƏRİ:** |
| |
| **TƏCRÜBƏ YERİ ÜZRƏ YOXLAYICI:** |
| Adı və soyadı: |
| Vəzifəsi: |
| Şəhadətnamə/lisenziya: |
| |
| SİNFİN TƏSVİRİ: (yaş/sinif səviyyəsi, iş qüvvəsinin nisbəti, internat və ya qeyri-internat tipli, müxtəlif qabiliyyətli uşaqların birgə oxuduğu/ayrı oxuduğu və s.) |
| |
| |
| |
| Tələbələrin proqrama cəlb olunduğu saatlar: |
| |
| Universitet yoxlayıcısının çəfərlərinin optimal vaxtları: |
| |
| |
| **TƏCRÜBƏ YERİNƏ GEDƏN MARŞRUTLAR:** |
| |

| |
|---|
| |
| |

## ƏLAVƏ 6

**İxtisas üzrə təcrübənin qeydiyyat formasının nümunəsi (Müəllimlərin hazırlanması proqramının yoxlayıcısı və əməkdaşlıq edən müəllim tərəfindən doldurulur)**
**ZƏHMƏT OLMASA, DİYİRCƏKLİ QƏLƏMDƏN İSTİFADƏ EDİN VƏ YAZARKƏN QƏLƏMİ MÖHKƏM BASIN.**

**FAKÜLTƏ ÜZRƏ MƏSLƏHƏTÇİ**

Tələbə_________Tələbə biletinin №-si_________ Tarix__________

Ünvan_____________Proqramın adı/№-si________

Şəhər______________Ölkə_____________Post indeksi_____İxtisas kursunun №-si_____________

Telefon ( )________Ümidli qiymətləndirmə balı (GPA)____________________İxtisas üzrə balların sayı_________ Sağlamlığın yoxlanması Bəli______

Xeyr_______ Yenidən yoxlamaq zərurəti _______ Nitq qabiliyyəti_____________

PDS №-si________Tələbə_____________________ __________Məzun______________Əvvəlki təcrübə yerlərinin sayı________________

İxtisas üzrə təcrübənin tarixçəsi: Məktəbi, yaşı və ya sinfi, semestr/tarixi göstərin.

Veriləcək şəhadətnamə: №6________Digər (xüsusi təhsil və s.)_______

Təklif olunan təcrübə yeri (Müvafiq sinifi dairə ilə işarə edin): N K 1 2 3 4 5 6 7 8

Təklif olunan məktəbin tipi: Müstəqil________ Dövlət________Digər_______

| **Tövsiyə olunan məktəb Məşğələləri** | **Məktəb işlərinə baxan fakültə işçisi** |
|---|---|
| 1.________________ | 1.____________________ |
| 2.________________ | 2.____________________ |
| 3.________________ | 3.____________________ |

**MƏKTƏB İŞLƏRİNƏ BAXAN**
**FAKÜLTƏ İŞÇİSİ**

Mən__________….də _____________….i qəbul etdim.
(məktəbin adı) (tələbənin adı)

O, yəqin ki, __________________________________
Müəllim(lə) Sinif (də) Yaş
işləyəcəkdir.

B.e. Ç.a. Ç. C..a C

Zəhmət olmasa, tələbənin ____________________
məktəbdə olduğu günləri
«x»-lə işarə edin. Məktəbdə Saat 12-dək___________
seminarı keçirəcəyiniz günü
«s»-lə göstərin. Saat 12-dən sonra_______

__________________________
fakültə işçisinin imzası

Hər ixtisas balı üçün yoxlayıcı semestr ərzində ən azı bir dəfə tələbəyə baş çəkəcək. Tələbələr semestr ərzində hər bal üçün ən azı 45 saat təcrübə yerində olmalıdırlar. Bundan ötrü hər bal üçün həftədə bir gün yarım və daha yarım gün məktəbdə olmaq lazımdır.

## ƏLAVƏ 7

**Dərs deyən tələbə üçün praktikum ərzində əldə ediləsi nəticələr siyahısının nümunəsi**

İki semestr ərzində tələbələrdən kurs işinin praktikumu və klinik təcrübəni tamamlamağı tələb edən Uilok kollecində aşağıdakı nəticələrin əldə edilməsi nəzərdə tutulur.

■ Sinifdəki fəaliyyətinin ilkin mərhələsində dərs deyən tələbə aşağıdakı işləri görməlidir:

- məsələ, prosedur, rejimləri müşahidə və müzakirə etmək üçün vaxt ayırmaq;
- rejimlə sinifdə nəzərdə tutulan işlərdə keçid vaxtı, bütün qrupun birgə çalışdığı vaxt, fərdi layihələr, qəlyanaltı və nahar müddətində yardımçı rolunda çıxış etmək (yaş qrupu və məşğələlərə müvafiq olaraq);
- hər bir uşaqda şəxsi münasibətlər qurmaq və bu məqsədlə ayrı-ayrı uşaqlara hekayələr oxumaq, münaqişələri həll etməkdə uşaqlara yardımçı olmaq, ayrı-ayrı uşaqlarla birlikdə konkret tapşırıqlar üzərində işləmək, zəruri hallarda kömək göstərmək;
- uyğun tədris materialları və fəaliyyətləri ilə tanışlıq məqsədi ilə hər gün sinfin müxtəlif guşələrində və ya kiçik qruplara bölünmüş uşaqlarla işləmək;
- münasib hallarda məktəbin müəllimləri və digər işçiləri ilə tanış olmaq.

■Sinifdəki müntəzəm fəaliyyəti müddətində dərs deyən tələbə aşağıdakılara əməl etməlidir.

- tədricən proqramla bağlı məsuliyyəti daha çox öz üzərinə götürmək:

  -bir fəaliyyətdən digərinə keçərkən məsuliyyəti getdikcə daha çox öz üzərinə götürmək;

  -bütün qrupun fəaliyyəti və istiqamət vermək üçün müəllimin müdaxilə etdiyi məqamlarla bağlı yeni-yeni bilgilər əldə etmək;

  -planlaşdırmaq qabiliyyətini inkişaf etdirmək və proqramın bütün aspektlərinin reallaşdırılması üçün məsuliyyəti bütünlüklə öz üzərinə götürmək.

- fərdi və kiçik qrup fəaliyyətləri zamanı səmərəli işləmək:

  -uşaqları sistemli şəkildə müşahidə etmək və dinləmək;

  -müntəzəm yazılı qeydlərin aparılması və digər qiymətləndirmə formalarının tətbiq edilməsi işində fəal iştirak etmək;

  -uşaqlar üçün və ya onlarla birgə kitab oxumaq;

  -sinifdəki tədris materialları ilə tanış olmaq;

  -tədris materiallarını hazırlamaq və fərdi intellektual və sosial tələbatları planlaşdırmaq;

  -müəllimlərin hazırlanması üzrə proqramdakı və ətraf cəmiyyətdəki mümkün resurslardan istifadə etmək;

  -bütün fənlər sahəsində tədris proqramı üzrə təcrübələr aparmaq;

  -hekayələr, şerlər, musiqi və dram əsərləri də daxil olmaqla, müxtəlif vasitələrin köməyi ilə biliyin üzə çıxarılmasını həvəsləndirmək;

  -yaradıcı və yaşa uyğun oyun imkanlarını təmin etmək;

  -riyaziyyat, nitq, rəsm, sosial elmlər və təbiət elmləri kimi sahələrdə fəaliyyətlərin planlaşdırılması üçün öz üzərinə getdikcə daha çox məsuliyyət götürmək;

  -tələbatları müəyyənləşdirmək və tədris planlarını həyata keçirmək məqsədi ilə uşaqları müşahidə etmək və mütəxəssislə görüşmək.

- aydın, anlaşıqlı və uyğun şəkildə ünsiyyətə girmək;

  -şagirdlərə aydın və dəqiq izahatlar vermək;

  -sorğu-sualın həvəsləndirilməsindən ötrü suallar tərtib etmək;

  -şagirdlərin yaş və inkişaf səviyyələrinə, sosial, irqi və dil mühitinə və xüsusi tələbatlarına uyğun gələn nitqdən istifadə etmək.

- əqli, sosial və fiziki inkişafa kömək edən təlim mühiti yaratmaq:

-qeydiyyat aparmağın qiymətləndirmə və planlaşdırmaya kömək edə bilən metodlarını mənimsəmək və onların tətbiqinə başlamaq;

-şagirdlərin tələbat və maraqlarını başa düşmək və onların ödənməsi üçün tədris planını uyğun şəkildə tərtib etmək;

şagirdlərin yaş və inkişaf səviyyəsinə uyğun olan materiallardan istifadə etmək;

-təlimat elementlərini ardıcıl olaraq, bir-biri ilə, digər bilik sahələri ilə, uşaqların əvvəlki təcrübələri ilə və uzunmüddətli məqsədlərlə əlaqələndirmək.

•təlimatın effektivliyi və uşaqların fərdi qaydada öyrənməsi ilə bağlı rəylərin öyrənilməsi məqsədi ilə qiymətləndirmə metodlarını tətbiq etmək və həmin məlumatlardan tədrisin planlaşdırılması işində istifadə etmək.

•ailələr və icmalarla tərəfdaşlıq münasibətləri qurmaq:

-valideyn/məktəb/icma münasibətlərini diqqətlə tədqiq etmək;

-uşaqlarda özünəhörmət hissinin inkişafına yardım edən əlverişli sosial mühit yaratmaq üçün ailə, cəmiyyət və icmanın resurslarından yararlanmaq;

-ailələrlə ünsiyyətin uyğun metodlarını yaratmaq;

-ailə və cəmiyyətin qiymət verdiyi dəyərlərə əsaslanmaq.

▪Praktikumun sonuna yaxın tələbə bir həftə ərzində bütün sinfə nəzarət etməyə hazır olmalı və bu məqsədlə əməkdaşlıq edən müəllimin köməkçisi kimi onunla birlikdə proqramı planlaşdırmalı və müxtəlif fəaliyyətləri icra etməlidirö əməkdaşlıq edən müəllim, dərs deyən tələbə və yoxlayıcı bu təcrübə üçün uyğun vaxt müəyyənləşdirməlidirlər. Dərs deyən tələbənin klinik təcrübəsinin sonuna yaxın o birləşmiş tematik dərs planı tərtib edir, onu həyata keçirir və qiymətləndirir. Tələbə bütöv bir həftə ərzində nəzarəti öz üzərinə götürür və bu məqsədlə tədris gününün bütün detallarını təşkil edir, atılacaq addımlar, keçidlər və qrup fəaliyyətləri ilə bağlı qərarlar qəbul edir.

**ƏLAVƏ 8**

**Tam praktikum planının nümunəsi**

**Dərs dediyi semestr üzrə tələbənin inkişaf ardıcıllığı**

| Həftə* | 1 2 | 3 4 5 | 6 7 8 |
|---|---|---|---|
| Hədəf | Məhdud | Konkret > | Genişlənən > |
| Tələbənin məqsədləri | Müşahidə etmək | Cəhd etmək > | Təcrübəni genişləndirmək> |
| | (Davamlı məqsəd: tədris planı və metodları | | |
| Sinifdəki məsuliyyət və vəzifələr | Bütün məsuliyyət müəllimin üzərindədir | Tələbə müəyyən məsuliyyətəri öz üzərinə götürməyə başlayır | Tələbə və müəllim birlikdə komanda təlim planını öyrədir və uyğun şəkildə vəzifə bölgüsü apararaq planları həyata keçirirlər |
| Iştirak cədvəli | müşahidə | Sinifdə köməkçi olmaq | Ayrı-ayrı uşaqlarla, kiçik qruplarla işləyir və görüşlərin aparıcısı olur |
| Tələbə üçün tədris planı ilə bağlı məqsədlər | Sinifdəki müəl-limin sinfi necə təşkil etdiyini və dərs dediyini müşahidə etmək<br><br>(Tələbə zəruri | Müəllimin ha-zırladığı dərs planını həyata keçirmək və öz tədris planları-nın tərtibinə başlamaq hallarda | Bir neçə fənn və sinif otağının guşələrini əhatə etmək üçün planlaşdırmanı genişləndirmək<br><br>resurs materiallarını… |

| | | | |
|---|---|---|---|
| Müəllimlər<br>Valideynlər<br>Mütəxəssislər<br>Cəmiyyət<br>Resurslar<br>Qarşılıqlı münasibətlər | Ayrı-ayrı tərəfdaşların proqram haqqında biliklərinin artırılması | Vacib tərəfdaşlarla ünsiy-yətə girmək və qarşılıqlı münasibətlər qurmaq > | Vacib tərəfdaşlardan resurslar almaq |
| Tələbənin daxilində baş verən dəyişikliklər | Məsuliyyət və… hisslərinə sahib olmağa başlamaq | Inam > | Müstəqilliyi inkişaf etdirmək> |

*Bəzi hallarda siniflə tanışlıq tələbənin dərsm deməyə başlamasından əvvəl, semestr ərzində ilkin praktikum zamanı həyata keçirilə bilər.

<table>
<tr><td>9</td><td>10</td><td>11</td><td>12</td><td>13</td><td>14</td><td>Həftə</td></tr>
<tr><td colspan="6">> Geniş mücərrəd icmal</td><td>Hədəf</td></tr>
<tr><td colspan="6">> Birgə tədris >Sinfin idarəçiliyini öz üzərinə götürmək<br>…ilə bağlı aydın məntiqi mühakimə yürütməyi bacarmaq</td><td>Tələbənin məqsədləri</td></tr>
<tr><td colspan="3">Tələbə planlaşdırma və tədrislə bağlı daha çox məsuliyyəti öz üzə-rinə götürür</td><td colspan="3">Tələbə «Əhəmiyyətli dövr» üçün liderliyi öz üzərinə götürür</td><td>Sinifdəki məsuliyyət və vəzifələr</td></tr>
<tr><td></td><td colspan="5">Fərdi təlimin, kiçik və bütöv qrup təlimlə-rinin və keçidlərinin əlaqələndirilməsi</td><td>İştirak cədvəli</td></tr>
<tr><td colspan="3">Ayrı-ayrı şagirdlərin fərdi öyrənmə ehtiyac-larını ödəyən zaman qrup şəklində öyrən-məni də nəzərdən qa-çırmayan müxtəlif ya-naşma üsullarından is-tifadə etməklə, birləş-dirici tədris planını tər-tib etmək və həyata keçirmək<br>… sinfə gətirməlidir)</td><td colspan="3">Proqramın planlaşdırıl-ması və idarəçiliyi üçün liderliyi tamamilə öz üzərinə götürmək</td><td>Tələbə üçün tədris planı ilə bağlı məqsədlər</td></tr>
<tr><td colspan="6">Vacib tərəfdaşlardan resurslar almaq<br>Resursları planlaşdırmaya cəlb etmək<br>Resursları təhsil haqqında baxışlara daxil etmək</td><td>Müəllimlər<br>Valideynlər<br>Mütəxəssislər<br>Cəmiyyət<br>Resurslar<br>Qarşılıqlı münasibətlər</td></tr>
<tr><td colspan="6">Təşəbbüsü öz üzərinə götürmək liderliyi öz üzərinə inamla götürə bildiyini hiss etmək</td><td>Tələbənin daxilinlə baş verən dəyişikliklər</td></tr>
</table>

**ƏLAVƏ 9**

**Həftəlik praktikum planının nümunəsi**

Həftə____________________

Müxtəlif günlərdə hansı vasitələrdən və metodlardan istifadə edəcəyinizi göstərin: film, müzakirə, mətn və s. bütün siniflə iş, kiçik qruplarla iş, fərdi iş.

HƏFTƏLİK CƏDVƏL

TƏLƏBƏNİN DƏRS DEMƏSİ

Tələbənin adı və soyadı __________

______________________

Əməkdaşlıq edən müəllim__________

Sinif__________________

Otağın №-si___________

| Fənlər | Vaxt | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**ƏLAVƏ 10**

Sistemli müşahidə, sinfin idarəçiliyi, tədris təcrübələri, valideynlərlə ünsiyyət və əlavə düşündürücü sualların nümunələri

**ƏMƏKDAŞLIQ EDƏN MÜƏLLİMİN İDARƏÇİLİYİ:**
**SİSTEMLİ MÜŞAHİDƏ**
**(Təcrübə yerində ilk həftə ərzində doldurulur)**

Prosedurlar

Dərs deyən tələbə və universitet yoxlayıcısı əməkdaşlıq edən müəllimin dərsini birlikdə müşahidə etmək üçün vaxt cədvəli tərtib etməlidirlər. Hər kəs bu formanı müstəqil şəkildə doldurmalı və bu zaman mümkün qədər çox detalları əhatə etməlidir. Sonra müşahidələrlə bağlı müzakirə aparmaq üçün görüş vaxtları təyin olunmalıdır.

Yoxlayıcı ilə görüşdükdən sonra aşağıdakı başlıqlardan istifadə edərək müşahidə qeydlərinizi yazın:

Keçid, intizam tələbləri, konkret məqamlarda qərarlar, şagirdlərin münasibəti və ümumi idarəçilik üslubu. Öz qeydlərinizdən, eləcə də yoxlayıcınızın məlumatından istifadə edərək hər bir bölməni ğəsvir edən bəndləri yazın.

Sistemli müşahidələrin hədəfi

1.Keçidlərin tiplərini (fənlərarası, həmçinin dərsin ayrı-ayrı bölmələri arasındakı) təsvir edin.

2.Müəllimin şagirdə «tətbiq etdiyi intizam» tədbirlərini təsvir edin (əgər mümkünsə, spesifik sözləri və fəaliyyətləri qeyd edin).

3.Müəllimin «Məqamda məqama» (planlaşdırılmamış) qəbul etdiyi qərarları müzakirə edin. (Məsələn: Şagird xəstələnir, dərslər kəsilir və s. Müəllim bu zaman hansı addımları atır?)

4.Şagirdlərin təcrübəyə münasibətinin ümumi xarakterini təsvir edin. (Şagirdlərin dərsdən zövq aldığı hiss olunurmu? Məşğullubun səviyyəsi yüksəkdirmi? Bunu nədən bilirsiniz?)

5.Sinifdəki ümumi idarəçilik üslubunu və prosedurları təsvir edin. (Məsələn: Bu sistemli, yoxsa qqeyri-formal şəkildə həyata keçirilir? Hançı nəticələrin əldə olunacağı aydındırmı və şagirdlər həmin nəticələrə görə məsuliyyət daşıyırlarmı?)

## SİNFİN İDARƏÇİLİYİ
## QƏRAR QƏBUL ETMƏK QAYDALARI
**(Təcrübə yerində üçüncü həftənin başlanğıcında doldurulur)**

Təlimat

Bu vasitə dərs deyən tələbələrə təcrübə yerlərindəki xüsusi situasiyaya uyğun olaraq sinfin idarəçiliyi ilə bağlı ən düzgün qərarları qəbul etməkdə kömək məqsədi ilə düşünülmüşdür. Dərs deyən tələbələr hər bir sual ətrafında diqqətlə düşünməli və təfsilatı ilə cavab verməlidirlər. Cavabları təsviredici mətn şəklində aə ya sual-cavab formasında yazmaq olar. İş başa çatdıqdan sonra onun nəticələri əməkdaşlıq edən müəllimin və universitet yoxlayıcısının diqqətinə çatdırılmalıdır.

1.Sinfin idarəçiliyi ilə bağlı mənim əsas məqsədim nədir?

(İdarəçilik üsulları və metodlarından istifadə etməklə mən… nail olacağıma ümid edirəm).

2.Sinfin idarəçiliyinə hansı yanaşma üsulu öu məqsədə doğru aparır?

(Ciddi intizam, mənfi və ya müsbət mənada məcburiyyət tədbirləri, qeyri-adi mükafatlandırmalar və s.)

3.Sinfin idarəçiliyi ilə bağlı mən hansı dəyərlərə və möhkəm inamlara malikəm? Nə üçün?

4.Şagirdlərimin yetkinlik dərəcəsi necədir? Bu mənim idarəçiliklə bağlı qərarlarıma necə təsir edəcək?

5.Şagirdlərimin əvvəlki intizam göstəriciləri necə olmuşdur?

6.Şagirdlərim hansı mədəni mühitlərə mənsubdurlar?

7.Əməkdaşlıq edən müəllimdən hansı səviyyədə kömək gözləyirəm?

8.Mövcud şəraitdə mənim təcrübə yerində sinifdəki intizamla bağlı planım necə olmalıdır?

9.Nəzərdə tutduğum yanaşma üsulunu reallaşdırmaq üçün yer və materiallarla bağlı hansı xüsusi tələblərə əməl olunmalıdır?

10.Öz yanaşma üsulumu reallaşdırmaq üçün mənimhansı xüsusi köməyə ehtiyacım var? (Valideynlərin, şagirdlərin, əməkdaşlıq edən müəllimin və digər müəllimlərin köməyinə ehtiyac hiss edirsinizmi?)

## TƏDRİS TƏCRÜBƏLƏRİ

Aşağıdakı bəndlər tələbənin dərs dediyi müddətdə meydana çıxacaq bəzi daha spesifik təcrübələri əks etdirir. **Dərs deyən tələbələr bu vərəqi özləri ilə götürməli, onun üzərində əməkdaşlıq edən müəllimin qabiliyyətini qeyd etməli və təcrübənin başa çatdığı tarixi göstərməlidirlər.** Sinfin səviyyəsi və ya məktəb üçün münasib olmayan hər hansı təcrübədən çəkinin. Növbəti təcrübə yerində müxtəlif variantları sınaqdan çıxarmaq imkansız olacaq. Doldurulmuş bu forma tələbənin tədris qovluğunun içərisinə qoyulmalıdır.

- Məktəbin siyasətinin öyrənilməsi: yanğından mühafizə məşqləri, intizam.
- Bülleten lövhələrinin planlaşdırılması və quraşdırılması
- Şagirdlərin toplanmış qeydlərinin tədqiqi.
- Davamiyyətin qeydiyyatı, prosedurların öyrənilməsi və istifadəsi.
- Ev tapşırıqlarının yoxlanması.
- Surətçıxaran maşının işlədilməsi.
- Tabaşir lövhəsindən istifadə.
- Yardımçı materialların sinfə gətirilməsi.
- Videomaqqitafondan (kinoproyektordan) diafilmdən, adi proyektordan istifadə.
- Sərgilərin tərtibatı.
- Digər siniflərin müşahidə olunması.
- Şagirdin tərəqqisinin sistemi şəkildə sxem halında təsviri.
- Məlumat vərəqlərinin tərtibi işinə kömək.
- Müəllimlərin yığıncaqlarında iştirak.
- Məktəb bufetində yemək.
- Əməkdaşlıq edən müəllimə kömək (tənəffüs zamanı, avtobusla bağlı və s.)
- Müəllimlər otağına baş çəkilməsi.
- Yardımçı müəllimlərlə iş və onların dərslərinin müşahidəsi.
- Danışmaq, xüsusi təhsil, təlim, mütaliə və riyaziyyat sahələrində köməyə ehtiyacı olan uşaqlarla davranma prosesinin öyrənilməsi.

## VALİDEYNLƏRLƏ ÜNSİYYƏT

Valideynlərlə yaxşı işgüzar münasibətlər qurmaq və onları qoruyub saxlamaq mühüm əhəmiyyət kəsb edir. valideynlərlə həm formal, həm də qeyri-formal ünsiyyət imkanları tələbənin tədris təcrübəsinin bir hissəsi olmalıdır. Müəllim-valideyn ünsiyyətinin bir neçə zəruri tipi aşağıda verilir.

Əməkdaşlıq edən müəllim də öz inisialını yazmalı və baş tutmuş ünsiyyətin tarixlərini göstərməlidir (yaxşı olar ki, təcrübə keçdiyiniz yerdə və ya sinifdə).

- Dərs deyən tələbə haqqında təqdimat məktubunu şagirdlərlə evə göndərmək.
- Əməkdaşlıq edən müəllimi valideynlə görüş zamanı müşahidə etmək və müəllim və universitet yoxlayıcısı ilə birlikdə həmin görüşü müzakirə etmək.
- Valideynlər məktəb binasında olduqları zaman onlarla qeyri-formal şəkildə ünsiyyətə girməyə cəhd göstərmək.
- Müəllimlə birlikdə evlərə baş çəkmək (əgər bu, məktəb proqramında bir qayda olaraq nəzərdə tutulmuşdursa).
- Müəllim-Valideyn Assosiasiyasının işində iştirak etmək. Yığıncaqlar, valideynlər üçün açıq qapı günləri, məktəb sərgiləri və s.

## ƏLAVƏ DÜŞÜNDÜRÜCÜ SUALLAR

**(Zəruri hallarda düşündürücü qeydləri yazarkən istiqamətləndirici suallar kimi istifadə olunmaq üçün)**

1.Mənim dərsimin qarşıya qoyduğu məqsədlər nə idi və onlar əldə olundumu?

2.Əgər dərsin məqsədləri əldə olunmayıbsa, bu məqsədin əldə edilməsi üçün mən nəyi dəyişdirməli idim?

3.Dərsin uğurlu cəhətləri hansılar idi?

4.Gələcəkdə mən nəyi fərqli şəkildə etməliyəm?

5.Mən müxtəlif təlimat formalarından istifadə etdimmi? Bu formatlar şagirdləri dərsin məzmununu dərk etməyə və mənimsəməyə istiqamətləndirə bilirdimi?

6.Şagirdlərin cavabları məni qane edirdimi?

7.Dərsin müxtəlif hissələrinin müddəti şagirdlərimin diqqət dərəcəsinə uyğun gəlirdimi?

8.Şagirdlər materialı öyrənməkdən zövq alırdılarmı?

9.Dərs müddətində şagirdlərin sinifdə özlərini rahat hiss edirdilərmi?

10.Müxtəlif fəaliyyətlər arasındakı keçidlər uyğun dərəcədə vaxt aparırdımı?

11.Mən şagirdlərə bərabər səviyyədə müraciət edirdimmi?

12.Müstəqil iş zamanı mən şagirdlərə fəal şəkildə nəzarət edirdimmi və onların tapşırığı düzgün yerinə yetirib-yetirmədiklərini öyrənməkdən əlavə, həm də dərketmə prosesini yoxlamaqla bağlı monitorinq aparırdımmı?

13.Şagirdlərim sinifdə həyata keçirilən bütün fəaliyyətlərə görə məsuliyyət hiss edirdilərmi?

14.Bütün şagirdlər mənim göstərdiklərimi dərk edərək, onlara əməl edirdilərmi?

15.Əgər şagirdlər mənim göstərdiklərimə əməl etmirdilərsə, mən öz təlimatımı necə yaxşılaşdıra bilərəm?

16.Mən şagirdlərdən dərs soruşan zaman onlar mənim suallarıma cavab vermədikdə, onları cavab verməyə istiqamətləndirmək üçün müəyyən xatırlatma verirdimmi?

17.Mən şagirdlərə onların fəallığı ilə bağlı müsbət və spesifik fikirlər söyləyirdimmi?

18.Sinifdə şagirdlər ucadan cavab aerməzdən əvvəl əllərini qaldırırdılarmı? Əgər qaldırırdılarsa və ya bu qaydaya heç də həmişə əməl etmirdilərsə, mən bu şagirdlərə necə münasibət göstərirdim?

19.Şagirdlərin tapşırıqdan yayınması halları olurdumu? Əgər olurdursa, bu, dərs vaxtının hansı hissəsini əhatə edirdi? Şagirdlərin diqqətini yenidən tapşırığa cəlb etmək üçün mən nə edirdim?

20.Şagirdlərin diqqətinin yayınması üçün istifadə edə biləcəyim digər üsullar varmı?

**ƏLAVƏ 11**

**Dərs deyən tələbənin müşahidə formasının nümunəsi**

**DƏRS DEYƏN TƏLƏBƏNİN MÜŞAHİDƏ FORMASI**

Reytinq göstəricisi 1-5 (dərs deyən tələbə üçün «3» minimum stardartdır).
Adı və soyadı:
Məktəb:
Fənn:
Reytinq___________ Dərs planı (keyfiyyət, tamlıq)

Dərsin təqdimatı:

________ 1.Şagirdin iştirakı (tapşırıqda və əməkdaşlıqda).
________ 2.Dərs deyən tələbənin sual-cavab metodları.
________ 3.Əyani vəsaitlər.
________ 4.Şagirdlərin öyrənmə səviyyəsinə münasibət.
________ 5.Giriş
________ 6.Təşkilatçılıq.
________ 7.Yaradıcılıq.
________ 8.İcranın yoxlanması, dərsin möhkəmləndirilməsi, xülasə.
________ 9.Sinfin idarəçiliyi.

**Uğurlu cəhətlər:**

Yaxşılaşdırılmalı cəhətlər:
Yoxlayıcının imzası:______________________

Dərs deyən tələbənin imzası:_______________

Rəyin öyrənilməsi tarixi:________________

## ƏLAVƏ 12

**Dərs deyən tələbənin özünüqiymətləndirmə formasının nümunəsi**
**(Qeydiyyatı aparılan dərsin qiymətləndirilməsi üçün istifadə olunur)**

A.Siz və şagirdləriniz
Şagirdləri həvəsləndirmək üçün hansı üsullardan istifadə etməyə cəhd göstərdiniz?
_______________________________________________
Dərs soruşduğunuz şagirdləri sadalayın_____________
______________________________________________
Sualların cavabını bir neçə dəfə soruşduğunuz tələbənin qarşısında ulduz (*)işarəsi qoyun.
Bu uşaqlardan dəfələrlə cavab soruşmağınızın səbəbi nədir?________________________________________
______________________________________________
Dərsi soruşmadığınız uşaqların adlarını sadalayın________________________________________
Həmin şagirdlərə növbəti dərsdə suallarınızı verməyi necə planlaşdırırsınız?_____________________________
_______________________________________________
Uşaqlardan dərs soruşan zaman onların tam cavab verməsini gözləyirsinizmi?______________________
Öz suallarınıza özünüz cavab verməyə meyl edirsinizmi?__________________________________
Şagirdlərdən daha yaxşı cavablar almaq üçün necə səy göstərirsiniz?__________________________________
Şagirdlərin bir-biri ilə asan danışmasına imkan verirsinizmi?__________________________________

<u>B.Səsiniz</u>
Aydın danışırsınızmı?__________________________
Səsiniz daha gur, yoxsa daha yumşaq olmağa meyilli idi?___________________________________________
Səsinizdə şövq var idimi?_________________________
Səsinizdə özünəinam, yoxsa əsəbilik duyul-urdu?________________________________________
Səsinizdə məmnunluq və təbii şəkildə istifadə edirsinizmi?__________________________________
Davranışla bağlı problemlərin öhdəsindən gəlmək üçün öz səsinizdən necə istifadə edirsiniz
_______________________________________________
_______________________________________________
Şagirdlərlə daha yazyaşlı və ya daha çoxsaylı şagirdlər üçün münasib ola biləcək tərzdə danışma-ğa meyl edirdinizmi?_____________________________
Növbəti dərsdə səsinizin keyfiyyətini yaxşılaş-dırmaq üçün nə etmək fikrindəsiniz?______________________
______________________________________________
______________________________________________

**<u>C.Dərsin təqdimatı</u>**
Öz fikirlərinizi nə dərəcədə aydın bəyan etdiniz? ______________________________________________
Bu sahədə vəziyyəti daha da yaxşılaşdırmaq üçün nə etmək fikrindəsiniz?
__________________________________________________________________________________________
Dərs zamanı müvafiq sözlərdən istifadə edirsi-nizmi?________________________________________
İstifadəsi məqbul olmayan, lakin dərs zamanı istifadə etdiyiniz söz və ifadələri göstərin.
_______________________________________________
_______________________________________________
Xüsusən yaxşı təsir bağışlayan hansı sorğu-sual metodlarından istifadə edirsiniz?
_______________________________________________
_______________________________________________
Öz sorğu-sual metodlarınızı necə yaxşılaşdıra bilərsiniz?___________________________________
Həddindən artıq danışırdınızmı? _______________________________________________

Əgər danışırdınızsa, bu vəziyyəti necə aradan qaldırmaq fikrindəsiniz?
________________________________________________

**Ç.Şərhlər**

Özünüqiymətləndirmə üçün maqnitafondan, sizcə necə istifadə etmək olar?
________________________________________________

Bu formanı təkmilləşdirməyə kömək edə biləcək təklifləriniz varmı?________________________________

**ƏLAVƏ 13**

**Praktikum üzrə aralıq və yekun qiymətləndirmə formasının nümunəsi**

## PRAKTİKUMUN QİYMƏTLƏNDİRİLMƏSİ
## KİÇİK YAŞLI UŞAQLARIN QABAQCIL MÜƏLLİMİNİN İLKİN QİYMƏTLƏNDİRİLMƏSİ

Tələbə:______________

Əməkdaşlıq edən müəllim: _________________________

Kollec yoxlayıcısı:______________

Praktikum yeri:__________

_________________________

Sinif:___________________

Forma aşağıdakı şəxslər tərəfindən doldurulub:

Tələbə:_______________

Əməkdaşlıq edən müəllim _________________________

Kollec yoxlayıcısı: _______

________________________

Tarix:__________________

Aralıq______Yekun______

Zəhmət olmasa, öz şərhlərinizi verin və aşağıdakı iş sahələrini hər biri ilə bağlı müvafiq sütunda qeydlər edin (1=Nümunəvi; 2=Yaxşı; 3=Kafi; 4=Daha çox işləməlidir; 5=Uyğun gəlmir).

| 1 | 2 | 3 | 4 | 5 | | Şərhlər | Müşahidə olunmayıb |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Məsuliyyət və öhdəlik (Məsuliyyət, öhdəlik, məktəbin qaydalarına dəqiq əməl etmə, davamiyyət və punktuallıq) | | |
| | | | | | Səriştə: 1: Fənni dərindən bilməsi<br>**a**.Kiçik yaşlı uşaqların təhsili ilə bağlı fənni bildiyini nümayiş etdirir.<br>•ibtidai savad;<br>•uşaqların dil-ədəbiyyat sahəsində bilikləri;<br>•incəsənət;<br>•riyaziyyat;<br>•elm;<br>•sosial istiqamətləndirmə;<br>•sağlamlıq və bədən tərbiyəsi;<br>•xüsusi tələbatları olan öyrəncilər üçün tədris planının uyğunlaşdırılması qaydası; | | |
| | | | | | **b**.Kiçik yaşlı uşaqların təhsili ilə bağlı fənnin öyrənilməsi üçün qabiliyyət səviyyəsinin nəzərə alınmasının vacibliyindən xəbərdar olduğunu nümayiş etdirir. | | |
| | | | | | **c**.Xüsusi tələbatları olan və olmayan uşaqlara və kiçik yaşlı uşaqların təhsili ilə bağlı fənnə öyrənmə də daxil olmaqla fəal öyrənmə nəzəriyyələrindən xəbərdar olduğunu nümayiş etdirir. | | |
| | | | | | **ç**.Kiçik yaşlı uşaqların təhsili ilə bağlı öyrənilən fənlər arasında əlaqələr barədə biliyə malik olduğunu nümayiş etdirir. | | |
| | | | | | **d**.Uşaqların inkişafının mərhələləri və səciyyəvi xüsusiyyətləri barədə biliklərə malik olduğunu nümayiş etdirir və bu bilikləri birləşdirici tədris planı vasitəsilə xüsusi tələbatları olmayan uşaqların öyrənilməsi sahəsində tətbiq edə bilir. | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Səriştə II. Ünsiyyət vərdişləri<br>**a**.Şagirdlərin yaş və inkişaf dərəcələrinə, cinsinə, irqinə, etnik mənsubiyyətinə, dil və sosial iqtisadi mühitinə, fərdi öyrənmə üslubları-a və tələbatlarına uyğun olan bir dildə həssas şəkildə ünsiyyətə girir. | | |
| | | | | | **b**.Şagirdlər, ailələri və həmkarları ilə birgə fəaliyyət göstərir. | | |
| | | | | | Səriştə III.Təlimatlandırıcı təcrübə<br>**a**.İnsanların inkişafının səciyyəvi və qeyri-səciy-əvi cəhətlərini dərk edir və xüsusi təhsil alan uşaqları müntəzəm sinif məşğələlərinə cəlb etmək və birləşdirici təhsil proqramını işləyib hazırlamaq və tətbiq etmək metodları da daxil olmaqla, tədris proqramı və təlimatının prinsip-lərindən xəbərdardır. | | |
| | | | | | **b**.Yeni texnologiyalar, yaşa uyğun mütaliə və nitq vərdişləri, öyrənmə üslubu və öyrəncinin inkişaf səviyyəsi də daxil olmaqla, müxtəlif üsullarla dərs keçir. | | |
| | | | | | **c**.Müxtəlif irqi, sosial-iqtisadi, mədəni mü-hitdən və nitq mühitin-dən olan şagirdlərin təcrübəsinə uyğun ola-raq, tədris kursunun məzmununu müəyyən-ləşdirir. | | |
| | | | | | **ç.**Müxtəlif şagirdlərin inkişafı və öyrənməsinə yardım etmək üçün sinfi təşkil və idarə edir. | | |
| | | | | | **d.**Şagirdlərin akademik və sosial vərdişlərini inkişaf etdirən me-todlardan istifadə edir. | | |
| | | | | | **e.** Ailə və icmalarla səmərəli şəkildə işləyir. | | |
| | | | | | **Səriştə IV:** Qiymətləndirmə | | |
| | | | | | **a.** Şagirdlərin öyrənməsini | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | qiymətlən-dirmək üçün müxtəlif qiymətləndirmə qaydaları müəyyənləş-dirir və tətbiq edir. | | |
| | | | | | **b.**Öz tədris prosesini qiymətləndirir və şa-girdlərin öyrənməsini yaxşılaşdırmaq üçün qiymətləndirmə nəticə-lərindən istifadə edir. | | |
| | | | | | SəriştəV. Problemlərin həlli<br>**a**.Tədris və öyrənmə haqqında tənqidi şəkildə düşünür. | | |
| | | | | | **b**.Şagirdlərin yaradıcılıq və təhlil sahəsində düşüncə vərdişlərini həvəsləndirir. | | |
| | | | | | Səriştə VI. Ədalətlilik<br>**a**.Bütün tələbələrlə ədalətli və məsuliyyətli şəkildə davranır. | | |
| | | | | | **b**.Qərb və digər sivili-zasiyaların müasir Amerika mədəniyyətinə təsirini dərk edir və müvafiq metodlar işlə-yib hazırlamaq üçün bu bilikdən istifadə edir. | | |
| | | | | | Səriştə VII.Peşəkarlıq<br>**a**.Özünün hüquqi və mənəvi məsuliyyətlərini dərk edir. | | |
| | | | | | **b**.Təcrübə və nəzarət-yoxlayıcılıqdan (super-vayzerlikdən) öyrənir | | |
| | | | | | **c**.Cəmiyyətdəki prob-lemlərin şagirdlərin öy-rənməsinə mənfi təsir göstərə biləcəyini dərk edir və bu məsələləri nizama salmaq üçün uyğun metodlardan istifadə edir. | | |

**AZƏRBAYCAN RESPUBLKİASI TƏHSİL NAZİRİNİN**

**Ə M R İ**

İndeks: 370008, Bakı şəhəri Xətail prospekti 49.     Tel: 93-70-83

№ 395                                        01.05.2002-ci il

**Müvəqqəti qaydaların təsdiqi barədə**

1. Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin müəllimlik fəaliyyətinə hazırlanması işini tənzimləmək məqsədilə

**Ə M R   E D İ R Ə M:**

1. «Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin pedaqoji təcrübəsinin təşkili və keçirilməsinə dair müvəqqəti qaydalar» təsdiq edilsin (əlavə olunur)

2. Pedaqoji kadr hazırlığı aparılan ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri müvafiq qaydaları əldə rəhbər tutsunlar.

3. Əmrin icrasına nəzarət Ali və orta ixtisas təhsili idarəsinə (İ.Mustafayev) tapşırılsın.

**Misir Mərdanov**

# ALİ VƏ ORTA İXTİSAS TƏHSİLLİ MƏKTƏBLƏRİ TƏLƏBƏLƏRİNİN PEDAQOJİ TƏCRÜBƏSİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİNƏ DAİR MÜVƏQQƏTİ QAYDALAR

## I.Ümumi vəzifələr

1.1.Tələbələrin ixtisasları üzrə qazandıqları nəzəri biliklərin məktəbəqədər tərbiyə, orta ümumtəhsil, texniki peşə və orta ixtisas təhsilli müəssisələrində tətbiqində pedaqoji kadr hazırlığı aparılan ali və orta ixtisas təhsilli məktəblərinin keçirdiyi pedaqoji təcrübə xüsusi əhəmiyyət kəsb edir. Bütün tələbələr pedaqoji təcrübəni bu və ya digər formada keçirməlidirlər.

1.2.Pedaqoji təcrübənin vəzifələri aşağıdakılardır.

a) Tələbələrin ali və orta ixtisas təhsili müəssisə-lərində aldıqları nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək, habelə təcrübə zamanı aparılan təlim-tərbiyə işlərində bunlardan yaradıcılıqla istifadə etmək.

b) Tələbələrdə uşaqlar və yeniyetmələrlə aparılan təlim-tərbiyə işlərini müşahidə və təhlil etmək bacarığı aşılamaq.

v) Psixologiya, pedaqogika, ixtisas metodikaları, uşaq və yeniyetmələrin fiziologiyasına aid biliklərə istinad etməklə və şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla tələbələrə təlim-tərbiyə işi aparmağı öyrənmək.

q) Pedaqoji üsulları yaradıcılıqla tətbiq etmək və tələbələri ixtisas üzrə dərs deməyə hazırlamaq.

d) Tələbələrə sinif rəhbərinin vəzifəsini yerinə yetirmək, şagirdlərlə tərbiyə işlərini təşkil etmək bacarıqlarını aşılamaq.

e) Tələbələri təlim-tərbiyə işlərini yaradıcılıqla həyata keçirmək bacarığına yiyələndirmək.

ə) Tələbələrdə şagirdlərin fiziki və mənəvi sağlamlığına qayğıkeş münasibət yaratmaq.

## II. Pedaqoji təcrübənin növləri və müddəti

2.1.Pedaqoji təcrübə müəyyən sistem üzrə, kursdan-kursa mürəkkəbləşdirmək prinsipi ilə aparılır. bir qayda olaraq tələbələr fənlərin tədrisi metodikası, pedaqogikası kurslarını mənimsədikdən sonra pedaqoji təcrübəyə getməlidirlər.

2.2. Pedaqoji təcrübə ali (orta ixtisas) məktəb rektorunun (direktorunun) əmri əsasında bağlan-malıdır. Bunun üçün əvvəlcədən baza təlim-tərbiyə müəssisələri müəyyənləşdirilməli və onlarla müqavilələr bağlanmalıdır.

2.3. Pedaqoji təcrübələrin (bundan sonra III (IV) kursda keçirilən təcrübə şərti olaraq 1-ci, IV (V) kursda keçirilən təcrübə 2-ci təcrübə adlandırılacağı) növlri və müddəti tədris planları ilə müəyyənləşdirilir.

2.4. Qoşa ixtisaslı fakültələrdə bir yarımqrupun tələbəsi «a» ixtisası ilə məşğul olarsa, digər yarımqrupun tələbələri «b» ixtisas ilə məşğul olur. sonra yerlərini dəyişirlər. Bu zaman təcrübə qruplarında tələbələrin sayı 10-14 nəfər müəyyən olunur. Bəzi ixtisaslarda (musiqi, incəsənət, bədən tərbiyəsi və s.) müstəsnalıq ola bilər.

## III. Pedaqoji təcrübənin təşkili və keçirilməsi

3.1. Ali məktəblər üzrə I pedaqoji təcrübə ümum-təhsil məktəblərinin I-IV (ibtidai sinif müəllimləri üçün) və V-IX siniflərdə, II pedaqoji təcrübə isə I-IV və V-XI siniflərdə, habelə pedaqoji texnikumlarda və digər təlim-tərbiyə müəssisələrində keçirilə bilər.

Orta ixtisas təhsili məktəblərində «İbtidai təhsil», «Ailə-ev təhsil» ixtisasları üzrə I və II pedaqoji təcrübələr I-IV siniflərdə, digər ixtisaslardan («Əmək təlimi», «Təsviri incəsənət və rəsmxət», «Musiqi təhsili» və s.) isə I-IX siniflərdə keçirilir. Ali və orta ixtisas təhsili müəssisələrinin «Məktəbəqədər təhslin pedaqogika və metodikaçı» ixtisas üzrə pedaqoji təcrübə məktəbəqədər tərbiyə müəssisələrində keçirilir.

Qiyabi şöbənin tələbələri ikinci təcrübəni yaşadıqları rayon məktəblərində də keçə bilərlər.

3.2. İxtisasa uyğun laborator məşğələlərdə bütün tapşırıqları yerinə yetirmiş, ixtisas fənlərinin metodikası kursundan müvəffəqiyyətlə imtahan vermiş tələbələr başlanğıc konfransında iştirak edir və təcrübəyə başlayırlar.

3.3.Pedaqoji təcrübənin ilk həftəsində aşağıdakı işlər görülməlidir:

-məktəblə hərtərəfli tanış olmaq.

-təhkim olunduğu kimi sinfin fənn müəllimlərinin təqvim-tematik planlarını köçürmək.

-məktəbin kabinetləri və texniki imkanları ilə tanış olmaq.

-təhkim olunduğu sinfin jurnalı ilə tanış olmaq.

-fənnin proqramı, dərslik, dərs vəsaiti və didaktik materialları ilə tanış olmaq.

-şagirdlərin yoxlama yazı dəftəri ilə tanış olmaq.

-pedaqoji təcrübə müddətində deyiləcək dərslərin cədvəlini köçürmək.

-sinif rəhbərinin iş planını köçürmək və sinfin şagirdləri ilə tanış olmaq. Sinfin şəxsi işləri ilə tanışlıq.

-valideyn komitəsi və şagird təşkilatlarının işi ilə tanış olmaq. Sinfin şəxsi işləri ilə tanışlıq.

-ilk dərslərin icmallarını və bu dərslərə lazım olan əyani və texniki vəsaitləri müəyyənləşdirmək.

-məktəbdəki fənlərə uyğun dərnəklərin və fənn komissiyalarının işləri ilə tanış olmaq.

3.4. Birinci təcrübə zamanı hər tələbə 6/qoşa ixtisaslıdırsa 3-3 və ya 4-2/. İkinci təcrübədə isə 8 (iki ixtisaslıdırsa 4-4 və ya 5-3) nümunə dərsi deməlidir.

Ali məktəblərin «İbtidai təhsilin pedaqogika və metodikası» və orta ixtisas təhsili müəssisələrinin «İbtidai təhsil» ixtisasları üzrə birinci təcrübə müddətində «Ana dili» və «Riyaziyyat» fənlərinin hər birindən –2, «Əmək təlimi» və «Təbiətşünaslıq» fənlərinin hər birindən-1, ikinci təcrübə zamanı isə«Ana dili» və «Riyaziyyat» fənlərinin hər birindən –3, «Musiqi» və «Bədən tərbiyəsi» fənlərinin hər birindən –1 dərs deyilməlidir[1].

Defektologiya ixtisası üzrə I təcrübə əlahiddə məktəblərdə, II təcrübə isə kütləvi məktəblərdə keçirilmişdir. Burada ana dilindən 3-4, riyaziyyatdan 3, əmək təlimindən 1, rəsmdən 1 dərs deyilməlidir.

3.5.Tələbələr sinif rəhbərinin müavini kimi onun bütün funksiyalarını yerinə yetirməlidirlər. Təcrübə işlərini yerinə yetirmək üçün hər sinfə iki tələbədən artıq təhkim olunmamalıdır.

1Ali məktəblərdə «İbtidai təhsilin pedaqogikası və metodikası» ixtisası üzrə eksperiment aparılan qruplarda pedaqoji təcrübənin müddəti 18 həft (III kursda 3 həftə, IV kursda 15 həftə) olduğundan III kursda ana dili və riyaziyyat fənlərinin hər birindən-3, bədən tərbiyəsindən-2, IV kursda isə ana dili və riyaziyyat fənlərinin hər birindən –4, təbiətşünaslıq, əmək təlimi, musiqi, təsviri sənət fənlərinin hərəsindən 2 dərs deyilməlidir.

3.6.Tələbələr təcrübə zamanı məktəb gigiyenası üzrə tapşırıqları, bədən tərbiyəsi ixtisasının tələbələri isə bununla yanaşı fiziki çalışmaları da icra etməlidirlər.

3.7.Təcrübəçi tələbələrə ilk növbədə təhsil aldıqları tədris müəssisəsinin müvafiq fənlərdən dərs aparan müəllimləri rəhbərlik etməlidirlər.

3.8. Tələbələr psixologiyadan üç növ tapşırıqdan birini yerinə yetirirlər:

-Şagirdin xarakteristikasını hazırlamaq;

-Sinif kollektivinin xarakeristikasını tərtib etmək;

-Dərsin psixoloji xarakteristikasını yazmaq.

## IV.Təcrübəçi tələbələrin vəzifələri

4.1.Təcrübəçi tələbə «Qaydalar»da göstərilən bütün işləri yerinə yetirməli, hər dərsə və sinifdənkənar tədbirlərin keçirilməsinə ciddi hazırlaşmalıdır.

4.2. Təcrübəçi məktəbin daxili intizam qaydalarına tabe olmalı, müəssisə və təcrübə rəhbərlərinin tapşırıqlarına əməl etməlidirlər.

4.3. Təcrübə müddətində tələbələrdən biri metodist tərəfindən yarım qrupun nümayəndəsi seçilir və onun tapşırıqlarını yerinə yetirir.

4.4.Məktəbin şəraitindən asılı olaraq tələbələr həm birinci, həm də ikinci növbədə təcrübə keçə bilərlər. İş rejimi isə təhsil müəssisəsinin qrafikinə əsasən müəyyənləşdirilir vç 6 saatdan çox olmamalıdır.

4.5. Sınaq dərslərinin icmalları azı bir gün əvvəldən hazırlanmalı və ixtisas metodistinə təqdim edilməlidir. İxtisas metodisti razılıq verdikdə I təcrübədə azı 2, II təcrübədə azı 1 dərs icmalla, qalanları planla deyilə bilər.

4.6. Hər bir tələbə öz dediyi dərsdən əlavə gündə azı bir dərsin müşahidə və müzakirəsində iştirak etməlidir.

## V.Tələbələrin pedaqoji təcrübələrinin hesabatı, sənədləşdirilməsi və qiymətləndirilməsi

5.1. Tələbə pedaqoji təcrübə müddətində məktəbdə olduğu 6 saat ərzində gördüyü işləri gündəlikdə qeyd etməlidir.

5.2.Pedaqoji təcrübənin sonunda tələbələr aşağıdakı sənədləri təqdim etməlidirlər:

-birinci təcrübənin sonunda –görüdlmüş işlərə dair hesabat, psixoloji xasiyyətnamə (yaxud bir dərsin psixoloji təhlili), iki dərsin nümunəvi icmalı, hər fəndən bir dərsin təhlilinin protokolu və əyani vəsait, bir dərsin planı, keçirilmiş əxlaqi söhbətin mətni;

-ikinci təcrübənin sonunda –görülmüş işlərə dair hesabat, psixologiya və gigiyenaya aid tapşırıq mətni, bir dərsin icmalı və bir dərsin planı (iki ixtisaslarına 2 dərsin icmalı və planı), keçirilmiş tərbiyəvi tədbirin planı;

-ikinci təcrübəni yaşadığı rayonda keçmiş qiyabiçi tələbələr sessiyaya azı iki gün tez getməli və özləri ilə aşağıdakı sənədləri gətirməlidirlər;

-təsdiq edilmiş 4 ədəd geniş dərs icmalı və 4 ədəd dərs planı (bir ixtisaslıdırsa cəmi 6 ədəd), yaxud bir sinifdə dediyi dərslərin bir aylıq dərs planları;

-keçilmiş dərslərə aid 2 ədəd əyani vəsait;

-şagirdin və sinfin psixoloji xarakteristikası;

-əxlaqi söhbətin yazılı mətni və görülmüş işlərə dair yazılı hesabat;

-məktəb rəhbərinin verdiyi «Arayış-xasiyyətnamə».

Hər iki təcrübənin sənədləri fakültə (şöbə) üzrə təcrübə rəhbərinə təhvil verilməlidir.

5.3.Sınaq dərsləri deyilən gün müzakirə olunmalı, verilmiş qiymət isə dərhal jurnala köçürülməlidir.

5.4.Pedaqoji təcrübə qiymətləri bütün rəhbər metodistlərin, fənn müəllimlərinin iştirakı və razılığı ilə verilməlidir. Qiymətləndirmə meyarları ali və orta ixtisas təhsili müəssisəsi tərəfindən müəyyənləşdirilir.

Hər bir tələbənin fəaliyyəti bütün növlərdən görülmüş işlərin nəticələrinə görə və sənədlər əsasında «əla», «yaxşı», «kafi», «qeyri-kafi» qiymətləndiril-məlidir.

5.5.Üzürlü səbəbdən pedaqoji təcrübədə iştirak etməyən tələbələr mövcud qaydaya uyğun olaraq təkrar kursda saxlanılır.

Pedaqoji təcrübədən qeyri-müvəffəq qiymət alan və ya üzürsüz səbəbdən təcrübədə iştirak etməyən tələbələr ali məktəbdən xaric olunur.

## VI.Adi və orta ixtisas təhsilli məktəbləri üzrə pedaqoji təcrübə rəhbərlərinin vəzifələri

6.1.Tələbələrin pedaqoji təcrübəsinə ümumi rəhbərliyi və əlaqələndirmə işlərinin ali və ya orta xtisas təhsili müəssisələri üzrə pedaqoji təcrübə rəhbəri həyata keçirir.

**Təhsil müəssisəsi üzrə pedaqoji təcrübə rəhbəri:**

Ali (orta ixtisas) məktəbdəki pedaqoji təcrübə işlərini təşkil edir. Pedaqoji təcrübənin planlaşdırılması və yekunlaşdırılması işlərinə rəhbərlik edir. Pedaqoji təcrübənin təşkili və keçirilməsi üçün plan-cədvəl hazırlayır.

Təhsil orqanlarının razılığı ilə pedaqoji təcrübənin keçiriləcəyi baza məktəblərini müəyyənləşdirib müqavilələr bağlanmasını təşkil edir.

Pedaqoji təcrübədə iştirak edən işçilərin müqaviləsini təşkil edir və onları təlimatlandırır.

Fakültələrdə (şöbələrdə) pedaqoji təcrübəyə rəhbərlik edən qrup rəhbərlərinin, metodistlərin və məktəb müəllimlərinin təcrübə ilə bağlı işlərinə nəzarət edir, pedaqoji təcrübənin təşkili və gedişindəki nöqsanları üzə çıxarıb, aradan qaldırmaq üçün tədbirlər görür.

Pedaqoji təcrübənin təşkili və gedişinə dair hesabatları toplayıb ümumiləşdirir və təhsil müəssisəsinin rəhbərinə təqdim edir.

Pedaqoji təcrübə ilə əlaqədar əldə edilmiş göstəriciləri ümumiləşdirir, onun səmərəliliyini artırmaq üçün təkliflər verir.

Tələbələrin pedaqoji təcrübəyə ümumi rəhbərlik fakültə üzrə pedaqoji təcrübə rəhbəri tərəfindən həyata keçirilir.

6.2. Fakültədə pedaqoji təcrübəyə ümumi rəhbərlik fakültə üzrə pedaqoji təcrübə rəhbəri tərəfindən həyata keçirilir.

**Fakültə üzrə pedaqoji təcrübə rəhbəri:**

Fakültədə (şöbədə) pedaqoji təcrübənin başlanğıc və yekun konfranslarını təşkil edir, təcrübənin nəticələrinin ümumiləşdirilməsində iştirak edir.

Tələbələrin siniflərə təhkim olunmalarına və işlərinin düzgün təşkilinə nəzarət edir; seçmə yolu ilə onların dərslərinin təhlilində iştirak edir.

Fənn üzrə rəhbər metodistlərin hesabatlarını nəzərdən keçirir, bütün metodistlərin iştirakı ilə tələbələrin pedaqoji təcrübə işlərinin qiymətlən-dirilməsini təşkil edir.

Pedaqoji təcrübədə iştirak edəcək fakültə (şöbə) metodistlərini təlimatlandırır.

Fakültədəki (şöbədəki) pedaqoji təcrübə işlərinin yekununa dair hesabat hazırlayıb təhsil müəssisəsi üzrə rəhbərə təhvil verir.

**6.3.İxtisas üzrə metodist (ixtisas fənninin tədrisi metodikası müəllimi):**

-başlanğıc və yekun konfranslarında, habelə son qiymətləndirmə məşvərətində iştirak edir.

-təcrübəçilərin ixtisasa aid dərsləri demələrini, ixtisas üzrə sinifdənxaric tədbirlər keçirilməsini və onların təhlilini təşkil edir.

Məktəbin fənn müəllimləri ilə birlikdə deyiləcək dərslərin mövzularını tələbələrə paylayır və onların ixtisasa aid sinifdənxaric tədbirlərinin mövzularını müəyyənləşdirir.

Şagirdlərin fəallığını təmin edə biləcək metodlardan istifadə etməklə, tələbələrə müxtəlif tipli dərslər aparmasını təmin edir, tələbələrə bütün işlərində dəyərli məsləhətlər verir, onların icmal və planlarını yoxlayıb təsdiq edir, dərsləri təhlil edib qiymətləndirir və qiymətləri həmin gün jurnala köçürür.

Pedaqoji təcrübəyə rəhbərlik edən metodistlər jurnalda mövzuları və dərs saatlarını, jurnalın əvvəlində təcrübəçi tələbələrin soyadlarını və adlarını, dedikləri dərslərin mövzularını və dərslərdən aldıqları qiymətləri qeyd etməlidirlər.

İxtisas üzrə metodist yarımqrupun işinə xidmət edir. Qoşa ixtisaslı fakültələrdə fəaliyyətdə olan iki yarımqrupun hərəsinə bir ixtisasın metodisti rəhbərlik edir.

Təcrübəçi tələbələrlə iş aparan məktəb müəllimlərinə elmi-metodiki yardım edir.

Məktəbdə pedaqoji təcrübə işləri başa çatan kimi təcrübə prosesində iştirak edən məktəb işçilərinin yerinə yetirdikləri dərs yükü barədə məlumatı təhsil müəssisəsinin müəyyən etdiyi qaydada fakültə (şöbə) pedaqoji təcrübə rəhbərinə təqdim edir.

**6.4. Pedaqogika üzrə metodist (pedaqogika müəllimi):**

-başlanğıc və yekun konfranslarında iştirak edir;

-sinifdənkənar tərbiyə işlərinin keçirilməsini təşkil edir və onların təhlilini aparır. Şagidlərin fərdi keyfiyyətlərini öyrənməkdə tələbələrə kömək edir.

-ixtisas metodisti ilə hər tələbənin azı bir dərsində və onun təhlilində iştirak edir.

-tələbələrin apardıqları tərbiyə işləri barədə fakültə üzrə pedaqoji təcrübə rəhbərinə məlumat verir.

**6.5.Psixologiya üzrə metodist (psixologiya müəllimi):**

-başlanğıc və yekun konfranslarında iştirak edir.

-hər tələbənin bir dərsində və sinifdənkənar tədbirində iştirak edir.

-tələbənin psixologiya üzrə tapşırıqlarına bilavasitə rəhbərlik edir.

-digər metodistlərlə birlikdə tələbələrin pedaqoji təcrübə işlərinin qiymətləndirilməsində iştirak edir.

**6.6.Məktəb gigiyenası üzrə metodist (məktəb gigiyenası üzrə mütəxəssis):**

-başlanğıc konfransında iştirak edir.

-ilk gündən müxtəlif məktəblərdə təcrübə keçən bir neçə qrupun tələbələrinə konkret tapşırıqların icrasına, başa çatmasına nəzarət edir.

-tələbələrin işinin qiymətləndirilməsində iştirak edir.

**6.7.Məktəb direktoru və onun müavini:**

-pedaqoji təcrübənin gedişi üçün məktəbdə lazımi şərait yaradır. Bu məqsədlə məktəbin müəllim və digər işçiləri ilə lazımi işlər aparır.

-tələbələri, məktəblə, burada aparılan təlim-tərbiyə işlərinin xüsusiyyətləri, məktəbin müvafiq sənədləri, məktəbin tədris-təchizat bazası (kabinetləri, emalatxanaları, kitabxanası, idman zalı və s.) pedaqoji şura, metodbirləşmə və fənn komissiyalarının, valideyn komitəsinin işi ilə tanış edir.

-ixtisas metodisti ilə birlikdə tələbələri siniflərə təhkim edir.

-təcrübəçilərin bəzi dərslərində və onların müzakirəsində iştirak edir.

7.2.Pedaqoji təcrübəyə rəhbərlik edən metodistin təcrübə müddətində eyni növbədə auditoriya məşğələsi olmamalıdır.

7.3.Ali və orta ixtisas təhsili məktəblərində bir tələbənin pedaqoji təcrübə işinə rəhbərlik üçün dərs yükü aşağıdakı kimi verilir (1 nəfərə-saat hesabı ilə):

| Metodistlər | I təcrübə (əyani və axşam) | II təcrübə (əyani və axşam) | I və II (qiyabi) |
|---|---|---|---|
| Pedaqoq | 3 | 3 | 1 |
| Psixoloq | 2 | - | 1 |
| Gigiyena | 1 | - | - |

QEYD: Bir ixtisaslı fakültələrdə ixtisas metodikası 14 (qiyabidə 10 saat) yük hesablanır.

7.4.Bir tələbənin pedaqoji təcrübə işinə rəhbərlik əyani, axşam və qiyabi şöbələrdə məktəb rəhbərlərinə və müəllimlərə verələcək saathesabı yük aşağıdakı kimi hesablanır[1].

| Vəzifələr | I təcrübə (əyani və axşam) | II təcrübə (əyani və axşam) | I və II (qiyabi) |
|---|---|---|---|
| Məktəbin direktoru | 1 | 1 | 1 |
| Direktor müavini | 1 | 1 | 1 |
| Fənn müəlliminə | 8 | 8 | 4 |
| Sinif rəhbərinə | 1 | 1 | - |
| CƏMİ: | 11 saat | 11 saat | 6 saat |

[1]Tələbələrin pedaqoji təcrübə keçdikləri məktəblərinin (direktor, direktor myavini) və müəllimlərin (fənn müəllimi və sinif rəhbəri) əmək haqqı müvafiq ali və orta ixtisas təhsil müəssisəsi tərəfindən ödənilir.

## Məktəbəqədər tədris müəssisələrində pedaqoji təcrübə

**1.İşin məzmunu.** Körpələr evində təcrübənin vəzifəsi, məzmunu və təşkili. Körpələr evində təcrübə VI semestrdə 2 həftə ərzində aparılır. pedaqoji təcrübənin bu növündə tələbələr nəzəri kursdan öyrəndikləri körpəlik pedaqogikasının əsas müddəalarını və tərbiyə proqramının necə yerinə yetirildiyini əyani olaraq görürlər. Onlar uşaqlarla aparılan tərbiyə-səhiyyə vərdişlərinə yiyələnir, müdirin və körpələr evindəki pedaqoqun pedaqoji, metodiki və təşkilati işləri ilə tanış olurlar.
Təcrübə şəhərdəki baza müəssisələrində aparılır. Hər bir baza müəssisəsində 6-10 nəfər təcrübəçi-tələbə institut müəlliminin, müdir və tərbiyəçinin rəhbərliyi altında işləyirlər (tələbələrin sayı nümunəvi müəssisələrin miqdarından və paralel qrupların sayından asılıdır). Tələbələr hər gün 6 saat işləyirlər. Müşahidə edilən mövzudan asılı olaraq, işin növü günün birinci və ikinci yarısı üçün və ya bütün gün üçün planlaşdırılır, tapşırıq yerinəyetiriləndə növbə dəyişir. Hər yaş qrupunda tələbələr 5-6 gün işləyirlər. Uşaqlarla iş tərbiyəçi və dayə ilə birlikdə aparılır. Tələbə oyun-məşğululur üçün icmal tərtib edir, uşaqlarla müstəqil oyunların təşkilini planlaşdırır, uşaqların əsəb və psixikasının inkişaf etməsinə nəzarət edir, 2 uşaq üçün xarakteristika yazırlar.

---

[1]«Tələbələrin pedaqoji», ADPİ-nin nəşri, rus dilindən tərcümə edəni: dosent Nazimə Rüstəmova.

Təcrübə tədris xarakteri daşıyır, ona görə də hər gün, rəhbərləri ilə birlikdə bütün qrup 2-3 saat qrup tərbiyəçisinin işini müşahidə edir, bundan sonra tərbiyəçinin işi və uşaqların davranışı müəllimlə birlikdə təhlil edilir.

Bundan əlavə hər gün tələbələr 2-3 uşaqla işləyirlər. 3-cü kursda təcrübəyə gələn tələbələr uşaq bağçasında tərbiyə proqramını və körpə yaşlı uşaqların tərbiyə proqramını dərindən təhlil edir və öyrənirlər. Təcrübənin birinci günü tələbələr müdir və söhbət edir, qrupları gəzir, təlim-tərbiyə işinin ayrı-ayrı cəhətləri ilə kabinetlərdə metodiki ədəbiyyatla və əyani vəsaitlə tanış olduqdan sonra aşağıdakı plan üzrə işə başlayırlar.

**Bir yaşlılar qrupunun həyatı:**

**1-ci gün.** Tərbiyəçinin iş planının təhlili. Dayənin və tərbiyəçisinin işinin müşahidəsi (rejimin təşkilinə xüsusi diqqət yetirməli, vəsaitlərin yaş xüsusiyyətlərinə görə verilməsi, oyuncaqların və vəsaitlərin düzgün seçilməsi);

**2-ci gün.** Rejimin xronometrajla (vaxt üzrə) yerinə yetirilməsi. Bu gün tələbələr 2 növbə işləyirlər. Qeydiyyatı 2 nəfər aparır. Onlar hər 2 saatdan bir dəyişirlər. Başqa tələbələr rejimin təşkili ilə paralel qruplarda və yaxud (müşahidə üçün ayrılmış belə qruplar olmadıqda) onlar ümumi nitqə, hərəkətə hazırlıq mərhələsini öyrənmək üçün uşaqların inkişaf tarixi ilə tanış olurlar.

**3-cü gün.** Fərdi məşğələlər və uşaqların müstəqil fəaliyyətini təşkil, təhlil edir və onlarla müşahidə aparır. Rejim prosesi həmin qrupda və paralel qrupda müstəqil keçirilir. Paralel qrup olmayanda tələbələr rejim prosesində məşğələ keçmir, səhərisi günə nəzərdə tutulacaq məşğələyə hazırlaşırlar.

**4-cü gün.** Tələbələr müstəqil olaraq uşaqlarla işləyirlər. Uşaqların qavrayışını, nitqini, hərəkətini inkişaf etdirən mərhələlərdən, fərdi məşğələlərdən istifadə edirlər (Pedaqoqun planı üzrə). Fərdi rejim prosesini, müstəqil işi, keçirilən günü, xronometrajın nəticəsini təhlil edirlər.

**5-ci gün.** Gimnastikanın və möhkəmlən-dirmənin müşahidəsi. Müşahidə üçün ayrılmış uşaqlarla ünsiyyət yaratmaq, uşaqların xarakteristikasını tərtib etmək, uşaqların psixi-əsəb sistemlərinin inkişafına dair faktlar toplamaq, qrupda işləmək üçün təklif olunan kimi plan tərtib etmək.

Aylıq tərbiyə planının tərtibi üçün (hər yarım qrupda olan təcpübəçi planın bir hissəsini tərtib edir və sonra ona bütöv planla uzlaşdırır) həkim-pedaqoqların məsləhətlərində iştirak etmək.

**1 yaşdan 2 yaşa olan uşaqlar qrupunda**

**1-ci gün.** Tərbiyəçinin iş planı və qrupdakı uşaqlarla tanışlıq. Bacı-tərbiyəçinin və dayənin işinin müşahidəsi (Rejimin təşkilinə xüsusi diqqət yetirməli);

Pedaqoji prosesin təchizinin təşkili. avadanlığın yerləşdirilməsi, onların uşaqların boylarına müvafiqliyi, vəsaitlərin və oyuncaqların seçilməsi.

**2-ci gün.** Rejim prosesinin, qəbulun fəal keçirilməsi. Tələbə rejim prosesinin keçirilməsi ilə məşğul deyilsə səhərisi gün keçiriləcək məşğələyə hazırlaşır, xronometrajın nəticəsini təhlil edir.

3-cü gün. Kiçik və böyük qruplarda məşğələlərin müşahidəsi və təhlili; (təhlildə uşaqların məşğələyə hazırlığını və təlim metodunun seçilməsinə xüsusi diqqət yetirilir).

**4-cü gün.** Tələbələr müstəqil olaraq uşaqlarla iş aparır (yarımqruplarla məşğələ aparılır). Pedaqoqun planı üzrə təhkim olunduqları uşaqların müşahidəsi, onlarla ünsiyyət yaratmaq və məşğul olmaq, onların nitqinin, hərəkətinin və fəaliyyətinin müşahidəsi. Xronometrajın nəticəsinin müzakirəsi, uşaq həyatının ikinci yaq qrupunda işin xüsusiyyəti, fərdi rejim prosesinin yerinə yetirilməsi. Müşahidə olunan uşaqlarda vərdiş və davranışın inkişaf səviyyəsinin proqramda tələb olunan qaydada müzakirəsi. Uşaqlarla aparılan müstəqil iş prosesində qarşıya çıxan çətinliklərin təhlili.

5-ci gün. Gimnastika məşğələlərinin müşahidəsi və təhlili.

Müxtəlif yarımqruplarda müstəqil hərəkətli oyunlar və əyləncələrin keçirilməsi. Uşaqlarda müsbət qarşılıqlı münasibətlərin təşkil edilməsi, fərdi məşğələlərdə uşaqlarla ünsiyyəti möhkəmləndirmək, onların inkişafına dair xarakteristika tərtib etmək. Təkliflər əsasında qrupda görüləcək iş planını tərtib etmək.

Uşaqlara xarateristika tərtib etmək üçün aparılan müşahidəyə əsasən valideynlərlə fərdi söhbət keçirməli.

İki həftəlik oyun və məşğələ planının tərtibi və müzakirəsi. Stendlər düzəltmək.

**3 yaşlılar qrupunda**

**1-ci gün.** Proqram tələbinin yerinə yetirilməsibaxımından tərbiyəçinin iş planının təhlili. Bacı-tərbiyəçinin, dayənin işinin müşahidəsi. Pedaqoji prosesin (avadanlığın yaşa uyğun yerləşdirilməsi, oyuncaqların və vəsaitlərin seçilməsi) işıqlandırılması və təhlili.

**2-ci gün**. Gimnastika priyomlarının və möhkəmləndirilmənin müşahidəsi ıə təhlili. Dayənin, tibb bacısının gün ərzində gördüyü işin təhlili. Rejim prosesini (qida, gəzinti) müstəqil keçirmək, həmin qrupda və paralel qruplarda müstəqillik vərdişinin tərbiyə edilməsi. Gəzintidə aparılan müşahidə və onun sonradan təhlili.

**3-cü gün.** Qəbulu fəal keçirmək, uşaqların fəaliyyətində müstəqilliyi təşkil etmək. Qruplar üzrə məşğələ növlərinin müşahidəsi və təhlili.

(Məşğələdə əyani təsir prinsipinə xüsusi diqqət yetirməli). Uşaqlarda nitqin, hərəkətin inkişaf səviyyəsini təmin etmək məqsədilə quraşdırma fəaliyyətində, oyunlarda və rejim prosesində onlarla ünsiyyət yaratmaq. Uşaqları müstəqil məşğələlər keçməyə hazırlamaq.

**4-cü gün.** Bacı-tərbiyəçinin keçdiyi məşğələni müşahidə və təhlil etmək, müstəqil olaraq gəzintiyə getmək, gəzintidə müşahidəni və hərəkətli oyunu təşkil etmək. Qrupa rəhbərlik işini, sənədləri öyrənmək haqqında müdir və pedaqoqla söhbətlər keçirmək.

**5-ci gün.** Müxtəlif yaş qruplarında təcrübəçinin açıq məşğələsini qoymaq və orada bütün tələbələrin iştirakını təmin etmək.

İki həftəlik məşğələ planı tərtib etmək (uşaqların inkişafını nəzərə alaraq).

Qeyd: Hər hansı bir zəruriyyəğ ucundan işin təşkili ardıcıllığında bəzi dəyişiklik etmək olar.

Körpələr evində təcrübə sənədləşdirmə və yekun konfransı ilə tamamlanır.

**Tələbələr aşağıdakı sənədləri verməlidirlər:**

1.İki uşağa (1 yaşlı, 2 yaşlı, yaxud 3 yaşlı –seçmə yolu ilə) tibbi, pedaqoji məsələləri nəzərə almaqla xasiyyətnamə.

2.Bu məşğələnin (açıq) icmalı.

3.Hesabat. Məşğələnin keçirilməsinə dair, yaxud uşaqlarla aparılan işə dair.

## Pedaqoji təcrübənin vəzifələri, məzsunu və təşkili

1.Tələbələrə təlim-tərbiyəyə aid institutda aldıqları nəzəri biliyi uşaq bağçasında tətbiq etməyi öyrətmək.

2.Tərbiyə işini, uşaq həyatının təşkilində bütün fəaliyyət növünə rəhbərliyi (oyun, əmək, məşğələ, məişət) müşahidə və təhlil etməyi öyrətmək.

3.Uşaq bağçasının tərbiyə proqramının tələbləri əsasında tərbiyə işini planlaşdırmağı, uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla onların hazırlığını, ətraf mühitin xüsusiyyətlərini, fəsillərdə təbiətin dəyişməsini müşahidə etməyi öyrətmək. Tələbələrin uşaqlarla müstəqil tərbiyə işi aparmağa öyrətmək.

4.Uşaq texnologiyasınjan, məktəbəqədər pedaqogika- sından, uşaq fiziologiyasından, metodikalardan əxz edilmiş metodlardan istifadə edərək uşaqların hərtərəfli inkişafını yaradıcılıqla yerinə yetirmək.

5.Məktəbəhazırlıq qruplarında tərbiyə işləri prosesində, uşaqları məktəb təliminə hazırlayan, onların əqli qabiliyyətlərinin inkişafını fəallaşdırmağın məzmunu və metodlarına xüsusi diqqət yetirmək.

6.Tələbələrdə uşaqlara qaygı ilə yanaşmaq, onların sağlamlığına qayğılı münasibət bəsləməyi formalaşdırmaq. Praktika müddətində tələbələri uşaq bağçası müdirinin, metodistin (baş tərbiyəçinin) işi ilə tanış etmək.

7.Uşaq bağçası kollektivində tələbələrin ictimai və metodiki (ictimai-siyasi məlumatların verilməsində) işlərdə iştirakı.

8.Müxtəlif metod və formalardan istifadə edərək müntəzəm olaraq valideynlərlə iş aparmaq (valideyn iclasları, kollektiv və fərdi məsləhətlər, uşaqların evlərinə getmək).

9.Tələbələrdə pedaqoji sənəti uşaqlara məhəbbət tərbiyə etmək, pedaqoji bilikləri drinləşdirmək və pedaqoji qabiliyyətləri təkmilləşdirmək, uşaq bağçasına hamiliyi təşkil etmək.

10.Kurs işləri ilə əlaqədar olaraq müəyyən vərdişlərin formalaşması naminə pedaqoji təcrübə aparmaq.

III kursda tələbələrin uşaq müəssisələrində pedaqoji praktikası iki mərhələdə aparılır. 1-ci hazırlıq mərhələsi semestrin əvvəlindən başlayıb təlim məşğələlərindən ayrılmaqla VI semestrdə aparılan pedaqoji təcrübənin 2-ci həftəsinə kimi davam edir.

Bununla da laborator təcrübənin vəzifələrini yerinə yetirir. Uşaq bağçasını əhatə edən pedaqoji kollektivlə, texniki işçilərlə tanış olur, uşaq bağçasında yaş qruplarına görə yerləşdirirlər. Təhkim olduqları uşaqlarla onların valideynləri ilə ailədə uşaqların tərbiyə şəraiti ilə (5-6 uşaq) tanış olurlar. Yaş qruplarında tərbiyəçinin işini müşahidə edir, uşaq kollektivini, onun inkişaf səviyyəsini, ətrbiyəsini, fərdi xüsusiyyətlərini öyrənirlər. Tərbiyəçilərlə birlikdə qruplarda təlim-tərbiyə işini müşahidə edir, təhlil və müzakirə aparırlar. «Uşaq bağçasının tərbiyə proqramının» tələblərinə uyğun qısa təhlil verir və nəticə çıxarırlar. Kurs işləri mövzuları üzrə eksperimental-sınaq işləri apardıqlarına görə fəallıqla pedaqoji işə müdaxilə edir, tələbə elmi dərnəklərində məruzə etmək üçün material toplayır, məktəbəqədər pedaqogikanın, uşaq psixologiyasının, metodikaların tələblərini yerinə yetirirlər.

Psixoloji-pedaqoji xarakteristikası yazman üçün uşaqların üzərində müşahidə aparırlar.

Qrupda tərbiyəçinin iş planı ilə, onun hesaba alınması ilə tanış olurlar.

Uşaq bağçası müdirinə və metodistin (baş tərbiyəçinin) işi ilə tanış olurlar.

III kursda təlim məşğələsindən ayrılmaqla təşkil edilən pedaqoji təcrübənin birinci həftəsində uşaq bağçasına getməyi davam etdirməklə təcrübəçi, tərbiyəçi kimi işləyəcəyi sənədləri hazırlayır:

-Qrup tərbiyəçisinin aylıq və təqvim planını;

-Məşğələnin icmalını.

Hftənin sonunda plan və icmalları qrup tərbiyəçisi, uşaq bağçasının metodisti, institut metodisti təcrübədə olan qrupun rəhbəri təsdiq etdikdən sonra tələbəyə müstəqil işləməyə icazə verilir.

-«Valideyn guşəsi» yaxud divar qəzeti üçün material hazırlayırlar. Məşğələ və oyun üçün əyani vəsaitlər hazırlayırlar.

Təcrübəçi-tərbiyəçi və tərbiyəçi metodist kimi müstəqil iş aparır.

Hər müəssisədə 4-8 tələbə 2 qrupa bölünərək iş aparır.

2 həftə tələbələr tərbiyəçi kimi həm birinci, həm də ikinci növbədə işləməklə bir-birini əhatə edirlər. Qalan 3 həftəni tərbiyəçi metodist kimi müdirin, tərbiyəçinin və institut metodistinin rəhbərliyi altında işləirlər.

**II mərhələdə tələbələr aşağıdakı işləri görürlər:**

1.Qrupun tərbiyə-təlim işinin planını tərtib edirlər.

2.Uşaqlar üçün ümumi tədbirlər təşkil edirlər (ekskursiyalar, axşam və səhər, boş vaxtlarda böyük və kiçik yaşlı uşaqlarla ümumi iş və s.)

3.Metodkabinetin işinin məzmunu ilə tanış olurlar.

4.Kabinetin təchizinin pedaqoji prosesin tələblərinə necə cavab verdiyini, uşaqlarla iş zamanı onlardan necə istifadə olunduğunu müəyyən edirlər. Kabinetin təchizatı üçün təkliflər hazırlayırlar və bu təkliflərin həyata keçirilməsində fəal iştirak edirlər. Təcrübəçi tələbələr ixtisasını artırmaq üçün açıq məşğələlərdə və onun müzakirəsində, məsləhətlərdə, söhbətlərdə, pedaqoji müşavirələrdə, metodik ədəbiyyatın müzakirəsində fəal iştirak edirlər.

5.Uşaq müəssisəsinin sənədləri ilə, illik və aylıq planla, pedaqoji müşavirənin protokolları ilə, yoxlama aktları, smeta, əmr və sərəncamlar kitabı ilə, uşaqların siyahısı və şəxsi işləri ilə, tibb işçilərinin sənədləri ilə tanış olurlar.

6.Uşaq bağçasının planına əsasən təcrübəçi qrupun valideyn iclasını çağırır. Qrupda tərbiyə işlərində qarşıda duran növbəti vəzifələr, tərbiyə işində tələbələrin vahidliyinin gözlənilməsi. Bağça ilə ailənin əlbir işi, valideynlərin pedaqoji maarifinə aid məsələlər kimi müasir uşaq bağçası üçün aktual olan məsələlər haqqında çıxış edir.

7.Həmçinin müstəqil təcrübə dövründə material toplayır və laboratoriya işinin yazılmasınida istifadə edir.

8.Uşaq bağçasında pedaqoji şuranın işini öyrənir, (laboratoriya işinə aid eksperiment təcrübə işi, qrupun tərbiyə işini, tərbiyəçi kollektivinin tərbiyə işini təkmilləşdirmək bacarığına aid) öz işinin nəticələri haqqında çıxış edir.

9.Divar qəzetinin buraxılması və valideyn guşəsində (yazılı məsləhət, kitab sərgisi, uşaqların əl işlərindən sərgi və s.) iş aparır.

10.Müəssisə müdirinin pedaqoji, inzibati-təsərrüfat işinə rəhbərlik işini müşahidə və təhlil edir.

11.Təcrübənin sonrakı ayı üçün tərbiyəçi-metodistin işlərinin qısa məzmununa aid plan tərtib edir və tərbiyəçi metodistin, müdirin təsdiqinə verir.

Təcrübə dövründə təcrübəçi-tələbə uşaqların sağlamlığı üçün məsuliyyət daşıyır.

Təcrübə zamanı tələbələr aşağıdakı sənədləri hazırlayırlar (institut müəlliminin və uşaq bağçası işçilərinin razılığı ilə).

1.Uşaqları əyləndirmək üçün bir vəsait: stolüstü teatr, kölgə teatrı, baş barmaqla olan teatr (bütün təcrübəçi tələbələr) qrup üçün bir vəsait hazırlayırlar.

2.Uşaq bağçasında hər hansı bir iş bölməsinə aid vəsait hazırlayırlar (təcrübə rəhbərinin göstərişi ilə).

3.Bir mövzunun hərəkətinə aid qovluq hazırlanır: mməsələn, məktəbəhazırlıq qrupunda – uşaqların məktəbə hazırlanması haqqında, böyük qrupda ətraf mühit və nitq inkişafı, orta qrupda mədəni-gigiyenik vərdişlərin tərbiyəsi və s.

4.Fəaliyyət guşəsində uşaqlar üçün zəruri materialların toplanmasında köməklik edir.

5.«Proqram»ın tələbinə uyğun olaraq valideynlərlə birlikdə otaq bilgilərini seçirlər.

Təcrübə hesabat sənədlərinin tərtibi və yekunkonfransı ilə bitir.

Tələbələr praktika rəhbərinə aşağıdakı sənədləri verirlər.

Açıq məşğələlərin protokolları ilə birikdə icmallarını:

-Uşaq bağçası müdirinin iş planının təhlili:

Bir uşağın pedaqoji –psixoloji xarakteristikası:

Təcrübə haqqında hesabat.

Təcrübənin sonunda uşaq müəssisəsində pedaqoji-şura çağırılır, uşaqların işlərinin və tələbələrin sənədlərinin sərgisi təşkil edilir, sonradan fakültəjə yekun konfransı keçirilir. Burada tərbiyəçilər, tərbiyəçi, metodistlər, uşaq müəssisəsinin müdiri iştirak edir. praktikaya bütün iş növlərinin yerinə yetirilməsi və sənədlərin təqdimi nəzərə alınaraq qiymət verilir.

**Təcrübə üzrə tələbənin yekun balının hesablanması meyarları və metodikası**

-Tədris planında nəzərdə tutulan təcrübələrin nəticələrinə görə tələbənin topladığı balların yarısı təcrübəyə davamiyyətinə görə, digər yarışı isə sınaq dərslərinin nəticələrinə, pedaqogika, psixologiya və məktəb gigiyenası üzrə tapşırıqların yerinə yetirilməsinə göpə verilir.

-Təcrübəyə davamiyyətə görə tələbənin topladığı yekun bal tələbənin təcrübədə ihtirak etdiyi saatların miqdarının davamiyyətə ayrılan maksimum (50 bal) bala vurularaq və təcrübəyə ayrılmış saatların miqdarına bölünməklə hesablanır.

*Məsələn, «İbtidai təhsilin pedaqogikası və metodikası» ixtisası üzrə IV kurs tələbəsi 15 həftə (1 gündə 6 saat, həftədə 30 saat olmaqla, cəmi 450 saat) pedaqoji təcrübədə iştirak etməlidir. O, üzrsüz səbəbdən 3 gün (18 saat) pedaqoji təcrübəyə gəlməyib. Tələbənin pedaqoji təcrübədə iştirak etdiyi saatların miqdarı (450-18=432) davamiyyətə ayrılan maksimum (50 bal( bala vurularaq və təcrübəyə ayrılmış saatların miqdarına bölünməklə hesablanır.*

$$\frac{432 \cdot 50}{450} = 48$$

Deməli davamiyyətə görə tələbə 48 bal toplayır.

-Davamiyyətə görə tələbənin topladığı minimum bal – 25 baldan az olmamışdır.

--Tələbənin pedaqoji təcrübədə dediyi hər sınaq dərsi üçün 10 bal sistemi ilə bir qiymət yazılır.

--Tələbə müəyyən olunmuş dərsdən birini və ya bir neçəsini keçə bilməyibsə, səbəbi nəzərə alınmaqla ona əlavə dərs verilə bilər. Əgər tələbə verilmiş əlavə dərs saatlarından da səmərəli istifadə edə bilməyibsə, həmin dərslər üçün «0» (sıfır) nəzərdə tutulur.

--Tələbənin pedaqoji təcrübədə bütün sınaq dərslərindən aldığı qiymətlər toplanır «Qaydalar»da nəzərdə tutulmuş sınaq dərslərinin sayına bölünməklə orta bal çıxarılır. Bu, tələbənin bütün sınaq dərsləri üçün aldığı ümumi orta bal hesab olunur.

*Məsələn, təcrübə müddətində tələbə nəzərdə tutulmuş bütün 16 sınaq dərsini demiş və aşağıdakı ballar toplamışdır.*

| FƏNN | Sınaq dərsində toplanan ballar | | | |
|---|---|---|---|---|
| | I | II | III | IV |
| Ana dili | 8 | 9 | 8 | 8 |
| Riyaziyyat | 7 | 8 | 6 | 7 |
| Təbiətşünaslıq | 9 | 9 | | |
| Əmək təlimi | 10 | 10 | - | - |
| Musiqi | 9 | 9 | - | - |
| Təsviri sənət | 9 | 10 | - | - |

Bütün ballar toplanıb (153 bal) deyilmiş dərslərin (plan üzrə nəzərdə tutulmuş) sayına bölünür (153:16) və orta bal (9) tapılır.

-Tələbə birinci təcrübə zamanı ən azı 4 sınaq dərsi, ikinci təcrübə zamanı isə azı 8 sınaq dərsi aparmalıdır. Əks təqdirdə tələbəyə müvəffəq orta bal çıxarıla bilməz. Üzrlü səbəbdən sınaq dərsləri aparmayan pedaqoji təcrübədə iştirak etməyən tələbələr təkrar kursda saxlanılır. Pelaqoji təcrübədən qeyri-müvəffəq qiymət alan və ya üzrsüz səbəbdən təcrübədə iştirak etməyən tələbələr ali məktəbdən xaric olunur.

-Sınaq dərsləri üçün ümumi orta bal 4 baldan aşağı ola bilməz.

Əks təqdirdə tələbəyə müvəffəq orta bal çıxarıla bilməz.

-Pedaqogika, psixologiya və məktəb gigiyenasının hər birindən 10 bal sistemi ilə ayrvca bal yazılır.

-Tələbə pedaqogika psixologiya, məktəb gigiyenası fənlərinin hər hansı birindən 4 baldan az toplayarsa, sınaq dərslərinin hamısından 10 bal toplasa belə, ona müvəffəq yekun bal çıxarıla bilməz.

-Pedaqogika, psixologiya və məktəb gigiyenasının hər hansı birindən 4 baldan az toplayan tələbə fakültə Elmi Şurasının qərarı və ya dekanlığın göndərişi ilə auditoriya məşğələlərindən ayrılmamaqla məktəbdə həmin fənn üzrə təkrarən pedaqoji təcrübə keçir. Həmin fəndən yalnız müvəffəq bal aldıqdan sonra bu, başqa fənlərdən əvvəl aldıqları ballarla toplanıb ümumi bal çıxarılır və tələbəyə müvəffəq yekun bal yazılır.

-Sınaq dərslərindən alınmış orta balla pedaqogika, psixologiya və məktəb gigiyenasından alınmış ballar toplanaraq orta bal çıxarılır və bu fənlər üçün ayrılan maksimum 50 bala vurularaq 10-a bölünür.

Məsələn, tələbə sınaq dərslərindən 9 bal, pedaqogikadan 8 bal, psixologiyadan 10 bal, məktəb gigiyenasından 9 bal toplamışdır. Alınmış ballar toplanıb, orta bal çıxarılır.

$$\frac{9+8+10+9}{4} = 9$$

Bu bal sınaq dərsləri, pelaqogika, psixologiya və məktəb gigiyenası üçün ayrılmış 50 bala vurularaq 10-a bölünür.

$$\frac{9 \cdot 50}{10} = 45$$

Davamiyyətə görə 48 bal toplamış tələbənin yekun balı – 48+45=93 bal olur və bu bala görə ona qiymət kitabçasında «93-əla» yazılır (Qiymət kitabçasında tələbənin topladığı bal da göstərilir).

-Pedaqoji təcrübənin sonunda tələbələr aşağdakı sənədləri təqdim etməlidirlər:

-Birinci təcrübənin (III kurs) sonunda – görülmüş işlərə dair hesabat, psixoloji xasiyyətnamə (yaxud bir dərsin psixoloji təhlili), iki dərsin nümunəvi icmalı, hər fəndən dərsin təhlilinin protokolu və əyani vəsait, bir dərsin planı və keçirilmiş əxlaqi söhbətin mətni;

-ikinci təcrübənin (IV kurs) sonunda – görülmüş işlərə dair hesabat, psixologiya və gigiyenaya aid tapşırıq mətni, bir dərsin icmalı və bir dərsin planı (iki ixtisalıdırsa 2 dərsin icsalı və planı), keçirilmiş tərbiyəvi tədbirin planı.

-Göstərilən bütün sənədlər təhvil alınmadan təcrübəçiyə müvəffəq yekun qiyməti yazılmır.

-Pedaqoji təcrübə qiyməti komissiya tərəfindən müəyyən edilir. Komissiyaya bütün rəhbər metodistlər və fənn müəllimləri daxil edilir.

Yekun qiyməti pedaqoji təcrübənin axırıncı günü həm jurnalı, həm də imtahan vərəqəsinə yazılır.

**Təcrübə dövründə tələbələrin sınaq dərslərinin qiymət meyarı**

**10 bal.** Əgər dərs və ya sinifdən xaric məşğələ yüksək ideya-siyasi, elmi və təşkilati-metodik səviyyədə keçirilmişdirmə, əgər dərsin təhsil və tərbiyəvi vəzifələri əsaslı surətdə irəli sürülmüş və keyfiyyətli həll edilmişdirsə, təlimin rəngarəng metodları səmərəli tətbiq edilirsə və şagirdlərin fəallaşdırılması üsulu onların yaş dərəcələri və fərdi xüsusiyyətləri nəzərə alınmaqla aparılmışsa, yaxşı intizam yaradılmışdırsa, əgər tələbə təlim və didaktik materialın seçilməsində, dərsin quruluşunda, aparılmasında və təhlilində dərin psixoloji-pedaqoji nəzəri bilik və müstəqil yaradıcılıq göstərmişsə 10 balla qiymətləndirilir.

**9 bal.** Əgər dərs və ya sinifdən xaric məşğələ yüksək ideya-siyasi, elmi və təşkilati-metodik səviyyədə keçirilmişdirsə, əgər dərsin təhsil və tərbiyəvi vəzifələri müvəffəqiyyətlə həll edilmişdirsə, təlim metodları səmərəli tətbiq edilirsə və şagirdlərin fəallaşdırılması üsulu onların yaş dərəcələri və fərdi xüsusiyyətləri təlim və didaktik materialın seçilməsində, dərsin quruluşunda, aparılmasında və təhlilində yaxşı psixoloji-pedaqoji nəzəri bilik və yaradıcılıq göstərmişsə, 9 balla qiymətləndirilir.

**8 bal.** Əgər dərs və ya sinifdənxaric məşğələ yüksək ideya-siyasi elmi səviyyədə aparılmışsa, əgər təhsil və tərbiyə vəziələri müvəffəqiyyətlə həll edilmiş, lakin şagirdlərin fəallaşdırılmasında bəzi metodik priyomlardan kifayət qədər səmərəli istifadə edilməmişsə, əgər tələbə psixoloji-pedaqoji nəzəri bilik nümayiş etdirmişsə, dərs və didaktik material seçməkdə müstəqildirsə, lakin dərsin təşkilində və aparılmasında nəzərə çarpmayan dərəcədə səhvlər buraxılmışsa, 8 balla qiymətləndirilir.

**7 bal.** Əgər dərs və ya sinifdənxaric məşğələ yüksək ideya-siyasi və elmi səviyyədə aparılmışsa, əgər təhsil və tərbiyə vəzifələri müvəffəqiyyətlə həll edilmiş, lakin şagirdlərin fəallaşdırılmasında bəzi metodik priyomlardan kifayət qədər səmərəli istifadə edilməmişsə, əgər tələbə psixoloji-pedaqoji nəzəri bilik nümayiş etdirmişsə, dərs və didaktik material seçməkdə müstəqildirsə, lakin dərsin təşkilində və aparılmasında bəzi səhvlərə yol verirsə, 7 balla qiymətləndirilir.

**6 bal**. Əgər tələbə tədris-tərbiyə vəzifələrinin şərhində cüzi səhv buraxılmışdırsa, psixoloji-pedaqoji, nəzəri təlim priyomunu kifayət qədər səmərəli təşkil etmişsə, şagirdlərin idrak fəaliyyətini, kifayət qədər fəallaşdırmışsa, onlarla müntəzəm əlaqə yarada bilmişsə və dərsin təhlili zamanı buraxdığı nöqsaqlarını görmüşsə, 6 balla qiymətləndirilir.

**5 bal**. Əgər tələbə tədris-tərbiyə vəzifələrinin şərhində cüzi səhv buraxılmışdırsa, psixoloji-pedaqoji, nəzəri təlim priyomunu kifayət qədər səmərəli təşkil etmişsə, şagirdlərin idrak fəaliyyətini zəif fəallaşdırmışsa, onlarla müntəzəm əlaqə yarada bilmişsə və dərsin təhlili zamanı öz nöqsaqlarını görməmüşsə, 5 balla qiymətləndirilir.

**4 bal.** Əgər tələbə məşğələlərdə təhsil-tərbiyə vəzifələrini zəif yerinə yetiribsə, təlim materiallarının şərhi zamanı səhvlər buraxılıbsa, şagirdlərin intizamı yaxşı təmin edilməyibsə, əgər tələbə psixoloji-pedaqoji, nəzəri biliyində zəiflik göstərir, lakin öz işinə tənqidi yanaşmağı bacarırsa, 4 balla qiymətləndirilir.

**3 bal.** Əgər tələbə məşğələlərdə təhsil-tərbiyə vəzifələrini yerinə yetirməyibsə, təlim materiallarının şərhi zamanı səhvlər buraxılmışsa, şagirdlərin intizamı təmin edilməyibsə, əgər tələbə psixoloji-pedaqoji, nəzəri biliyində zəiflik göstərir, lakin dərsin təhlili zamanı buraxdığı nöqsanları görür və öz işinə tənqidi yanaşırsa, 3 balla qiymətləndirilir.

**1-2 bal.** Əgər tələbə məşğələlərdə təhsil-tərbiyə vəzifələrini yerinə yetirməyibsə, təlim materiallarının şərhi zamanı səhvlər buraxılmışsa, şagirdlərin intizamı təmin edilməyibsə, əgər tələbə psixoloji-pedaqoji, nəzəri biliyində zəiflik göstərir və öz işinə tənqidi yanaşmırsa (və ya bəzi səhvlərini görür, işinə tənqidi yanaşmağa çalışır).

**0 bal.** – tələbə üzrsüz səbəbdən sınaq dərsini keçməmişsə və ya ona verilmiş əlavə dərs saatından da səmərəli istifadə edə bilməmişsə, **0** balla qiymətləndirilir.

## TƏLƏBƏLƏRİN PEDAQOJİ TƏCRÜBƏSİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

I.Ümumi vəzifələr

-tələbələrdə pedaqoji işə, pedaqoji sənətə məhəbbəti möhkəmləndirmək və inkişaf etdirmək;

-pedaqoji ustalıq, pedaqoji işgüzarlıq və pedaqoji peşəkarlıq bacarığı aşılamaq;

-tələbələrdə pedaqoji təfəkkür, pedaqoji qabiliyyət formalaşdırmaq, pedaqoji səriştəni vərdiş halında möhkəmləndirmək;

-tələbələri bir mütəxəssis kimi həm pedaqoji, həm psixoloji, həm də metodik cəhətdən flormalaşdırmaq;

-ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin müasir vəziyyəti və qabaqcıl pedaqoji təcrübə ilə tanışlıq;

-tələbələrə sinif rəhbərinin vəzifəsini yerinə yetirməyi, məktəbin kollektivi ilə, gənclər təşkilatı ilə iş aparmağı, habelə fərdi tərbiyəvi iş aparmağı öyrənmək;

-tələbələrdə müxtəlif peşə keyfiyyətlərinin və pedaqoji özünətəhsilə təlabatlarının tərbiyə edilməsi;

-şagidlərin tərbiyə edilməsi vəzifəsinin yerinə yetirilməsində təlim-tərbiyə müəssisələrinə yaxından köməklik göstərmək;

**II.Pedaqoji təcrübənin növləri və müddəti**

Pedaqoji təcrübənin müddəti tədris planı əsasında müəyyənləşir. Filialın Elmi Şurası müəyyən mülahizələri rəhbər tutaraq pedaqoji təcrübənin vaxtını (müddətini, dövrünü) dəyişdirə bilər.

Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialında pedaqoji təcrübə aşağıdakı müddətlərdə aparılır.

**Çoxballı sistemin tətbiq edildiyi qruplar**
**«İbtidai təhsilin pedaqogikası və metodikası»**
III kurs – I təcrübə, 3 həftə –9 fevral-1 mart
IV kurs-II təcrübə 15 həftə – 9 fevral – 24 may
**«Məktəbəqədər təhsilin pedaqogikası və metodikası»**
III kurs – I təcrübə, 2 həftə –20 aprel-1 may
IV kurs-II təcrübə 16 həftə – 9 fevral – 31 may

«İbtidai təhsilin pedaqogikası və metodikası», «Məktəbəqədər təhsilin pedaqogikası və metodikası» ixtisasları üzrə psixoloji – pedaqoji fənlərin – «Pedaqogika», «Psixologiya», «Loqopediya», «Məktəbəqədər pedaqogika», «Uşaq psixologiyası» və s. öyrənilməsi ilə əlaqədar olaraq I, II kurs tələbələri ictimai işlər üçün, habelə təcrübi və laborator məşğələlərlə əlaqədar tez-tez məktəblərə, uşaq bağçalarına gedir, təlim-tərbiyə işlərinin ümumi qoyuluşu ilə tanış olur, müəllimlərin işini, sinif rəhbərinin fəaliyyətini öyrənir və müəllimin, tərbiyəçinin tapşırığı ilə müxtəlif işləri yerinə yetirirlər.

Bütün kurslar üzrə pedaqoji təcrübə öyrədici və tərbiyəvi xarakterə malikdir.

**III.Pedaqoji təcrübənin təşkili və keçirilməsi**

«Məktəbəqədər təhsilin pedaqogikası və metodikası» ixtisası üzrə pedaqoji təcrübə məktəbəqədər tərbiyə müəssisələrində, «İbtidai təhsilin pedaqogikası və metodikası» ixtisası üzrə isə ümumtəhsil məktəblərinin I-IV siniflərində keçirilir.

Digər ixtisaslar üzrə I pedaqoji təcrübə V-IX siniflərdə, II pedaqoji təcrübə V-XI siniflərdə aparılır.

İxtisas üzrə fənlərin tədrisi metodikası, pedaqogika və psixologiya kurslarını mənimsəmiş tələbələr pedaqoji təcrübəyə buraxılır və başlanğıc konfransında iştirak edirlər.

Pedaqoji təcrübənin ilk həftəsi ümumi tapşırıqların yerinə yetirilməsinə və aşağıdakı işlərin görülməsinə sərf edilir.

-direktor və onun müavininin söhbətlərinə qulaq asmaq;
-məktəblə hərtərəfli tanış olmaq;
-təhkim olunduğu sinfin fənn müəllimlərinin təqvim planlarını alıb köçürmək;
-məktəbin fənn kabinetləri ilə, məktəbin texniki imkanları ilə tanışlıq;
-təhkim olunduğu sinifdə əksər dərsləri dinləmək;
-sinif jurnalı ilə tanışlıq;
-ixtisas üzrə proqram, dərslik, dərs vəsaiti və didaktik materiallarla tanış olmaq;
-məktəbin vaxt cədvəlini köçürmək;
-şagirdlərin yoxlama yazı dəftərləri ilə tanış olmaq;
-Pedaqoji təcrübə dərslərinin ümumi cədvəlini və öz dərslərinin cədvəlini köçürmək;
-sinif rəhbərinin iş planını köçürmək, sinfin şagirdləri ilə tanış olmaq;
-şagird toplanışlarında fəal iştirak etmək;
-ailəsinə getmək zərurəti olan uşaqların valideynləri ilə keçiriləcək söhbətlərin məzmununa hazırlamaq;
-təhkim olunduğu sinfin şəxsi işləri və tibb vərəqləri ilə tanış olmaq;
-ixtisasa uyğun fakultativ məşğələlərin planı ilə tanışlıq;
-ilk dərslərin icmallarını və bu dərslərə lazım olacaq əyani, texniki vasitələri müəyyənləşdirmək;
-ixtisasauyğun dərnəklərin işi ilə tanışlıq;
-ixtisasauyğun fənn metodbirləşmələrinin işləri ilə tanış olmaq;

III kursda pedaqoji təcrübə zamanı hər bir tələbə 8, Iv kursda 16 dərs deməlidir.

**«İbtidai təhsilin pedaqogikası və metodikası» ixtisası üzrə deyiləcək sınaq dərsləri**

| | Əyani | | Qiyabi |
|---|---|---|---|
| | III kurs | IV kurs | V kurs |
| Ana dili | 3 | 4 | 3 |
| Riyaziyyat | 3 | 4 | 3 |
| Bədən tərbiyəsi | 2 | - | 1 |
| Təbiətşünaslıq | - | 2 | 1 |
| Əmək təlimi | - | 2 | 1 |
| Musiqi | - | 2 | 1 |
| Təsviri sənət | - | 2 | 1 |
| YEKUN | 8 dərs | 16 dərs | 11 dərs |

**«Məktəbəqədər təhsilin pedaqogikası və metodikası» ixtisası üzrə aparılacaq məşğələlər**

| Fənn | Əyani | |
|---|---|---|
| | III kurs | IV kurs |
| Nitq inkişafının metodikası | 2 | - |
| Sadə riyazi təsəvvürlərin inkişafı metodikası | 2 | - |
| Savad təlimi | | 4 |
| Ətraf aləmlə tanışlıq metodikası | | 2 |
| Təsviri fəaliyyətin metodikası | | 2 |
| Musiqi tərbiyəsinin metodikası | | 2 |
| Fiziki tərbiyənin metodikası | | 2 |
| Əmək tərbiyəsinin metodikası | | 2 |
| CƏMİ: | 4 məşğələ | 14 məşğələ |

İkiixtisaslı qruplarda yarıvmqrupun tələbələri ilk yarıyadək bir ixtisasdan, sonra digər ixtisasdan dərs aparırlar. Məsələn, «Riyaziyyat və fizika» ixtisası üzrə birinci yarımqrup riyaziyyatdan, ikinci yarımqrup fizikadan dərs aparır, sonra isə əksinə…

Tərbiyə işlərini yerinə yetirmək üçün hər ğir sinfə ı və 2 tələbə təhkim olunmalıdır. III kurs tələbələri bu dövrdə sinif rəhbərinin müavini kimi fəaliyyət göstərir və sinifdənkənar tədbirlər keçirir. IV kursda isə sinif rəhbərinin bütün vəzifələrini müstəqil olaraq yerinə yetirir.

IV kursda təcrübəçi tələbələr məktəb giigyenası və psixologiyadan tapşırıq yerinə yetirirlər.

Təcrübəçi tələbələrə rəhbərliyi mümkün qədər bu kursda dərs aparan müəllimlər etməlidirlər.

## IV.Təcrübəçi tələbələrin vəzifələri

-pedaqoji təcrübənin başlanğıc və yekun konfranslarında, həmçinin məktəbdə keçirilən müşavirələrdə, pedaqoji və direktoryanı şuralarda, metodbirləşmə iclaslarında iştirak edirlər;

-təcrübə müddətində məktəbin daxili nizam-intizam qaydalarına riayət edir və şagirdlərin bu qaydalara əməl etmələri üçün iş aparırlar;

-pedaqoji təcrübə rəhbərinin və məktəb rəhbərlərinin bütün tapşırıqlarını yerinə yetirirlər;

-təcrübəçilərdən bir nəfər qrup başçısı seçilir. O, metodistin köməkçisi kimi təcrübəçilərin davamiyyətinə, onların tapşırıqları yerinə yetirmələrinə nəzarət edir, jurnalı və başqa sənədləri saxlayır;

-pedaqoji təcrübə gün ərzində 6 saat davam edir: I növbə saat 8-dən 14-dək; II növbə saat 12-dən 18-dək. Bu müddət ərzində təcrübəçilər məktəbdə olur, təlim-tərbiyə prosesini öyrənirlər;

-təcrübəyə başlayanda fərdi iş planı tutulur və bu icra olunduqca gündəlikdə qeyd edirlər;

-müəyyən olunmuş miqdarda nümunə dərsi keçirlər;

-yoldaşlarının nümunə dərslərində iştirak edir, dərslər haqqında öz fikirlərini qeyd dəftərində yazır və bu əsasla müzakirələrdə rəylərini bildirirlər;

-ekskursiya, disput, səhərcik, gecə və görüşlər keçirilməsinin təşəbbüsçüsü və iştirakçısı olurlar;

-qeyri-müvəffəq qiymət alan şagirdlərlə əlavə məşğələ keçirlər;

-tələbə xəstələndikdə və ya başqa üzürlü səbəbdən təcrübədə iştirak edə bilmədikdə bu barədə metodistə xəbər verir.

## V.Tələbələrin pedaqoji təcrübələrinin hesabatı

-pedaqoji təcrübəni başa vuran tələbələr aşağıdakı sənədləri təhvil verirlər: III kurs tələbələri- görülmüş işlərə dair hesabat, psixoloji xasiyyətnamə (yaxud bir dərsin psixoloji təhlili), iki dərsin nümunəvi icmalı, Ana dili, riyaziiyat, bədən tərbiyəsindən (hər fəndən bir dərsin) təhlilinin protokolu və əyani vəsait, bir dərsin planı, keçilmiş əxlaqi söhbətin mətni;

-IV kurs tələbələri – görülmüş işlərə dair hesabat, psixologiya və gigiyenaya aid tapşırıq mətni, bir dərsin icmalı, bir dərsin planı (iki ixtisaslıdırsa 2 dərsin icmalı və planı), təcrübə müddətində deyilmiş sınaq dərslərinin təhlilinin protokolları (hər fəndən 1 protokol) – cəmi 6, keçirilmiş tərbiyəvi tədbirin planı.

«Məktəbəqədər təhsilin pedaqogikası və metodikası» ixtisası üzrə təcrübəçi tələbələr aşağıdakı sənədləri verirlər:

-III kurs tələbələri – görülmüş işlərə dair hesabat, psixoloji xasiyyətnamə, bir əxlaqi söhbətin mətni, 2 məşğələnin (Nitq inkişafı metodikası-1, riyazi təsəvvürlərin inkişafı metodikası-1) icmalı, məşğələlərin təhlilinin protokolu – hər fəndən 1 protokol – cəmi – 2.

-IV kurs tələbələri – görülmüş işlərə dair hesabat, 1 dərsin icmalı, 1 dərsin planı, nümunə məşğələləri üçün hazırlanmış 1 əyani vəsait, təcrübə müddətində aparılmış sınaq məşğələlərinin təhlili protokolu – (hər fəndən 1 protokol) – cəmi 6.

Təcrübənin yekununda hər bir təcrübəçiyə xasiyyətnamə yazılır. Xasiyyətnamə uşaq bağçasının müdiri tərəfindən təsdiq olunur.

**Qiyabi şöbə tələbələrinin pedaqoji təcrübələrinin təşkili və keçirilməsi**

Pedaqoji təcrübənin keçirilməsindəki məqsəd və vəzifələrə aid yuxarıda deyilənlər əyani və qiyabi şöbə tələbələrinə eynilə şamil edilir.

Pedaqoji təcrübəni yaşadığı rayonda keçmiş buraxılış kurs tələbələri sessiyaya azı iki gün tez gəlməli və özləri ilə aşağıdakı sənədləri gətirməlidirlər.

-təsdiq edilmiş 4 ədəd geniş dərs icmalı və 2 ədəd dərs planı, yaxud bir sinifdə dediyi dərslərin bir aylıq dərs planları;

-keçilmiş dərslərə aid 2 ədəd əyani vəsait;

-şagirdin və sinfin psixoloji xarakteristikası;

-əxlaqi söhbətin yazılı mətni və görülmüş işlərə dair yazılı hesabat;

-məktəb rəhbərinin verdiyi «Arayış-xasiyyətnamə».

Qiyabiçi tələbələrin fəaliyyəti bütün növlərdən görülmüş işlərin nəticələrinə görə və sənədlər əsasında «əla», «yaxşı», «kafi», «qeyri-kafi» qiymətləndirilir (Çoxballı sistem qiyabi şöbə tələbələrinə şamil edilmir).

Qiyabi şöbədə ixtisas metodistinə bir tələbəyə 10 saat, pedaqoq və psixoloqun hərəsinə 1 saat yük hesablanır. Qiyabi şöbədə məktəb rəhbərinə və müəllimlərə veriləcək saathesabı yük (hər tələbəyə görə) aşağıdakı kimi hesablanır.

Məktəbin direktoruna – 1 saat

Direktor müavininə – 1 saat

Fənn müəlliminə – 4 saat

**Sinif rəhbəri və fənn müəlliminin hüquq və vəzifələri**

**Sinif rəhbəri**

-təcrübəçiləri sinif rəhbərinin iş planı ilə tanış edir;

-təcrübəçiləri sinif jurnalı ilə, şagirdlərin müvəffəqiyyət faizi, dərsə davamiyyəti və davranışı ilə tanış edir, şagirdlərin valideynləri haqqında, ev şəraiti haqqında onlara məlumat verir;

-təcrübəçilərə sinfin şagirdləri ilə mədəni-kütləvi tədbirlər keçirməkdə kömək edir, onun müzakirəsini keçirir;

-məktəbdə pedaqoji təcrübəyə aid keçirilən müşavirələrdə iştirak edir.

**Fənn müəllimi**

-pedaqoji təcrübənin başlanğıc və yekun konfranslarında, məktəbdə keçirilən müşavirələrdə iştirak edir;

-təcrübəçilərin dərs apardıqları siniflərin rüblük təqvim-planını yazdırır;

-təcrübəçinin iştirakı ilə açıq dərslər deyir və sinifdənkənar məşğələlər vəsaitlərlə təcrübəçiləri tanış edir;

-dərslərə hazırlaşmaqda, uyğun əyani vəsaitin seçilməsində, dərsin icmalının və planının tərtib edilməsində təcrübəçilərə kömək edir;

-tələbələrin əksər nümunə dərslərində, onların müzakirələrində iştirak edir, öz rəyini bildirir;

-tələbələri dərnək məşğələləri, əlavə məşğələlər keçirməyə, dəftərlərini yoxlamağa cəlb edir;

-təcrübəçilərin qeyri-müvəffəq qiymət alan şagirdlərə əlavə iş aparmalarına kömək edir.

## Təcrübəçi tələbələrin təhvil verdikləri pedaqoji təcrübə sənədləri

## Gündəlik

Pedaqoji təcrübə keçən hər bir tələbə fərdi iş planına əsasən gördüyü işlərin qısa məzmununu gündəliyə yazır. Pedaqoji təcrübənin sonunda isə gündəlik əsasında hesabat yazılır. Gündəlik elə bir sənəddir ki, onu oxuyan hər kəs tələbənin təcrübə müddətindəki pedaqoji fəaliyyəti haqqında tam təsəvvürə malik olur. Ona görə də gündəlik vahid qaydada, aydın xətlə, səliqəli yazılmalıdır. Gündəlik adından göründüyü kimi hər gün yazılmalı və həftədə bir dəfə pedaqoq və metodist tərəfindən yoxlanıb müvafiq qeydlər edilməlidir.

Gündəlikdə əsasən aşağıdakı məsələlər əks olunmalıdır:

-Məktəbşünaslıq məsələləri;

-şagirdlər üzərində aparılan müşahidələr;

-sınaq dərslərinə hazırlıq, onun keçirilməsi və müzakirəsi;

-metodist və fənn müəllimləriin nümunə dərslərinin, eləcə də təcrübəçi tələbələrin sınaq və zaçot dərslərinin müşahidəsi və təhlilində iştirak;

-pedaqoji təcrübə rəhbərlərinin, eləcə də pedaqoji təcrübənin gedişini yoxlayan əlaqədar şəxslərin (kafedra müdiri, dekan, institut rəhbərliyinin nümayəndələri, nazirliyin nümayəndələri və s.) qeyd və iradları;

-sinifdənxaric və məktəbdənkənar tədbirlər (dərnək məşğələləri, konfranslar, disputlar, gecələr, ekskursiyalar, divar qəzeti və bülletenlər buraxmaq, adlı-sanlı adamlarla görüşlər və s.)

Gündəlikdə hər bir tədbirə sərf edilən vaxt üçün ən çoxu 2 saat göstərilir. Gün ərzində isə bu təcrübəçinin iş gününə uyğun olaraq 6 saat müəyyənləşdirilir.

Gündəlik üç hissəyə ayrılmaqla damalı ümumi dəftərdə yazılır:

1.Ümumi hissə,

2.Təlim hissəsi,

3.Tərbiyə hissəsi.

Gündəlik yazılmağa başlanarkən əvvəlcə səhifələnir. Sonra 1-ci səhifədə iri, yaraşıqlı hərflərlə tələbənin soyadı, adı və atasının adı yazılır.

2-ci səhifədə eyni qayda ilə «ümumi hissə» sözləri yazılır.

3-cü səhifədə məktəbin dəqiq ünvanı, telefonu, məktəb rəhbərlərinin və pedaqoji təcrübə ilə bağlı olan bütün məktəb işçilərinin soyadları, adları və atalarının adları yazılır.

4-cü səhifədə məktəbin zəng cədvəli göstərilir.

5-ci səhifədə bütün təcrübəçilərin sınaq dərslərinin cədvəli yazılır.

Cədvəlin aşağıdakı qaydada yazılması məqsədəmüvafiqdir[1].

Pedaqoji təcrübənin bütün günlərini göstərmək üçün vərəqə calaq verilir və qatlanır.

---

[1]Rum rəqəmləri sinifləri, ərəb rəqəmləri dərs saatlarını göstərir.

| Tələbənin soyadı və adı | Tarix | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Fevral | | | | | | | | | | | | | |
| | 10 | 11 | 12 | 13 | 14 | | 16 | 17 | 18 | 19 | 20 | 21 | | 23 | 23 |
| 1. | | | | | | | $IV_1$ | | | $IV_3$ | | | | | |
| 2. | | | | | | | $II^2$ | $III_1$ | | | $II_1$ III 3 | | | $II_1$ III1 | |
| 3. | | | | | | | | | | | | | | | |

6-cı səhifədə təcrübəçinin «rəhbəri» olduğu sinfin dərs cədvəli yazılır.

7-ci səhifədə pedaqoji təcrübə rəhbərlərinin saatları yazılır.

8-ci səhifədə təcrübəçinin təhkim olunduğu sinfin şagirdləri haqqında məlumat yazılır. Bu aşağıdakı qaydada olur.

| № | Soyadı, adı və atasının adı | Cinsi | Doğul-duğu tarix | Ünvanı və telefonu | Valideyni n iş yeri |
|---|---|---|---|---|---|
| 1.<br>2.<br>3 | | | | | |

Sonra ehtiyat üçün bir neçə ağ vərəq saxlanılır və iri yaraşıqlı hərflərlə «təlim hissəsi» sözləri yazılır. Növbəti səhifədə təcrübəçinin özünün sınaq dərslərinin cədvəli göstərilir. Bunun ardınca təcrübəçinin dərs keçdiyi sinfin ixtisas fənnindən rüblük təqvim-planı verilir.

Gündəlik aşağıdakı qaydada xətlənir və təlim işləri icra olunduqca sütunlarda qeyd olunur.

| № | Tarix | Görülən işlərin məzmunu | Saat | Qeyd |
|---|---|---|---|---|
| | | | | |

Təlim hissəsi üçün təxminən 20 səhifə yer ayırdıqdan sonra yenə bir səhifədə yaraşıqlı iri hərflərlə «tərbiyə hissəsi» sözləri yazılır. Növbəti səhifədən dəftər yenə yuxarıda göstərildiyi qaydada xətlənib sütunlara ayrılır ıə tərbiyə məsələləri ilə bağlı işlər yazılır.

Təcrübənin sonunda gündəlik metodistə müəllimə təhvil verilir. Yekun konfransından sonra gündəlik nümunə üçün kafedrada saxlanılır, yaxud təcrübəçinin özünə qaytarılır.

## Fərdi plan

Təcrübənin başlanğıcında pedaqoqun yaxından köməyi ilə tərtib olunur və tələbə təcrübə keçdiyi dövrdə onun əsasında fəaliyyət göstərir, orada icrası nəzərdə tutulmuş bütün məsələlər yerinə yetirilir. Fərdi plan 12 vərəqli şagird dəftərinə yazılır. (Qeyd. Fərdi plan gündəlikdə bir dəftərdə də yazıla bilər). Onun forması aşağıdakı kimi olur. Dəftərin 1-ci və axırıncı vərəqinə toxunulmamaqla yerdə qalan vərəqlər 3-4 sm kəsilir. Vərəqlərin baş tərəfləri içəridən aşağıdakı qaydada xətlənir və yazılır.

| № | Görüləcək işlər | Tarix | İcraçı | Qeyd |
|---|---|---|---|---|

Sonra dəftərin bütün vərəqləri hər iki tərəfdən bu qaydada xətlənir. İcraçı üçün ayrılmış sütunda təcrübəçi özündən başqa işi birlikdə gördüyü şəxsin soyadını və adını yazır.

Fərdi planda təxminən aşağıdakı kimi məsələlər yazılır:

-məktəblə, o cümlədən məktəbin müəllim və şagird kontingenti ilə, fənn kabinəsi ilə, ixtisasa aid əyani vəsaitlərlə və s. tanışlıq;

-sinif rəhbəri kimi təhkim olunduğu sinfin şagirdləri ilə yaxından tanışlıq, o cümlədən sinif jurnalı və şagirdlərin şəxsi işləri, tibb vərəqələri əsasında onların öyrənilməsi;

-məktəb rəhbərliyinin, uşaq birliyi təşkilatının, sinif rəhbərinin işi ilə tanışlıq;

-pedaqoji şuranın, direktoryanı şuranın və kollegial orqanların işi ilə tanışlıq;

-sınaq və zaçot dərslərinin, eləcə də sərbəst dərslərin keçirilməsi. Bu dərslərə hazırlıq; icmal və planların tərtib edilməsi, əyani vəsaitlərin seçilib müəyyənləşdirilməsi, hazırlanması və s.

-başqa təcrübəçilərin dərslərinin dinlənilməsi və müzakirəsi;

-sinifdənxaric və məktəbdənkənar tədbirlərdə (ekskursiya, konfrans, lisput, tarix gecəsi, bülleten və divar qəzeti buraxmaq, geridə qalan şagirdlərlə əlavə məşğələ keçmək və s.) iştirak və onların müstəqil yerinə yetirilməsi.

-sinif rəhbərlərinin, fənn metodbirləşmələrinin iclaslarında, yığıncaqlarında iştirak;

-buraxılış işi və kurs işi yazmaq məqsədilə eksperiment aparmaq və s.

Təcrübəçi tələbələrə fərdi planın başqa bir nümənusəini təqdim edirik. Fərdi plan hər həftə üzrə aşağıdakı sxem üzrə də tərtib edilə bilər.

## FƏRDİ PLAN

| Günlər | Təlim işləri | saat | Tərbiyə işləri | saat | İcra haqqında metodist qeydləri |
|---|---|---|---|---|---|
| 09.02.07 | 1.Direktorun söhbətini dinləmək<br>2.sınaq dərslərinin bölgüsü haqqında metodistin söhbətini dinləmək | 1<br>2 | 1.Təşkilatçı müəllimin söhbətini dinləmək.<br>2.Görüləcək təlim-tərbiyə işləri haqqında pedaqogika müəllimi-nin söhbətini dinləmək | 1<br>2 | |
| 10.02.07 | 1.Sinfə təhkim olunmaq və həmin sinifdə 2 dərsi müşahidə etmək<br>2.Fənn müəlliminin iş planı ilə tanış ol-maq | 2<br>1 | 1.Gündəliyin tərtibi üçün lazım olan təlimatı toplamaq.<br>2.Sinif rəhbərinin iş planı ilə tanış olmaq | 1<br>2 | |
| 11.02.07 | 1.Deyəcəyi dərslər haqqında metodistdən məlumat almaq<br>2.İxtisas üzrə 2 dərsi müşahidə etmək | 1<br>2 | 1.Psixoloji xarakteris-tika haqqında məlu-mattı dinləmək və material toplamaq.<br>2.Emalatxana ustanın iş planı ilə tanış olmaq | 1<br>2 | |
| 11.02.07 | 1.Deyəcəyi 1-ci dərsin icmalını tərtib etmək, fənn müəllimləri ilə razılaşmaq.<br>2.Direktor müavini-nin söhbətini dinlə-mək | 2<br>1 | 1.Təhkim olunduğum sinfin tərkibi ilə tanış olmaq siyasi məluuat dəqiqəsi keçirmək.<br>2.Gigiyena müəllimi-nin söhbətini dinlə-mək. | 1<br>2 | |
| 13.02.07 | 1.Şagirdlərin müvəf-fəqiyyəti ilə tanış ol-maq.<br>2.Təlimdə geridə qalanlarla söhbət etmək. | 1<br>1 | 1.Təhkim olunduğum sinifdə əməu tərbiyəsi ilə bağlı söhbətlər aparmaq.<br>2.Nəzakətlik və təvazökarlıq haqqında söhbətə hazırlaşma. | 2<br>2 | |

## İcmal

Təcrübəçi tələbələrin qarşısında duran ən məsul vəzifələrdən biri sınaq dərslərinin icmalının tərtibi metodikasına yiyələnmək, dərslərin icmalını tərtib edə bilməkdir.

İcmalın yazılması üçün təcrübəçiyə ən azı 3 gün vaxt verilir. Bu müddət ərzində tələbə əvvəlcə dərslikdəki materialla, oradakı sual və tapşırıqlarla, dərsliyin illüstrasiyaları ilə yaxından tanış olur. Sonra həmin mövzu ilə əlaqədar başqa elmi və metodik ədəbiyyatla, bədii ədəbiyyatla, sənədli materiallarla və s. ilə tanış olur.

Daha sonra dərsdə istifadə olunacaq əyani vəsaitləri (tədris şəkilləri, ekran vasitələri, cədvəl, xəritə və s.) müəyyənləşdirir, lazım gələrsə özü əyani vəsait hazırlayır.

Əgər təcrübəçi dərslikdəki materialı oxumaqla kifayətlənərsə, o, təlimdə heç vaxt müvəffəqiyyət qazana bilməz. Təcrübəçi tələbə dərslikdəki materialla kifayətlənməməli, sorğu ədəbiyyatına müraciət etməlidir və s.

Təcrübəçi mövzu ilə əlaqədar bütün məsələləri ətraflı öyrəndikdən sonra dərsin məqsədini müəyyənləşdirir, planını hazırlayır, şagirdlərə verəcəyi sual və tapşırıqları müəyyənləşdirir və yalnız bundan sonra icmalı səliqəli şəkildə 12 vərəqəli şagird dəftərinə yazır.

İcmal fənn müəllimi ilə razılaşdırıldıqdan sonra dərsin keçilməsinə ən azı bir gün qalmış təsdiq üçün metodistə təqdim edilir.

**Fəal dərsin quruluşu**

1.Motivasiya (probemli sualın qoyulması).
2.Tədqiqatın aparılması (1.Debatlar, 2.Karusel, 3. Kiçik qruplarda iş)
3.Məlumat mübadiləsi.
4.Məlumatın təşkili və müzakirəsi.
5.Nəticənin çıxarılması.
6.Refleksiya (əksetdirmə) izləmə → öyrənməni → öyrədir → qiymətləndirmə.
7.Tətbiq edilməlidir. (reproduktiv)

**5 növ bacarıq səmərəli təlim və tədrisin özəyini təşkil edir.**

**I dərsin məntiqi cəhətdən təşkili**

a)**İzahat.** Bu müəllimin aydın və başa düşülən nümunələrlə dərsi öyrətmək bacarığına əsaslanır.
b)**Dərsin məzmununun təşkili.** Təlim fəaliyyətini müəyyən edir.
**c)dərsin məzmun və fəaliyyətinin ardıcıllığı.**
Dəqiq elmlərdə məlumdan naməluma. Humanitar elmlərdə xronoloji ardıcıllıq.
d)**Nəyə diqqət yetirilməlidir.** Müəllim dərs zamanı əsas diqqəti ən vacib məsələyə yönəltməlidir.

**II. Dərsin təqdimatı**

Dərs başlayarkən **4 faktor** nəzərə alınmalıdır.
**1)Şagirdlərin diqqətini cəlb etməlidir.**
**2)Müəllim şagirdləri mövzu ilə maraqlandırmaq yollarını tapmalıdır.ö həvəsləndirməlidir.**
**3)Yeni mövzu üçün baza biliyə malik olmalıdır.**
**4)Göstərişlərin verilməsi.**
**III.Yekunlaşdırıcı və ümumiləşdirici dərs**
1)Dərsin mühüm hissələri
2)Bölmə ardıcıllığı gözlənilməlidir.
3)Dərs vaxtı təkrara yer verilməlidir.
4)Mənimsəmə müəyyənləşdirilməlidir.
5)Növbəti dərs haqqında məlumat verilməlidir.

**IV.Həvəsləndirici və maraqoyadıcı amillər**
**A)Müxtəlif vizual stimullar**
1.Müəllimin üzündəki ifadələr və jestlər.
2.Müəllim hərəkət edərək dərs keçə bilər.
3.Müəllim geyimində və saç düzümündə müxtəliflik etməlidir.
**B)Müxtəlif dinləmə stimulları.**
1.Müəllimin səsindəki həcm və yüksəklik həddi, danışıq tempi.
2.Şagirdlər də danışmalıdırlar.
3.Kaset və SD-lər kimi audio vasitələrdən istifadə.

**V.Nümayiş etdirmə**
**Nümayiş dərsin məqsədinə uyğun olmalıdır.**
1.Ardıcıllıq müəyyənləşdirilməlidir.
2.Nəticə və problem haqqında xəbər verilməlidir.
3.Nümayiş TƏHLÜKƏSİZ OLMALIDIR!
4.Materiallar toplanmalı və nümayişə hazır vəziyyətə gətirilməlidir.
5.Şagirdlər cəlb olunmalıdır.
6.Nümayiş darıxdırıcı keçməməlidir.
7.Nümayişin sonu olmalıdır.
**Dərslərdə şagirdlərin qiymətləndirilməsi.**
Qiymətləndirmə tapşırığın yerinə yetirilməsinə əsaslanmalıdır.
Obyektiv tapşırığı, qrupların işində və diskussiyalarda iştirak, suallar formalaşdırmaq və tədqiqat aparmaq bacarığı.
**Qiymətləndirilməlidir.**
1)**Məzmun** - əsas faktların və terminlərin, səbəb-nəticə.

2.**Təhlükəsiz vərdişlərinin,** öyrənmə bacarığının, digər qrupların baxışların, yaxud nöqteyi –nəzərinin başa düşülməsi.

3.**Davranış** tənzimləyiciləri kimi dəyərlərin formalaşdırılması.

Qiymətləndirilmə meyarları bütün sinifdə müzakirə edilə bilər.

Qiymətləndirmənin üsul və formaları.

1.Müəyyən konkret cavabı olanlar (Testlər).

2.Açıq suallar.

Şagirdin özünüqiymətləndirməsi çox vacibdir.

Bu onlara öz davranışına daha məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivliyin tərbiyə edilməsinə yardımçı olur. münasibətlərin düzlük və qarşılıqlı anlaşma prinsipləri əsasında qurmağı öyrədir.

**Dərsin geniş planı,**
**Dərsin planı**

Təcrübəçi tələbələr təkcə icmalla deyil, həm də geniş planlı dərslər keçməlidirlər. Bəs geniş plan necə tərtib edilməlidir?

Burada da hazırlıq üçün icmala verilən tələblər əsas götürülür. Lakin müəyyən fərqlər vardır. İcmaldan fərqli olaraq geniş planda müəllimin şərhinin mətni; həmçinin şagirdlərin suallara verdikləri cavablar yazılmır.

Sonuncu kursda isə dərslərin çoxu icmalla və geniş planla yox, sadəcə planla tədris olunur. Müəllim kimi fəaliyyətə başlayanda dərslərin hamısını planla deyəcəksiniz. Dərs planı geniş plandan fərqli olaraq daha qısa və sadə tərtib edilir və burada şagirdlərə verilən suallar da yazılmır. Yalnız mövzu məqsəd, təchizat, istifadə ediləcək üsullar, ev tapşırıqlarının yoxlanılması, keçmiş dərsin soruşulması, yeni materialların şərhi, yeni dərsin möhkəmləndirilməsi və ev tapşırıqlarının verilməsi qısaca qeyd edilir.

## DƏRSİN DİNLƏNİLMƏSİ (MUŞAHİDƏSİ) VƏ TƏHLİLİ

Məktəbdə həyata keçirilən bütün təlim-tərbiyə işlərinin mərkəzində dərs dayanır. Müəllimin pedaqoji fəaliyyətinin əsasını dərs təşkil edir. şagirdlərin biliklərinin dərinliyi və möhkəmliyi, malik olduqları ideya və mənəvi keyfiyyətlər bilavasitə onlara keçilən dərslərin səmərəliliyi, məzmunluğu, dərinliyi ilə və s. əlaqədardır. Buna görə də hər bir təcrübəçi tələbənin dərsin dinlənilməsi və təhlili üzrə də müəyyən biliklərə yiyələnməi olduqca mühüm əhəmiyyət kəsb edir. bəs dərsin dinlənilməsində hansı cəhətlərə xüsusilə ciddi fikir verilməlidir?

## 1.MÜƏLLİM DƏRSƏ NECƏ HAZIRLAŞMIŞDIR?

Onun dərs planı, tematik işləri, didaktik materialları və s. varmı? Materialı nə dərəcədə bilir? Bu vəziyyət dərsin gedişində, onun dolğunluğunda, səmərəliliyində, şagirdlərin fəallığında aşkara çıxarılır.

## II.DƏRSİN MÖVZUSU

Onun mövzu üzrə dərslər sistemində yeri. Mövzunun xüsusiyyətləri.

## III.DƏRSİN MƏQSƏDİ VƏ ONUN TƏLİM-TƏRBİYƏVİ VƏZİFƏSİNİN QOYULUŞU

Dərsin qarşısında hansı məqsəd qoyulmuşdur. Müəllim onu nə dərəcədə yerinə yetirir? Dərsin (təlimin) öyrədici, inkişafetdirici və tərbiyəvi funksiyaları.

## IV.DƏRSİN TƏŞKİLİ

Sinif otaqlarının dərsə hazırlanması. Onun təmizliyi, sanitar gigiyenik tələblərə müvafiq olması. Dərsin strukturu, vaxt bölgüsü. Dərsdə intizam. Şagirdlərin məşğələyə hazırlıq səviyyəsi və s.

## V.DƏRSİN MƏZMUNU

Dərsdə materialın elmi şərhi, onun tərbiyəvi istiqaməti. Materialın həcmi və s.

## VI.KEÇİLMİŞ MATERİALIN TƏKRARI

Təkrardan dərsin hansı hissəsində istifadə olunmuşdur və müəllim buna nə dərəcədə nail olmuşdur?

## VII.NƏZƏRİYYƏ İLƏ TƏCRÜBƏNİN ƏLAQƏSİ

Öyrənilən biliklərin müəllim və şagirdlər tərəfindən müasir istehsalatın, ətraf mühitin və məişət hadisələrinin izahına tətbiq olunması, şagirdlərin biliklərini öz şəxsi təlim təcrübəsinə tətbiq etməsi, təcrübə aparmaq və s.

## VIII.DƏRSİN METODİK CƏHƏTİ

Şagirdlərin bilik, bacarıq və vərdişlərinin yoxlanılmasının məzmunu və metodikası. Yeni materialın şərhi üçün müəllimin tətbiq etdiyi metodlar və priyomlar. Bunlardan istifadənin keyfiyyəti.

## IX.ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞLƏRİ

Şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirilməsi. Şagirdlərin fəallığı. Əks-əlaqənin mövcudluğu. Texniki vasitələrdən istifadənin keyfiyyəti.

## X.ŞAGİRDLƏRİN BİLİK, BACARIQ VƏ VƏRDİŞLƏRİNİN KEYFİYYƏTİ

Şagirdlərin cavablarının, sual-cavabın nəticələ-rinin, təcrübə və yoxlama işlərin dərinliyi. Şagirdlərin kitablarla, cihazlarla işləmək, konspekt, mətnlər yazmaq, məruzə və məlumatlarla çıxış etmək bacarığı. Onların biliyinin qiymətləndirilməsinin obyektivliyi.

Öyrənilmiş materialların möhkəmləndirilməsinin məzmunu və metodikası.

## XI.DƏRSİN PSİXOLOJİ CƏHƏTİ

Şagirdlərin diqqəti, təfəkkürü və qabiliyyətlərinin inkişafı. şagirdlərin nitqi üzrə iş. Dərsdə psixoloji mikro mühit. Dərsdə emosionallığın təmin edilməsi.

## XII. MÜƏLLİMİN XARAKTERİSTİKASI VƏ PEDAQOJİ KEYFİYYƏTLƏRİ

Sinfi ələ almaq bacarığı, emosionallığı, pedaqoji aktı, şəxsi mədəniyyəti, obyektivliyi, xeyirxahlığı, tələbkarlığı, fərdi yanaşma qabiliyyəti, nitqi, geyimi və s.

## TƏRBİYƏVİ SÖHBƏT İCMALININ TƏRTİBİ METODİKASI

Pedaqoji təcrübənin ilk mərhələsində (birinci ilində) Siz əsasən aşağı siniflərdə – uşaq və yeniyetmələrlə işləməli olacaqsınız. Bu dövrdə uşaqların tərbiyəvi söhbətlərə-tərbiyəçi sözünə xüsusi ehtiyacları vardır. Sözün gücü isə onun necə deyilişindən, hansı tərzdə söylənilməsindən çox asılıdır. Faktlara əsaslanmaqla, yüksək emosional şəkildə aparılan söhbətlər şagirdləri sanki ovsunlayır, onların mənəviyyatına güclü təsir göstərir. Buna görə tərbiyəvi mövzuda söhbətlərin aparılması təcrübəçidən ona ciddi surətdə hazırlaşmağı tələb edir. Yadda saxlayın ki, təcrübə müddətində apardığımız belə tərbiyəvi söhbətlərdən birinə icmal tərtib etməlisiniz. Aşağıda tanış olacağınız material söhbəti hazırlamaq və onun icmalının tərtibində sizə yaxından istiqamət verəcəkdir.

Tərbiyəvi söhbətlərin təşkili və onun aparılması söhbətə hazırlıqdan başlayır. Hazırlıq iki mərhələni əhatə edir: a)müəllmin (təcrübəçinin) özünühazırlıtı və hazırlığı; b)şagirdlərin söhbətə hazırlanması. Hazırlıq işləri tamamlandıqdan sonra söhbətin aparılması həyata keçirilir.

Tələbələrin özünühazırlığına aşağıdakılar daxildir: söhbətin məqsədinin aydınlaşdırılması; Sinifdənkənar oxu üçün ədəbiyyatların seçilməsi; söhbətə müvafiq plakat və digər əyani vəsaitlərin hazırlanması; söhbətin planının tərtibi; giriş üçün ediləcək söhbətin, veriləcək sualların və nəticənin sisteminin müəyyənləşdirilməsi, valideynlərin və digər qonaqların gəlişi və nəhayət, ümumi nəticənin hazırlanması.

Bundan sonra hazırlığın ikinci mərhələsi, yəni tələbənin hazırlığı başlayır. Onun məzmununa aşağıdakılar daxildir:

a)mövzu üzrə tələbənin söhbəti;

b)nağıl, hekayə, şer, püblisistik yazılardan parçaların oxunuşu;

v)aparılacaq söhbətin mövzusu üzrə inşa yazı yazdırılması;

q)aparılacaq söhbətin mövzusu ilə əlaqədar olaraq şagirdlərin özünün müstəqil olaraq şerlər, hekayələr, atalar sözləri, zərb tapması və s.

Bütün bu hazırlıq işləri görülüb qurtardıqdan sonra söhbətin vaxtı dəqiqləşdirilir və söhbət həmin vaxtda aparılır.

Tərbiyəvi söhbətin aparılması üç hissədən ibarətdir:

1.Təcrübəçi tələbənin giriş sözü.

2.Şagirdlərlə müsahibənin aparılması.

3.Tələbənin gəldiyi nəticə.

Giriş sözündə aparılacaq söhbətlə bağlı bədii əsərlərdən parçaların oxunması söhbətin daha emosional və cəlbedici olmasına real zəmin yaradır, müvafiq parçaların tələbə tərəfindən oxunuşundan sonra mövzunun mahiyyəti ilə bağlı bir neçə məsələlərə toxunulur, onların əhəmiyyəti qeyd edilir. Sonra şagirdlərin yazdıqları inşalar təhlil edilir, onlara ümumi nəticə verilir. Nəhayət bu mərhələdə inşalardan seçilmiş 2-3 ən yaxşı nümunə oxunulur, onların əhəmiyyəti qeyd edilir.

İkinci hissədə tələbənin verdiyi suallara şagirdlər cavablar verir, tələbə həmin cavabları tamamlayır.

Yekunda təcrübəçi tələbə emosional şəkildə mövzuya aid nümunələr göstərir, görkəmli şəxsiyyətlərdən sitatlar gətirir, həyati faktarla şagirdləri həyəcanlandırır və inandırır.

Tərbiyəvi söhbətlərin belə hazırlanması və aparılması tələbələrin şablonçuluqdan, hər hansı bir tərbiyəvi söhbətin mətnini yazıb şagirdlərə oxumaqdan uzaqlaşdırır və onun təsirli olmasına səbəb olur. Buna görə də belə söhbətlərə məsuliyyətlə yanaşmaq lazım gəlir.

Seçilən mövzunun müasirliyi, onun məqsədinin aydın dərk olunması, şagirdlər arasında iş bölgüsünün düzgün aparılması, mənbələrin onlara çatdırılması bu prosesdə xüsusi əhəmiyyət kəsb edir.

Bu gün məktəbimizdə təlim, tərbiyəni yeni istiqamət, yeni məzmun üzərində qurmaq sahəsində geniş axtarışlar, tədqiqatlar aparılır. Bu baxımdan da şagirdlərdə milli mənlik şüurunun formalaşmasına, milli ləyaqət, dəyanət, düşmənə nifrət tərbiyəsinə, öz soy-kökünə qayıdışa, islam dəyərlərinə münasibətə, milli iftixar tərbiyəsinə geniş yer verilməlidir. Aparacağımız tərbiyəvi tədbirlərdə bu mövzularda olan söhbətlərə daha çox yer verməyimiz bu cəhətdən aktualdır və faydalıdır.

Mövzunun seçilməsində tələbə müəyyən qədər sərbəstdir. Lakin sinfin xüsusiyyətlərini, şagirdlərin yaş səviyyələrini nəzərə almamaq olmaz.

## ŞAGİRD ŞƏXSİYYƏTİNİN PSİXOLOJİ XARATERİSTİKASININ TƏRTİBİ METODİKASI

Siz təcrübə müddətində təhkim olunduğunuz sinfi və həmin sinifdə bir şagirdi psixoloji cəhətdən müşahidə etməli, öyrənməli və ona geniş xarakteristika tərtib etməlisiniz. Bunun üçün şagird şəxsiyyətinin bütün xarakteristik cizgilərini öyrənmək tələb olunur. Müşahidə və öyrənmə aşağıdakı sxem üzrə aparılmalıdır.

### Şagird şəxsiyyətinin psixoloji xarakteristikasının tərtibi üçün plan-sxem[1]

**I.Şagird haqqında ümumi məlumat:**

-Adı və soyadı, doğulduğu tarix, oxuduğu sinif, ümumi fizika hazırlığı, sağlamlıq vəziyyəti, ailədə şagirdin sosial inkişaf şəraiti, ailə tərbiyəsinin xüsusiyyətləri.

**II.Şagirdin təlim fəaliyyəti:**

1.Təlim və müvəffəqiyyəti (müxtəlif fənlərdən aldığı qiymətlər, üstünlük təşkil edən fənlərə görə qiymətlər).

2.Ümumi əqli inkişafı (ümumi dünyagörüşü, əqli keyfiyyətləri, həyata baxışı).

3.Nitqin inkişafı (lüğət ehtiyatı, nitqinin obrazlılığı, emosionallığı, öz fikrini yazılı və şifahi şəkildə ifadə etmə bacarığı).

---

1.Şagird şəxsiyyətinin psixoloji xarakteristikasının tərtibi sxemi. Dos. S.F.Şabanov tərəfindən hazırlanmışdır.

4.Təlimə qabilliyi:

-diqqətin xüsusiyyətləri (ixtiyari diqqətin inkişaf səviyyəçi, onun mərkəzləşməsi, keçirilməsi, həzmi və paylanması);

-təlim materialının mənalı qavranılması, müşahidəçilik xüsusiyyətləri;

-niyyətli və sözlü-məntiqi hafizənin xarakteri və səviyyəsi, yaddasaxlama üsullarından istifadə, yadasalmada asanlıq və ya çətinlik;

-təfəkkürün inkişafı: predmet və hadisələrin mühüm və ya ikinci dərəcəli əlamətlərinin fərqləndirilməsi, ümumi və ya mücərrəd anlayışların mənimsənilmə səviyyəsi, fikri məsələni həll etmək bacarığı, müqayisə etmək, ümumiləşdirmək və təsnif etmək bacarıq və vərdişləri, nəticə çıxarmağa meyilliyi;

-təxəyyülün inkişafı, bərpaedici və yaradıcı meyilli olması.

5.Tədris işində çalışqanlığı.

6.Biliklərə qarşı maraq və təlimə münasibəti: hansı fənlərə qarşı maraq göstərir, maraqla dərslərinə hazırlaşması, dərslərindən aldığı qiymətlərə necə münasibət bəsləyir, valideyn və müəllimlərin tərif və ya tənqidi iradlarına münasibəti, mütəşəkkilliyi, kitab üzərində işi, özünənəzarəti, müxtəlif plan və konspektlərdən istifadə və s.

### III.Şagird şəxsiyyətinin istiqaməti, sosial fəallığı və xüsusi qabiliyyətləri

1.Maraqları.

2.Hər hansı fəaliyyət (musiqi, rəsm və s.) sahəsində xüsusi qabiliyyəti, bu istiqamətdə arzusu, gələcəyə münasibəti.

3.Sinif (qrup) daxilində ictimai fəallığı, referent qrupu.

4.Sosial ictimai hadisələrə maraq və münasibəti.

5.İctimai vəzifəsi, ümumi davranışı.

6.Sinif (qrup) daxilində mövqeyi, müəllim və sinif (qrup) yoldaşlarına münasibəti, dostluq və yoldaşlığı necə başa düşməsi, ünsiyyət dairəsi və ünsiyyət mədəniyyəti, məktəb rejiminə və yaşlıların tələblərinə münasibəti.

### IV.Temperament və xarakter xüsusiyyətləri.

1.Temperamentin əsas xüsusiyyətləri.

2.Emosiya və hisslərinin davranışda özünü göstərməsi.

3.Davranışda qabarıq üzə çıxan xarakter keyfiyyətləri (əməyə, insanlara, təlimə və özünə qarşı münasibəti) və iradi keyfiyyətləri.

### V.Ümumi psixoloji nəticələr.

1.Şagird şəxsiyyətinin formalaşmasındakı üstün və çatışmayan cəhətlər: daxili və xarici səbəblər, ailə tərbiyəsinin qoyuluşu, xəstəlik, davranışındakı qüsurlar, iş vərdişlərinin olmamağı, xüsusi qabiliyyətinin olmaması və s.

2. Şagirdlə psixoloji-pedaqoji işin planlaşdırılması

## MƏKTƏB GİGİYENASI ÜZRƏ TAPŞIRIQLARIN YERİNƏ YETİRİLMƏSİ METODİKASI

Pedaqoji təcrübə müddətində təcrübəçilər həm də gigiyena üzrə tapşırıqları da yerinə yetirməlidirlər. Gigiyena üzrə aparılan işlər aşağıdakı istiqamətləri əhatə etməlidir.

### I.Dərs cədvəlinin gigiyenik qiyməti və şagirdlərin iş görmə qabiliyyəti

1)Sinif cədvəlinin gigiyenik qiymətini vermək (həftənin günlərində dərslərin miqdarı, dərs bölgüsünün, çətin fənlərin növbələşməsi, qoşa suallar və şagirdlərin həftəlik, yaxud bir günlük iş qabiliyyəti nəzərə alınıbdırmı). Cədvəldə əmək və bədən tərbiyəsi dərslərinin tutduğu yer.

2)Dərsprosesində şagirdlərin işgörmə qabiliyyətlərini qiymətləndirmək. (Özlərini aparmalarını müşahidə etmək, şagirdlərin bədən vəziyyətinə diqqət yetirmək, yorğunluğun birinci və ikinci fazasının vaxtını təyin etmək).

3)Tənəffüsün təşkilinə gigiyenik qiymət vermək.

### II.Məktəbyanı torpaq sahəsinin və məktəb binasının gigiyenik qiyməti

1)Məktəbyanı torpaq sahəsinə sanitar-gigiyenik qiymət vermək. Onun hasarlanması, aqrobiologiya, coğrafi və idman meydançalarının olub-olmaması və onlardan pedaqoji məqsədlər üçün istifadə edilməsi. Məktəb binasının mərtəbəliliyi, yerləşdirilməsi;

2)Sanitar-texniki qovşağın gigiyenik qiyməti və istifadə sistemi. Məktəb binasının su ilə təchizatı.

### III.Tədris otaqlarının gigiyenik qiyməti

1)Tədris otaqlarına (sinif otaqları, kabinetlər, laboratoriyalar) gigiyenik qiymət vermək. Otaqların sahəsi, mebellərin yerləşdirilməsi, müəllim tərəfindən havanın dəyişdirilməsinə nəzarət, sinfin təbii işıqlandırılmasının qiyməti. Tədris otaqlarının işıqlandırma rejimi. Sinif otağının pəncərəsinin yerləşdirilməsi, işıqlılıq əmsalı, divarın, mebelin rəngi, habelə ağaclarla, pərdələrlə, güllərlə və qonşu binanın kölgəsilə otağın qaranlıq olması.

2)Süni işıqlandırmanın qiyməti. Süni işıqlandırmanın qiyməti. Süni işıqlandırmanın tiip, işıq mənbəyinin qüvvəsi və miqdarı, işığın bərabər yayılması.

Havadəyişdirici (ventilyasiya) sisteminin qiyməti.

Tədris binasının istilik rejimi.

### IV.Sinif mebellərinin və şagirdlərin oturmalarının gigiyenik qiyməti

1) Sinfə lazım olan və stol nömrələrinin miqdarı, onların şagirdlərin boyuna müvafiqliyi və səliqəsi. Paltarın gigiyenik qiyməti (distansiya və diferensiya).

2) Şagirdləri sinifdə yerləşdirərkən onların sağlamlıq xüsusiyyətləri nəzərə alınırmı?

3) Yazı və oxu zamanı şagirdlərin hamısı düzmü oturur? Əgər belə deyilsə, onda düzgün oturmamağın, qamətə, görməyə və şagirdərin işgörmə qabiliyyətinə təsirinin səbəblərini analiz etmək.

### V.Şagirdlərin fiziki tərbiyəsinin gigiyenik qiyməti

1) Dərs üçün olan tədris materialları bazası mövcud idman meydançası, onun təchizatı, idman zalı.
2) İdman dərsi üçün şagirdlərin qruplara bölünməsi.
3) İdman və bədən tərbiyəsilə məşğul olan şagirdlərin sağlamlığına sistematik olaraq nəzarət edilirmi?
4) Şəhər gimnastikası və tədris zamanı idman dəqiqələri keçilirmi?

### VI.Şagirdlərin əmək tərbiyəsinin gigiyenik qiyməti

1) Bina emalatxanasının gigiyenik tələblərə müvafiqliyi. Onun kub hesabı sahəsi, işıqlandırılması və havasının dəyişdirilməsi. Emalatxananın dülgər, çilingər dəzgahlarının şagirdlərin boyuna müvafiqliyi. Şagirdlərin əmək gigiyenasının qaydaları və təhlükəsizlik texnikası ilə tanış olmaları. Emalatxanada olan ilk yardım dərman qutusu (apteçkası).
2) Əmək tərbiyəsinin və şagirdlərin özünəxidmətinin gigiyenik qiyməti.

### VII.Bir məktəblinin gün rejimi və onun gigiyenik qiyməti

1) Soyadı, adı, yaşı, sinfi, növbəsi.
2) Səhər yuxudan durduğu vaxt.
3) Özünəxidmətə və səhər yeməyinə sərf etdiyi vaxt.
4) Evdən məktəbə getməsinə sərf etdiyi vaxt.
5) Günorta yeməyinin vaxtı (həmişəmi eyni saatda yeyir).
6) Təmiz havada olduğu vaxtın müddəti. Günün hansı vaxtında və sistematik olaraq təmiz havada olurmu?
7) Ev tapşırıqlarının yerinə yetirilməsinin vaxt və müddəti. Həmişəmi eyni vaxtda tapşırıqlarını yerinə yetirir?
Ev tapşırıqlarını yerinə yetirərkən iənəffüs edirmi?
8) Ev təsərrüfatına kömək edirmi, buna nə qədər vaxt sərf edir?
9) Axşam yeməyinin vaxtı.
10) Axşam təmizliyinə nə qədər vaxt gedir?
11) Nə vaxt yatır! Yuxunun vaxtı. Axşam yuxusunun şəraiti: yatacaq paltarının ayrı olması.
12) Məktəblinin gün rejiminə gigiyenik qiymət vermək.

### VIII.Təhkim olunmuş sinifdə şagirdlərin sağlamlığı və fiziki inkişafı haqqında məlumat

1) Təhkim olunmuş sinifdə zəif səhhətli şagirdləri aşkara çıxarmaq.
2) Şagirdlərin fiziki inkişafı haqqında məlumat toplamaq.
3) Tibbi müayinənin nəticələri valideynlərə çatdırılırmı?
4) Şagirdlərin sağlamlığı üçün məktəbdə bu məlumatlardan necə istifadə olunur?

## TƏCRÜBƏÇİ TƏLƏBƏNİN HESABATI

Pedaqoji təcrübənin sonunda görülmüş işlərə yekun vurmaq, müvafiq kafedralar və dekanlıq qarşısında görülmüş işlərə dair hesabat vermək lazımdır. Bəs hesabat necə tərtib edilir?

Hesabatın yazılış forması standartlaşdırılmır. Təcrübəçi tələbə hesabatın başlığını müxtəlif varantda tərtib edir, görülmüş işləri təsvir edir və sonda imza deyərək tarixi göstərir. Məsələn, başlıqlar aşağıdakı variantlarda yazıla bilər:

I variant:

**Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialının Pedaqoji fakültəsinin IV kurs 214 saylı qrup tələbəsi Məhərrəmova Rəna Bayram qızının 15 nömrəli şəhər orta məktəbində 9 fevral 2007-ci ildən 24 may 2007-ci ilə kimi keçdiyi pedaqoji təcrübədə görülmüş işlər haqqında**

**HESABAT**

II variant:

**15 nömrəli şəhər orta məktəbində 9 fevral 2007-ci ildən 24 may 2007-ci ilə kimi keçirilmiş pedaqoji təcrübədə görülmüş işlər haqqında**

**HESABAT**

Sonra aşağıdakı yaddaş əsasında görülmüş işlər təsvir edilir.

1.Keçilmiş dərslərin miqdarı (o cümlədən, icmal və plan ilə). Dərslərin tipləri üzrə dərs növləri. Dərslərdə müvəffəqiyyətli cəhətlər və nöqsanlar, bunların səbəbləri.

2.Fənn üzrə sinifdənkənar keçirilən tədbirlər – dərnək məşğələləri, ekskursiyalar, əlavə məşğələlər, maraq dərsləri və s.

3.Sinifdənkənar tərbiyəvi işlər, onların mövzusu, məqsədi, tərbiyəvi təsir qüvvəsi.

4.Şagirdlərlə aparılan fərdi işlər, onların nəticəsi.

5.Məktəbə və təhkim olunduğu sinfə göstərdiyi əməli köməklik (əyani vəsaitlər hazırlanması, fənn kabinetindəki avadanlıqların təmiri və s.).

6.Valideynlərə aparılan işlər, onların mahiyyəti, forma və metodları.

7.Təcrübə müddətində metodistin, pedaqoqun, psixoloqun, gigiyena müəlliminin, həmçinin məktəbin pedaqoji kollektivinin – direktorun, onun müavinlərinin fənn müəllimlərinin, sinif rəhbərinin köməyinin məzmunu və forması.

8.Şəxsi bacarıq və vərdişlərin qiymətləndirilməsi: dərsin icmalının (planının) tərtibi, dərs üçün lazım olan ədəbiyyat və əyani vasitələrin seçilməsi; dərsdə təlimin prinsip , üsul və priyomlarının düzgün seçilməsi; təlimin texniki vasitələrdən istifadə səviyyəsi; laboratoriya məşğələlərinin və praktik işlərin aparılması; ev tapşırıqları üzərində nəzarətin olması; biliklərin cari hesabının aparılması; fənn üzrə tapşırıqlar və digər çalışmaların yerinə yetirilməsi; yazı işlərinin aparılması, yoxlanılması və qiymətləndirilməsi; dərsdə şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılması; siniflə işdə tərbiyə məqsədinin müəyyən edilməsi; sinif rəhbərinin işinin planlaşdırılması; uşaq və gənclər təşkilatları ilə iş; kütləvi tərbiyəvi tədbirlərin keçirilməsi (konfrans, disput, görüş, gecə, səhərcik, kitab müzakirəsi və s.); divar qəzetinin buraxılması; sinif kollektivinin və ayrı-ayrı şagirdlərin psixoloji xarakteristikasının tərtibi, dərsin və sinifdənkənar tədbirin təhlili; pedaqoji təcrübə gündəliyinin aparılması.

9.Yerinə yetirilməyən tapşırıqlar və onun səbəbi.

10.Pedaqoji təcrübənin təkmilləşdirilməsi üçün təkliflər.

# ƏDƏBİYYAT


1.«Müəllimlik təcrübəsi keçən tələbələr üçün uğurlu praktikum proqramının yaradılması»
(Açıq Cəmiyyət İnstitutu – Yardım fondu).
«Yeni nəsil» nəşrlər evi. Bakı-2003.

2.Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin müəllimlik fəaliyyətinə hazırlanması işini tənzimləmək haqqında müvəqqəti qaydalar» 01.05.2002-ci il 394 №-li əmr

3.Davis, Barbara Gross. 1993. Tools for Teachinq. San Francisco: Jossey-Bass.

Dewey, John.1933. How We Think: A.Restatament of the Relation of Reflective Thinkinq to the Educative Process. Boston: D.C.Heath.

D'Youville Colleqe. Field Experince Manyal: Student Edition.

Glatthorm, A. and C.Coble. 1955. "Leadership for Effective Student Teachinq." In Gloria Appelt Slick. Ed. The Field Experience: Cretinq Successful Proqrams for New Teachers. Chapter 3.

Machado, Jeanne M. 1993. Student Teachinq:Earlu Childhood Practicum Guide. 2 nd Ed.Albany: Delmar.

4.New York University.School of Education. Department of Teachinq and Leaminq. Handbook for Student Teachers: Early Childhood and Elementaru Education. Sprinq 1995.

Pelletier, Carol Marra. 1995. A. Handbook of Techniques and Strateqiec for Coachinq Student Teachers.Needham Heiqhts, MA: Allyn and Bacon.

5.Posner, George. 1996. Field Experience: A Guide to Reflektive Teaching. White Plains, NY: Longman Publihers.

Roe, Bettu and others. 1989. Student Teaching and Field Experiences Handbook. 2 nd Ed.New York: Merrill.

Slick, Gloria Appelt. Ed. 1995. The Field Experience: Creting Successful Proqrams for New Teachers. Thousand Oaks, CA: Corwin Press.

6.State University College at Buffalo. Elementary Student Teaching.

Thought and praktice: The Jourmal of the Graduate School of Bank Street Colloge of Education. Vol. 3(1): 1991.

University of Colorado at Denver. School of Education. Early Childhood Education Focus: Early Childhood Practicum Handbook.

University of Maryland-Baltimore Campus. Post Baccalaureate Teacher Education Proqram. Supervisinq Teacher Guidelines for Providinq Internship Experiences.

University of Wisconsin –Stout. School of Home Economics. Field Experiences Proqram.

7.Vanderbilt University. Peabodu Colloge. Handbook for Elementary/ Early Childhood. Student Teachers.March 1996.

8.Wheelock Colloge. Children and Their Environments: Field Manual.

Wheelock Colloge. Human Growth and Development Field Manual.

Wheelock Colloge. Undergraduate Student Teaching handbook: Early Childhood Education/Elementaru Education. 1995.

Wheelock Colloge. Graduate Proqram Guidebook: Early Childhood Education/Elementaru Education. 1995.

9.Zeichner, Kenneth M.September 1992. Beyond Inguiru-Oriented Teacher Edication: Rethinking the Practicum. Monograph No 17. Sashatoon College of Education:

10.Zeichner, Kenneth M.November 1993. "Designing Educative Practicum Experiences for Prospektive Teachers." Keynote address at the annyal meeting of the Massachusetts Association of Collegec for Teacher Education

11. Açıq Cəmiyyət İnstitutu – Yardım fondu.
«Addım-Addım uşaqlar və ailələr üçün proqram»
«Yeni nəsil» . Nəşrlər evi. Bakı – 2003.

12. Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Tələbələrin biliyinin qiymətləndirilməsinin çoxhədli sistemi haqqında Əsasnamə»nin təsdiqi barədə 15.05.2003-cü il tarixli 420 saylı əmr.